

Azərbaycan milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətənidir. Onlar həmişə mehriban qardaşlıq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq şəraitində yaşamış, vətənin sevincini də, kədərini də birgə bölüşmüşlər. Öz tarixi ənənələrinə sadiq qalan müstəqil, demokratik Azərbaycan dövlətində bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmadan bütün vətəndaşların vicdan azadlığı, dini etiqad sərbəstliyi təmin edilmişdir.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 05 (58) 2018



**REDAKSİYA HEYƏTİ:**

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Həsənov** | Tarix elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Vasim Məmmədəliyev** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Tərcüməçi-redaktor:** Ayxan Həsənov
**Texniki redaktor:** Raman Dadaşov



**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16.
Telefon: (+99412) 492-65-23
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Azərbaycan" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA

## RƏSMİ GUŞƏ

**Prezident İlham Əliyev: Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır**....................................5

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İmam Hüseyn məscidinin bərpadan sonra açılışında iştirak edib**................................................................24

## BAXIŞ BUCAĞI

**Elçin Cabbarov –** İslamofobiyaya qarşı mübarizə «din və terror» müstəvisində......................26

**Фариз Ахмед -** Средства массовой информации как причина исламофобии.................36

## ARAŞDIRMA

**Kamran Vəlizadə -** Sosial fəlsəfədə dəyər kateqoriyasının formaları haqqında......................44

**Məsud Şükürov -** Qlobal mədəni inteqrasiya, multikulturalizim və mənəvi dəyərlər.............51

**Şahin Bağırov -** Siyasi elitanın formalaşması və demokratik prinsiplər dünya təcrübəsi kontekstində...........................................................................................59

## CƏMİYYƏT VƏ DİN

**Güney Namazova -** Din siyasətinin həyata keçirilməsində yaranan risklər və maariflәndirmənin əhəmiyyəti..........................................................................................66

**Elçin Həsənli -** Dini təhsilin sosial-fəlsəfi mahiyyəti və cəmiyyətin inkişafında rolu...........................................................................................74

## ŞƏXSİYYƏTLƏR

**Əhliman Rüstəmov -** Milli mətbuatımızda ziyalı və ruhanilərin rolu......................................82

**Arzu Hacıyeva –** Tibb və İslam (Azərbaycanda tibb maarifçiliyi tarixindən: Nəriman Nərimanov)...........................................................................................91

**Dilbər Rzayeva -** “Söndürmədim ürəyimdə vətənimin çırağın” (Muradəli Qureyşi Qaflantının həyat və yaradıcılığına qısa baxış).......................................100

## TARİXƏ PƏNCƏRƏ

**Tünzalə Musayeva -** Azərbaycan Xalq Cümhuriyyətinin ali təhsil siyasəti.............................106

**Rəhim Həsənov -** İctimai-siyasi arenada səfəviyyə təriqəti..................................................112



www.scwra.gov.az
e-mail: redaksiya@scwra.gov.az

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ ÖZ MİLLİ, DİNİ ƏNƏNƏLƏRİMİZƏ ÇOX BAĞLIYIQ, SADİQİK VƏ MİLLİ DƏYƏRLƏR GƏLƏCƏK İNKİŞAFIMIZ ÜÇÜN XÜSUSİ ROL OYNAYIR

## *Bakıda VI Beynəlxalq Humanitar Forum keçirilib*



Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlətimizin başçısı nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi**

- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün VI Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Forumun bütün iştirakçılarını səmimiyyətlə salamlayıram, xaricdən gələn qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Builki forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonaq iştirak edir. Bu, özlüyündə bir göstəricidir, onu göstərir ki, dünyada Foruma çox böyük maraq var. Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilmişdir.

Əminəm ki, Forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar Forumun işinə çox böyük töhfə verəcəklər.

Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir.

Bu il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd edirik. "Bakı Prosesi" beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, o cümlədən BMT bu prosesə çox yüksək qiymət verir. Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər. Ondan bir il sonra bu format təkrarlandı, Bakıda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilmiş tədbirə biz Avropa nümayəndələrini dəvət etdik.

Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlətdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edib çalışırdıq və çalışırıq ki, sivilizasiyalararası dialoqa öz töhfəmizi verək. Qeyd etdiyim kimi, "Bakı Prosesi" artıq beynəlxalq müstəvidə çox önəmli bir təşəbbüs kimi qiymətləndirilir. Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilmişdir ki, bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın. Eyni zamanda, Azərbaycanda keçirilmiş mötəbər idman yarışları da idman yarışları olsalar da, eyni zamanda, humanitar əməkdaşlığın dərinləşməsinə xidmət göstərir. Mən xüsusilə birinci Avropa Oyunlarını və İslam Həmrəylik Oyunlarını qeyd etmək istərdim. Hesab edirəm, o da çox rəmzi məna daşıyır ki, ilk Avropa Oyunları bizim təşəbbüsümüzlə Azərbaycanda keçirilmişdir. Hesab edirəm, bu, çox əlamətdar hadisə, əlamətdar qərardır ki, ilk Avropanın Oyunları müsəlman ölkəsində keçirilmişdir. Ondan iki il sonra - 2017-ci ildə Bakıda dördüncü İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Yenə də qeyd etmək istəyirəm, bunlar idman yarışlarıdır və bu iki oyunda on minə yaxın idmançı iştirak edib. Amma, eyni zamanda, biz bu oyunlara humanitar əməkdaşlıq prizmasından yanaşırıq, baxırıq və doğrudan da oyunlar zamanı Bakıda və digər bölgələrdə yaşanan gözəl ab-hava, gözəl həmrəylik iqlimi hesab edirəm ki, ümumi işimizə növbəti töhfə olmuşdur. Biz bu sahədə öz fəaliyyətimizi davam etdirəcəyik. Xüsusilə indiki şəraitdə ki, yenə də qeyd etmək istəyirəm, həm müsəlman aləmində, həm Avropada multikulturalizmlə, İslam həmrəyliyi ilə bağlı gedən proseslər müəyyən mənada narahatlıq doğurur. Ona görə Bakı Beynəlxalq Humanitar

Forumunun ənənəvi olaraq keçirilməsi və bu Foruma dünya birliyi tərəfindən yüksək qiymət verilməsi və diqqət yetirilməsi göstərir ki, belə tədbirlərə dünyada çox böyük ehtiyac var.

Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamışlar və bu siyasət bu gün də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş və bizim Şamaxı şəhərində yerləşən məscid milli sərvətimizdir. Eyni zamanda, digər qədim şəhərimizin - Şəki şəhərinin yaxınlığında Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi yerləşir. Hər iki məbəd əsaslı şəkildə təmir və bərpa edilib, dövlət tərəfindən qorunur. Bakıda qədim atəşpərəstlik məbədi Atəşgah yerləşir. Bu da onu göstərir ki, Azərbaycanda Zərdüştlük dininin ənənələri vardır.

Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilibdir və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır. Təsadüfi deyil ki, biz mənim Sərəncamımla 2016-cı ili Azərbaycanda “Multikulturalizm İli” elan etdik. Hesab edirəm ki, dünyada ilk dəfə olaraq belə bir təşəbbüs irəli sürülmüşdür. Bu, bizim niyyətimizi göstərmişdir, 2016-cı ilə multikulturalizm adını verməklə, ilk növbədə, biz dünyada Azərbaycanı olduğu kimi təqdim etmək istədik. Göstərmək istədik ki, multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Çünki siz də yaxşı bilirsiniz ki, bu gün həm siyasətçilər, ictimai xadimlər, həm də media tərəfindən multikulturalizmlə bağlı çox ziddiyyətli fikirlər səsləndirilir. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı vahid yanaşma olmalıdır və burada heç bir ziddiyyətli fikrə yer ola bilməz. Hesab edirəm ki, Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır. Biz çalışdıq ki, 2016-cı ildə diqqəti bu önəmli məsələyə cəlb edək. Xüsusilə nəzərə alsaq ki, bu gün, bir daha qeyd etmək istəyirəm, multikulturalizmlə bağlı müxtəlif fikirlər səsləndirilir. Hesab edirəm ki, Forumda bu məsələ çox geniş müzakirə olunacaqdır.

2017-ci ili isə biz “İslam Həmrəyliyi İli” elan etdik. Yenə də ona görə ki, Azərbaycanda İslam həmrəyliyi tam bərqərar olub. Onu da bildirməliyəm ki, Azərbaycan müsəlmanları vəhdət namazı qılırlar. Hesab edirəm ki, Azərbaycan bu sahədə müsəlman aləmində çox önəmli rol

oynayır. Eyni zamanda, biz müsəlman aləminin diqqətini də bu sahəyə cəlb etməyə çalışdıq. Çünki əfsuslar olsun ki, biz müsəlman aləmində həmrəyliklə bağlı istədiyimizə nail ola bilməmişik. Qarşıdurmalar, müharibələr, anlaşılmazlıq, toqquşmalar və digər təhlükəli meyillər ölkələr üçün böyük problemə, faciəyə çevrilir, milyonlarla insan həlak olur, evsiz-eşiksiz qalır, qaçqın, köçkün vəziyyətinə düşür. Əlbəttə, biz çalışmalıyıq ki, bu sahədə də öz təkliflərimizi verək, öz nümunəmizi göstərək ki, əgər İslam həmrəyliyi və multikulturalizm anlayışları vəhdət təşkil edərsə və dövlət siyasəti düzgün aparılarsa, bu, xalq tərəfindən də qəbul edilərsə, onda ölkələrdə problem olmayacaq. Müasir Azərbaycan bunun əyani, bariz sübutudur. Təsadüfi deyil ki, biz humanitar əməkdaşlıqla, multikulturalizmlə bağlı bir çox tədbirlərə ev sahibliyi edirik.

Qeyd etdiyim kimi, biz humanitar əməkdaşlığa çox böyük əhəmiyyət veririk. Bu məsələlər dost ölkələrlə həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində daim gündəlikdədir. Ancaq biz özümüz böyük humanitar fəlakətlə üzləşmişik. Bir həftə bundan əvvəl – oktyabrın 18-də biz Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd etmişik. Cəmi 27 ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqilliyimizin ilk günləri, ilk illəri çox ağır və faciəvi idi. Həm siyasi böhran, daxili çəkişmələr, vətəndaş müharibəsi, iqtisadi tənəzzül, kütləvi itaətsizlik, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti böyük fəlakətə, bəlalara gətirib çıxardı. Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır, xalqımıza qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmışdır, 1 milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşmüşdür. Bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişlər, o cümlədən BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələrin qəbul olunmasından 25 il keçir. Ermənistan bu qətnamələri icra etmir və əfsuslar olsun, hələ də beynəlxalq mexanizm işlənilməyib ki, təcavüzkarı beynəlxalq aparıcı qurum tərəfindən qəbul edilmiş qətnamələrin icrasına məcbur etsin. BMT-nin Baş Assambleyası oxşar qətnamə qəbul edib, digər beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti və digər təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilir və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi tələb olunur. Münaqişənin həlli üçün yeganə yol məhz budur, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmalıdır, - necə ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərilir, - və Azərbaycan vətəndaşları öz doğma, tarixi, əzəli torpaqlarına qayıtmalıdırlar.

Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır, Azərbaycanın ayrılmaz hissəsidir. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Bizim tarixi abidələrimiz, şəhərlərin, kəndlərin toponimləri bu torpaqların Azərbaycan xalqına məxsus olduğunu sübut edir. Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib. İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz,

qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir.

Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır. Düz 7 il bundan əvvəl - 2011-ci il oktyabrın sonlarında Azərbaycan ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu, bizim böyük siyasi və diplomatik uğurumuzdur, qələbəmizdir. Ən önəmlisi odur ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti Azərbaycanı dəstəkləyir, Azərbaycanda görülən işlərə yüksək qiymət verir, Azərbaycanı etibarlı tərəfdaş və dost ölkə kimi tanıyır.

Hesab edirəm ki, xarici siyasətlə bağlı apardığımız işlər gözəl nəticələrə gətirib çıxarır. İlk növbədə, biz qonşu ölkələrlə çox səmimi, mehriban qonşuluq, dostluq münasibətləri qura bilmişik. Hər bir ölkə üçün onun qonşuları ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, qonşu dövlətlərlə, - təbii ki, Ermənistan istisna olmaqla, - bizim münasibətlərimiz çox yüksək səviyyədədir, həm siyasi, iqtisadi, bütün başqa sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində.

Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir. Beləliklə, siyasi islahatların dərinləşməsi ölkəmizdə iqtisadi islahatlara daha da böyük təkan verir. Çünki sabitliyin mövcud olması ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə də gözəl şərait yaradıb. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan dünya miqyasında aparıcı yerlərdədir. Qeyd etməliyəm ki, ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir.

Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Makroiqtisadi sabitlik Azərbaycanda çox yüksək səviyyədədir. Deməliyəm ki, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Bununla belə, bizim maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, istədiyimiz halda biz xarici borcumuzu bir neçə ay ərzində sıfır səviyyəsinə endirə bilərik. Ona görə iqtisadi sahədə aparılan köklü islahatlar, əlbəttə ki, sosial sahəyə də müsbət təsir göstərib. Əgər biz sosial sahənin önəmli istiqamətlərinə nəzər yetirsək görərik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı son 15 il ərzində 49 faizdən 5,4 faizə düşübdür. İşsizlik bir sosial problem kimi demək olar ki, aradan götürülür, işsizlik 5 faiz səviyyəsindədir. Nəzərə almalıyıq ki, bu illər ərzində ölkə əhalisi də artır və əhali hər il ən azı 100 min nəfər artır. Ona görə bizim iqtisadi inkişafımız və o cümlədən sosial infrastrukturun yaradılması daimi proses olmalıdır. Biz bu sahədə də çox böyük işlər görmüşük.

Forumda müzakirə olunacaq məsələlərdən biri də təhsillə bağlıdır. Deyə bilərəm ki, təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsi prioritet məsələlərdən biridir. Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir. Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub. Eyni zamanda, müəllim peşəsinə maraq da çox böyük dərəcədə artır. Aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb və bu il biz bunu əyani şəkildə görmüşük. Test imtahanlarında yüksək ballar toplayan abituriyentlər arasında müəllim olmaq istəyənlərin sayı bir neçə dəfə artıbdır. Yəni, bu, onu göstərir ki, humanitar sahənin əsas hissələrindən biri olan təhsil sahəsinə çox böyük diqqət göstərilir və gözəl nəticələr vardır.

Ölkəmizin hər bir yerində müasir tibb mərkəzləri yaradılıbdır. Son 15 il ərzində 650-dən çox tibb müəssisəsi yenidən qurulub, əsaslı təmir edilib və tikilib. Hər il 5 milyondan çox insan dövlət hesabına pulsuz tibbi müayinədən keçir. Yəni, bunlar humanitar sahənin çox önəmli hissələridir və bundan sonra da bu istiqamətlər üzrə ardıcıl siyasət aparılacaq.

Mən idman yarışlarını qeyd etdim. Amma onu da bildirməliyəm ki, idman sahəsində də böyük uğurlar əldə edilib. İdmanın maddi-texniki bazası qurulub. Təkcə Bakıda deyil, Azərbaycanın digər şəhərlərində 45 müasir Olimpiya İdman Mərkəzi yaradılıb. Son Olimpiya Oyunlarında - Rio-de-Janeyroda keçirilmiş Olimpiadada medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülüb.

Biz ardıcıl siyasət aparmaqla həm iqtisadi islahatları dərinləşdiririk, həm də sosial sahədə lazım olan addımları atırıq. Ölkəmizdə yüksək texnologiyalara çox böyük diqqət göstərilir, bu yaxınlarda üçüncü peykimiz orbitə buraxıldı. Azərbaycan artıq neçə ildir ki, dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və 3 peykimiz var. Əlbəttə ki, bu, həm texnoloji inkişafdır, həm təhsildir, həm də biznes imkanlarını yaradır. Biz bu gün peyk xidmətlərini ixrac etməklə ölkəmizdə ixracı da şaxələndiririk.

"ASAN xidmət" mərkəzlərinin yaradılması sosial və humanitar sahədə çox önəmli təşəbbüsdür. Əgər qonaqlarda imkan olarsa, onlar Bakı şəhərində fəaliyyət göstərən beş mərkəzdən birinə baş çəkə bilərlər. Görə bilərlər ki, doğrudan da Azərbaycan texnologiyaları

əsasında, sırf Azərbaycanın intellektual məhsulu olan “ASAN xidmət” necə fəaliyyət göstərir. Bu il bu mərkəzlərin sayı 15-ə çatdırılacaq, 5-i Bakıda, 10-u bölgələrdə. Bu mərkəzlərdə bir binada 300-dən çox xidmət göstərilir və vətəndaşların “ASAN xidmət”i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur. İctimai xidmətlər sahəsinə xas olan bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində “ASAN xidmət” mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir.

Mən Azərbaycan haqqında çox danışa bilərəm, - çünki qonaqların bir hissəsi ilk dəfədir ki, ölkəmizə gəlib, - sadəcə olaraq, çıxışımın yekununda bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm. Bu məsələ həm humanitar əməkdaşlığı dərinləşdirir, həm də qarşılıqlı maraqları təmin edir. Hesab edirəm ki, humanitar əməkdaşlıq deyəndə biz mütləq bunun gözəl nəticələrini görməliyik və bilməliyik ki, bu, nəyə gətirib çıxaracaqdır.

Sonuncu mövzu nəqliyyat siyasətimizlə bağlıdır. Azərbaycanın coğrafi vəziyyəti əlverişlidir, ancaq müasir infrastruktur olmadan bu coğrafi vəziyyətin heç bir əhəmiyyəti yoxdur. Digər tərəfdən, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Ona görə bizim bütün nəqliyyat, enerji, kommunikasiya xətlərimiz başqa ölkələrin ərazisindən keçməlidir. Əlbəttə, qeyd etdiyim kimi, buna nail olmaq üçün mütləq, ilk növbədə, qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə çox sıx dostluq münasibətləri olmalıdır və bunlar da var. Biz bir neçə il bundan əvvəl nəqliyyat sahəsində qarşıya vəzifə qoymuşduq ki, Azərbaycan nəinki bu bölgədə, dünya miqyasında güclü nəqliyyat mərkəzinə çevrilsin. Bu məqsədə doğru ardıcıl olaraq getməyə başlanmışdır və bu gün tam əminliklə deyə bilərəm ki, biz buna nail ola bilmişik. Ölkəmizdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb, 6 beynəlxalq hava limanı, Azərbaycanı bütün qonşu ölkələrlə bağlayan və ölkəmizin əsas hissəsini əhatə edən dəmir yolları, son 15 ildə salınmış 15 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində 200–dən çox gəmisi olan ən böyük ticarət donanması. Yəni, bütün bunlar böyük vəsait tələb edən layihələrdir və onlar həll olunub. Nəhayət, Xəzər dənizinin önəmli, yeni ticarət limanının bu il istifadəyə verilməsi bu işləri tamamlayıb. Bu gün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti daha da genişlənib. Keçən illə müqayisədə bu il bu dəhliz vasitəsilə 100 dəfədən çox həcmdə yük daşınıbdır. Bu, hələ başlanğıcdır. Bu gün bu önəmli iki istiqamətə digər istiqamətlərdən qoşulma halları müşahidə olunur. Biz bu gün artıq Cənub-Qərb nəqliyyat dəhlizini təmin edirik və Şərq-Qərb nəqliyyat dəhlizi də Azərbaycan ərazisindən keçir. Bütün bu nəqliyyat, infrastruktur layihələrində iştirak edən yeganə ölkə Azərbaycandır. Bu nəqliyyat bağlılığı, eyni zamanda, mehriban qonşuluğa da gözəl şərait yaradır. Heç bir ölkə, əgər qonşularla yaxşı münasibətləri yoxdursa, heç vaxt etibarlı tranzit məntəqəsinə çevrilə bilməz. Ona görə, bizim enerji, nəqliyyat, infrastruktur layihələrimiz ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır. Ölkələr arasındakı əməkdaşlığı dərinləşdirmək üçün xüsusilə qonşu ölkələrlə, ənənəvi dost ölkələrlə münasibətlərdə mütləq humanitar sahəyə böyük önəm verilməlidir. Bu olmasa, bütün başqa sahələrdə də problemlər yaşana bilər.

Ona görə, mən bir daha qeyd etmək istəyirəm ki, biz humanitar əməkdaşlığa çox böyük

diqqət göstəririk, bir çox təşəbbüslər irəli sürmüşük. Onlardan biri Bakı Beynəlxalq Humanitar Forumudur ki, bu gün öz işinə başlayır. Əminəm ki, aparılacaq diskussiyalar, müzakirələr bizim ümumi işimizə gözəl töhfə verəcəkdir.

Forumun iştirakçılarını bir daha salamlayır və Foruma uğurlar arzulayıram. Sağ olun.

* * *

**Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub və çıxış edib:**




-Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım.

İcazə verin, Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin Foruma təbrik məktubunu oxuyum.

“VI Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına və qonaqlarına

Hörmətli xanımlar və cənablar.

Bakı Beynəlxalq Humanitar Forumunun açılışı münasibətilə sizi səmimi qəlbdən salamlayıram. Artıq altıncı dəfədir ki, Azərbaycan paytaxtı onlarla ölkədən dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, parlamentarilərin və alimlərin, mədəniyyət xadimlərinin, jurnalistlərin və publisistlərin iştirak etdiyi bu nüfuzlu Forumu qəbul edir.

Bu il sizin görüşünüz müasir cəmiyyət üçün çox əhəmiyyətli olan “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusuna həsr edilib. Mövcud təhsil və maarif sistemlərinin təkmilləşdirilməsinə, mədəniyyətin və incəsənətin dəstəklənməsinə, informasiya təhlükəsizliyinin təminatına, intellektual mülkiyyətin müdafiəsinə və digər aktual məsələlərə dair ətraflı diskussiyalar nəzərdə tutulub. Əminəm ki, siz qiymətli peşəkar təcrübənizi və mütərəqqi praktiki yeniliklərinizi mübadilə edəcək, həmçinin qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın yeni perspektivli forma və istiqamətlərini müəyyənləşdirə biləcəksiniz. Forumun iştirakçılarına səmimi qəlbdən uğurlar diləyir və ən xoş arzularımı çatdırıram.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin”.

* * *

Çıxışına davam edən O.Qolodets deyib:

-Hörmətli qonaqlar, mən öz adımdan da bir neçə söz demək istəyirəm. Mən Bakı Beynəlxalq Humanitar Forumunda ilk dəfə deyil ki, iştirak edirəm və bu gün Humanitar Forumun necə sürətlə inkişaf etməsi məni heyrətləndirir. Bir neçə il bundan əvvəl bu Forumun belə sanballı olacağını güman etmək olmazdı. Bu gün Forumda 90-dan çox ölkənin nümayəndələrinin toplaşması və onun sivilizasiya, mədəniyyətlərarası, millətlərarası və dinlərarası münasibətlərin inkişafına dair dünya miqyasında dialoqun tərəqqisi üçün ən əhəmiyyətli məkanlardan birinə çevrilməsi, əlbəttə, ölkə rəhbərliyinin xidmətidir. Forumu dəstəkləmək, onu bu səviyyədə inkişaf etdirmək üçün gündəlik iş aparmaq və cənab Prezidentin indicə dediyi dəyərlərə sadiq olmaq lazımdır.

Biz Azərbaycanla sıx əməkdaşlıq edirik və prezidentlərimiz humanitar inkişaf məqsədlərinə ürəkdən sadiqdirlər. Bu, çox böyük zəhmət deməkdir. Bir sadə misal çəkim. Keçən dəfə buraya gələndə mən adi bir ümumtəhsil məktəbində oldum. Sizə deməliyəm ki, uşaqlara üç dildə dərs keçilən məktəblər dünyada azdır. Uşaqlar və onun valideynləri təhsil dilini seçmək üçün tam imkana malikdirlər və bu halda uşaqlar başqa mədəniyyətlərlə, başqa dillərlə tanış olur, onların bu və ya digər milliyyətə bağlılığı çox güclü inkişaf amilinə çevrilir. Müxtəlif millətlərin, mədəniyyətlərin və dinlərin qonşu olmasını güclü quruculuq prosesinə çevirmək çox böyük səy tələb edən ciddi prosesdir. Bu, dünya birliyinin bütün mütərəqqi qüvvələrinin birləşməsini tələb edir. Biz ümid edirik ki, məhz bu Forum humanitar əməkdaşlığımızı irəli aparacaq.

Rusiyada müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı fəaliyyəti məsələsi bir nömrəli mövzudur. Bizdə də uşaqlar məktəbə gedəndə Rusiyada yaşayan xalqların 119 dilində dərsliklər yaradılır. Xalqların qarşılıqlı fəaliyyətini quruculuğa çevirmək də çox böyük səy və çox böyük zəhmət tələb edir. Yəqin ki, Bakının faktiki olaraq dünyada humanitar dialoqun həyata keçirildiyi paytaxta çevrilməsi təsadüfi deyil. Biz bu şəhərin hər bir cizgisində ənənələrə böyük hörmət nişanələri görürük. Biz burada muzeylər, tarixi mərkəz və eyni zamanda, bütün yeniliklərə və kreativliklərə açıqlıq görürük. Bu gün bu qədər çoxsaylı müasir memarlıq şedevrləri olan yerlər azdır. Bu, ölkə rəhbərliyinin böyük xidmətidir və eyni zamanda, burada yaşayan və hər gün humanitar inkişaf istiqamətində irəliləyən bütün xalqın xidmətidir.

Humanitar Forumun təşkilinə görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu Forumun bütün iştirakçılarına uğurlar diləmək və həqiqətən dünya səviyyəli bu əlamətdar hadisə münasibətilə cənab Prezidenti və Mehriban xanımı şəxsən təbrik etmək istəyirəm.

Sağ olun.

* * *

**BMT baş katibinin müavini Rəşid Xalikov çıxış edərək deyib:**

-Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Xanımlar və cənablar.

İcazə verin, çıxışıma BMT-ni bu tədbirə dəvət etdiyinə görə Azərbaycan Respublikasının Hökumətinə təşəkkürümü bildirməklə başlayım. Mən, həmçinin bu gün burada təmsil etdiyim Birləşmiş Millətlər Təşkilatının baş katibi cənab Antonio Quterreşin səmimi salamlarını



çatdırmaq istərdim. Cənab Quterreş çox təəssüflənir ki, proqramında olan digər görüşlər səbəbindən bu mühüm Forumda iştirak edə bilmir.

Ötən ilin iyul ayında BMT-nin baş katibinin söylədiyi fikirləri sitat gətirmək istəyirəm: "Fikrimcə, etiraf etmək vacibdir ki, paradoksal vəziyyət yaranıb. Çünki problemlər get-gedə daha qlobal xarakter alır, çağırışlar get-gedə daha qlobal xarakter alır və onların hər hansı ölkə tərəfindən təkbaşına həll edilməsi mümkün deyil. Beləliklə, biz qlobal cavablar axtarırıq. Bizə çoxtərəfli idarəçilik formaları lazımdır. Biz etimadın çatışmazlığı kimi məsələlərin öhdəsindən gəlməyi bacarmalıyıq". BMT-nin baş katibi, əslində, bu sözləri söyləyərkən çağırışların vacibliyini qeyd edib və bildirib ki, heç kəs diqqətdən kənarda qalmalı deyil.

Biz VI Beynəlxalq Bakı Humanitar Forumuna olduqca mühüm məsələləri müzakirə etmək üçün toplaşmışıq. Hesab edirəm ki, BMT-nin baş katibi bu missiyanı öz üzərinə götürərək bunun tam yekun nəticəyə qədər aparılmasının təmin edilməsinə çalışacaq. Mən, həmçinin həmin məsələlərin əksər hissəsini əhatə edən bu mühüm Forumu təşkil etdiyinə görə Azərbaycan Respublikasının səylərini alqışlamaq istərdim. Humanitar yardım vacib olaraq qalsa da, bizə zəif məqamların, qalan yoxsulluğun və böyük sayda işsizliyin aradan qaldırılmasında daha dayanıqlı, güclü və orta perspektivli yanaşma lazımdır. Şadam ki, həmin məsələlərdən bəziləri bu Humanitar Forumda müzakirə olunacaq.

Zati-aliləri, xanımlar və cənablar, hörmətli həmkarlar, icazə verin, qısaca olaraq hazırkı humanitar vəziyyətə toxunum. 2018-ci ildə 134 milyon insan qlobal səviyyədə humanitar yardıma ehtiyac duyur. BMT-nin və onun tərəfdaşları böhrana məruz qalmış insanların təxirəsalınmaz həyati tələblərini dəstəkləmək üçün 25,3 milyard ABŞ dolları ayrılmasını



xahiş ediblər. Münaqişə humanitar ehtiyacların ən böyük səbəbi olaraq qalır. Əlavə olaraq, qaçqınların sayı artır və onlar daha uzun müddətdə öz doğma ölkələrindən uzaqda qalırlar. Livan, Türkiyə və İordaniya öz əhalisinin sayına nisbətdə böyük sayda qaçqınları qəbul ediblər. Kamerun, Çad, Sudan və Uqanda kimi ən az inkişaf etmiş ölkələrdə 4,9 milyon qaçqın var. Yəni, bu, qlobal qaçqın sayının 28 faizini təşkil edir.

Əfqanıstan, Cənubi Sudan, Somali və başqa ölkələrə gəldikdə, uşaqlar öz həyatları boyu münaqişədən başqa bir şey görməyib. Hər insanın təhlükəsizliyə və müdafiəyə haqqı var. Biz bu hüququn təmin edilməsi üçün əlimizdən gələni etməliyik. BMT-nin baş katibi hamını beynəlxalq humanitar hüquqa, insan hüquqlarına, mülki əhalinin qorunmasına səsləyir. Həmçinin humanitar yardım işçiləri üçün təhlükəsizlik şəraitlərinin yaradılması da vacibdir. Eyni zamanda, baş katib beynəlxalq ictimaiyyəti məcburi köçkünlüyün qarşısının alınmasına, qaçqın həyatı yaşayan hər kəs üçün dayanıqlı həll variantlarını təmin edərək həm öz ölkəsində, həm də kənarda zorakılıq səbəbindən öz yerlərini tərk etmiş insanların hüquqlarının təmin olunmasına çağırır. Münaqişə ilə üzləşmiş milyonlarla insana, qida, su və təhlükəsiz sığınacaq üçün çarpışan insanlara, qayıtmaq ümidi olmayan, öz evlərini tərk etməyə məcbur olan, məktəbləri bombalanmış insanlara, həyatları xilas etmək üçün tibbi yardım göstərən insanlara diqqətlə yanaşmalıyıq. Biz bütün bunlara göz yuma bilmərik.

Azərbaycanda məcburi köçkünlər üçün dayanıqlı həll yolunun tapılmasında, o cümlədən onların öz evlərinə, doğma yurdlarına qayıtmasında üzləşdiyimiz əsas maneələrdən biri Dağlıq Qarabağ bölgəsində və ətrafında həll olunmamış silahlı münaqişənin siyasi həllinin olmamasıdır. BMT-nin baş katibi bu yaxınlarda ATƏT-in Minsk qrupunun həmsədrlərinin göstərdiyi mühüm vasitəçi səylərinə tam dəstəyini bir daha vurğuladı və tərəfləri etimadı

artırmaq üçün addım atmağa, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün lazımi siyasi iradəni gücləndirməyə səslədi.

Nəinki münaqişələr, eləcə də təbii fəlakətlər insan əziyyətlərini artırır. Bir neçə həftə əvvəl İndoneziya növbəti zəlzələ və sunami ilə üz-üzə qaldı. Nəticədə 2 milyondan çox insan əziyyət çəkdi və onlardan 60 mindən çoxu məcburi köçkünə çevrildi. Əfqanıstanda hazırkı münaqişədən əlavə bu il quraqlıq baş verib və ölkənin üçdə iki hissəsində yaşayan 2 milyon insan qidalanma problemi ilə üzləşir. Haitidə yüzlərlə insan zəlzələnin fəsadları ilə üz-üzə qalıb.

Zati-aliləri, xanımlar və cənablar, bu regionda təbii fəlakətlər də baş verir və o, buna həssasdır. Ona görə də vacibdir ki, hazırlıq səviyyəsini təşviq etmək üçün informasiya və təcrübə mübadiləsi aparılsın. Biz BMT olaraq bu regionun ölkələri arasında informasiya mübadiləsinə və imkanların genişləndirilməsinə yardım etməyə hazırıq.

Yekun olaraq, Azərbaycan Respublikasının qlobal səviyyədə humanitar yardım göstərən nəzakətli addımlarını alqışlayıram. Azərbaycan BMT-nin müxtəlif qurumları vasitəsilə qlobal səviyyədə humanitar yardımı milyonlarla dollar səviyyəsində artırıb.

Bununla mən sözümü bitirirəm, sizin hamınıza uğurlar arzulayıram.

* * *

**ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri çıxış edərək deyib:**



-Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva.

Zati-aliləri, xanımlar və cənablar.

Belə bir mötəbər Forumda çıxış etməkdən olduqca məmnunam. Bu tədbirdə bizə dost olan bir çox insanların əyləşdiyini görürəm. Mən Azərbaycan Respublikasının Prezidentinə

təşəkkürümü bildirirəm. O, ölkəyə uzaqgörənliklə, müdrikliklə rəhbərlik edir, sülh və təhlükəsizliyi bütün dünyada təşviq edir.

Forumun uğurlu olması onu göstərir ki, bu ölkə problemlərə, ərazi bütövlüyü ilə bağlı çətinliklərə baxmayaraq, - mən Dağlıq Qarabağ məsələsini nəzərdə tuturam, - irəliyə doğru gedir, inkişaf edir və bütün dünyaya örnək göstərir.

Dünya ədalətli, düzgün olmalıdır ki, bu məsələlərin aradan qaldırılmasına nail olunsun. Bu, həlledici məsələdir, bu məsələlərə səmimi yanaşılmalıdır. Ümumiyyətlə, bir insan digər insanın ərazisini işğal etdiyi halda siz dünyada sülhə, təhlükəsizliyə nail ola bilməzsiniz. Bu, beynəlxalq hüquqa ziddir, bu, ümumiyyətlə, dinlərə qarşı olan bir addımdır, bütün etikadan və mənəviyyatdan uzaq olan bir addımdır. Bu problemlərin həlli bizdən nəyi tələb edir? Biz beynəlxalq hüququn ruhuna, prinsiplərinə riayət etməliyik. Çünki bu gün dünyada bir çox problemlər və çağırışlar var. Fələstin, Dağlıq Qarabağ, Cəmmu və Kəşmir, Myanma və dünyanın bir çox yerlərində insanlar əzab-əziyyətlə üz-üzədir. Onlar yoxsulluqdan əziyyət çəkirlər, çətinliklərdən keçirlər. Biz bunun şahidiyik və görürük ki, sadəcə, gözəl sözlər söyləmək kifayət deyil, biz dünyanı təhlükəsiz etmək üçün təbii ki, ədaləti təmin etməsək bu, mümkün deyil. Bu, bizim üçün mühüm bir şərtdir. Bunu etiraf etməliyik və bu istiqamətdə işləməliyik. Forum bu nailiyyətin əldə olunması istiqamətində irəliyə doğru atılan bir addımdır. Düşünürəm ki, məhz iştirakçıların ayırdığı diqqət və onların verəcəyi töhfə əsasında Forumun uğuruna nail ola biləcəyik. Müəyyən işlər görə bilərik ki, dünyanın diqqətini bu məsələlərə yönəldək. Çünki insanlıq olmadan gələcək ola bilməz, sülh ola bilməz, ədalət zəfər çala bilməz və əməkdaşlıq baş tuta bilməz. Bu problemlər həll olunmasa, qarşımızda dayanan məqsədlərə çatmaq mümkün olmaz. Buna görə dünyaya üz tutaraq deməliyik ki, biz qardaş və bacılarıq. Mövcud olan problemləri məhz bu yolla həll etməliyik. Çünki milyonlarla insan əziyyət çəkir. Biz buna dözümlülük göstərməli deyilik. Dünya öz səylərini birləşdirməlidir, bu məqsəd üçün hamı səfərbər olunmalıdır ki, dünya daha təhlükəsiz şəkildə inkişaf etsin, ədalət zəfər çalsın və bərabərlilik təmin edilsin. Bütün bu prinsiplər humanitar bir ruhda tətbiq edilməlidir. Sadəcə, bunları söyləmək kifayət deyil, buna görə də biz iş görməliyik.

Biz ISESCO olaraq öz tərəfdaşlarımızla sıx işləyirik, Avropa Şurası ilə birgə çalışırıq. Bir sıra digər beynəlxalq təsisatlarla iş aparırıq, o cümlədən İslam və ərəb dünyasının təşkilatları ilə birgə işləyirik. Biz çox diqqətliyik və fikirlərimizin nədən ibarət olduğunu səmimi şəkildə bildiririk. Biz bəşəriyyətə xidmət edən idealları təşviq edirik. Bizim hamımız dinə etiqad edən insanlarıq. Biz bütöv bir ailə olmalıyıq. BMT-nin Nizamnaməsində də, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də bildirilir ki, insanlar bərabərdir. Quranda da, İncildə də, Tövratda da bildirilir ki, insanlar bərabərdir. Yəni, bizim hamımız bu səma altında eyni və bərabərik. Bizim insan hüquqlarımız da vahiddir. Yəni, biz burada müxtəlif ölçülərdən istifadə edə bilmərik: bu dünya belə olmalıdır, burada ədalət olmalıdır, başqa yerdə isə yox. Ədalət bir olur və bu, bütün hallara tətbiq edilməlidir. Mən burada çıxış etmək üçün mətn hazırlamışdım. Lakin onu oxumuram, sizə səmimi qəlbdən gələn sözlərimi söyləyirəm. Mən bunları öz təcrübəm əsasında deyirəm.

Mən çox yerlərdə olmuşam, çox yerləri gəzmişəm, Afrikada, Asiyada, Latın Amerikasında,

həmçinin Avropada milyonlarla insanı səfalət içində görmüşəm. Dünya özü də tam kamil deyil, onun da öz problemləri var. Bizi birləşdirən ruh qardaşlıq ruhu olmalıdır, hamımızın ürəyində insani hisslər var. Biz öz ölkələrimizin gələcəyi üçün çalışmalıyıq. Müəyyən bir yerdə insanların əzab-əziyyət çəkməsinə və öz gələcəklərindən məhrum olmalarına göz yummalı deyilik. Təbii ki, yerlərdə davamlı iş aparılmadan, problemləri həll etmədən sülhü təmin edə bilmərik. Şimalda, Qərbdə, Cənubda milyonlarla insan - müsəlmanlar, xristianlar, bütpərəstlər əzab-əziyyətlə üzləşirlər. Bu Forum bilirsiniz ki, dini forum deyil. Baxmayaraq ki, İslam sivilizasiyası, Avropa sivilizasiyası, hindu sivilizasiyası var, burada söhbət beynəlxalq sivilizasiyadan gedir və Forumun məqsədi bizim hamımızı bir araya gətirməkdən ibarətdir.

Cənab Prezident, mən buna görə Sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm ki, bütün dünyaya aydın şəkildə nümunə göstərirsiniz. Bununla bağlı öz biliklərinizi bütün dünya ilə paylaşırsınız. Ziyalıları, media təmsilçilərini, hökumət rəsmilərini, dünyanın 90 ölkəsindən olan nümayəndələri burada bir araya gətirirsiniz. Bakı mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoqun mərkəzinə çevrilib.

Zati-aliləri, diqqətinizə görə çox sağ olun.

* * *

**UNESCO-nun baş direktorunun müavini Çu Sin çıxış edərək deyib:**



-Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev.

Zati-aliləri, Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets.

ISESCO-nun baş direktoru cənab Əbdüləziz bin Osman əl-Tuveycri.

BMT baş katibinin Yaxın Şərq və Mərkəzi Asiya ilə humanitar tərəfdaşlıq üzrə müavini cənab Rəşid Xalikov.

Zati-aliləri, xanımlar və cənablar.

Əvvəla, icazənizlə UNESCO-nun baş direktoru xanım Odre Azulenin adından və öz adımdan VI Bakı Beynəlxalq Humanitar Forumun keçirilməsi münasibətilə sizə ən xoş təbriklərimi çatdırım.

Hamımızın çox minnətdar olduğu Zati-aliləri Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan "Bakı Prosesi"nin 10 illik yubileyini qeyd etmək üçün burada olmaq məndə məmnunluq hissi oyadır. Bu proses dünyada olan çağırışlarla üzləşən mədəniyyətlərarası dialoqu dərinləşdirib, o cümlədən daha güclü iqtisadiyyatların və ya daha mütəhərrik təhsil sistemlərinin necə yaradılması və informasiyanın yayılmasını özündə necə birləşdirilməsini ehtiva edən məsələlərə ünvanlanıb. Bu çağırışların hamısı "Yeni dünya və yeni insan formalaşdıraq: kreativlik və insan inkişafı" adlandırılan bu Forumun mövzusunda əhatə olunub.

Yaradıcılıq həqiqi bəşəriyyətlə təkrar əlaqə yaratmağımız üçün güclü vasitədir. Rəssamlar müştərək paylaşdığımız bəşəriyyətin müxtəlif görüntülərini təqdim edir, insanların seçimlərini genişləndirir və onların təxəyyülündə alternativ gələcəklə bağlı qığılcım yaradır. Yaradıcılıq, eyni zamanda, əsas iqtisadi qüvvədir. Bu gün mədəni və yaradıcı sənayelər böyük iqtisadi faydalar gətirir, 30 milyon insanı işlə təmin edir və bəzi ölkələrdə ÜDM-in 10 faizini təşkil edir. UNESCO mədəni ifadələrin müxtəlifliyini, incəsənət azadlığını və rəssamların sərbəst hərəkətini təbliğ etmək üçün hökumətlərə dəstək göstərir. Qlobal populyasiya daha çox qloballaşdığına görə şəhərlər yaradıcılığın əsas hablarına çevrilir. Məhz buna görə UNESCO-nun yaradıcı şəhərlər şəbəkəsi yaradıcılığı və mədəni sənayeləri yerli səviyyədə inkişaf planlarının mərkəzində yerləşdirir. Hazırda dünyanın 180 şəhəri innovasiya, dizayn, film, qastronomiya, ədəbiyyat, musiqi və media incəsənətini irəli aparır. Azərbaycanın şimal-qərbində yerləşən Şəki şəhəri sənət işləri və incəsənət üzrə UNESCO-nun yaradıcı şəhərinin parlaq nümunəsidir. Bu şəhər gözəl memarlıq, ipəkçilik və ənənəvi sənət işlərinə görə məşhurdur. O, bir vaxtlar Asiya İpək Yolunun bir hissəsi idi. Bu gün həmin şəhər çoxlu etnik mənsubiyyəti və yaradıcılığın özəyi kimi mədəniyyətlərarası dialoq ənənəsini davam etdirir.

Mədəniyyət və yaradıcılığın gücü özünü rəqəmsal sahədə də büruzə verir. Hazırda bizi yeni informasiya və mədəni ifadələrdən yalnız bir neçə il ayırır. İnternet özündə qlobal dili təcəssüm etdirən rəqs, teatr, ədəbiyyat, musiqi, filmlər və sairə ilə yeni müzakirələrə yol aça bilər və UNESCO da rəqəmsal dövrdə mədəni müxtəliflik üzrə işlərə rəhbərlik etməklə insanlar arasında maneələri aradan qaldırır. Lakin yaradıcılığın yalnız mədəniyyət sahəsi ilə məhdudlaşdığını düşünmək səhv olardı. Yaradıcı düşüncə və innovasiya bütün insan fəaliyyətlərinin başlanğıcını qoyur. Bir çox böyük çağırışların öhdəsindən gəlmək üçün bizə elm, texnologiya, mühəndislik və riyaziyyat da lazımdır. SUN layihəsinin direktorunun da qeyd etdiyi kimi, elm və incəsənət bir-birinin əksi deyil, hər ikisi bəşəriyyətin kreativliyinin ən yüksək nöqtələrini təmsil edir. İqlim dəyişikliyi dövrümüzün əsas dəyişikliklərinə səbəb olur. Süni intellektin kəşfi dünyanı dəyişdirir və bir sıra işlərə ehtiyacı aradan qaldırır, lakin yeni imkanlar, o cümlədən iqtisadi imkanlar yaradır. Biz yeni dünyaya, sadəcə, adaptasiya olmamalı, həm də fəal şəkildə iştirak etmək üçün bütün imkanlarımızı səfərbər etməliyik. Bu səbəbdən də XXI əsrin kadr inkişafı istiqamətində tələblərinə hələ də tam cavab verməyən təhsil sistemlərimizdə ciddi dəyişikliklər etməliyik. Mövcud tədris prosesindəki problemləri təcili olaraq həll etməliyik. Dünyada 670 milyon

uşaq və gənc qiraət və riyaziyyat üzrə minimal bacarıq tələblərinə cavab vermir. Qadınların və qızların, xüsusilə elm sahəsində bərabər imkanlara malik olmasını təmin etməliyik. Tənqidi düşünmə, problem həlli, komandada işləmə bacarıqlarını inkişaf etdirməliyik.

Təhsil, eyni zamanda, qlobal vətəndaşlığın öndə olan dəyərlərindən biridir. Davamlı inkişaf, insan hüquqları və qarşılıqlı anlaşma, mürəkkəb dünyanı anlamaq, dünyanın kompleks informasiya və kommunikasiya sahəsində hərəkət etmək üçün vacib komponentlərdir. Böyük bir təhlükə var - internet tolerant olmayan gənclər arasında yanlış informasiyanın yayılması üçün bir vasitə ola bilər. Digər təhlükə isə həddən çox tədbirlərdən istifadə edərək cəmiyyətlərin effektiv fəaliyyəti üçün vacib olan azadlığın və imkanların məhdudlaşdırılmasıdır. Bunun əvəzinə, ötən il UNESCO-nun nəzarəti altında işçi qrupun hazırladığı hesabata uyğun olaraq, diqqəti rəqəmsal savadlılıq və vətəndaşlığın təbliğ edilməsinə yönəltməliyik. Media və informasiya savadlılığı vətəndaşların informasiyanın nə olması və kim tərəfindən yayılmasına daha tənqidi yanaşmasını təmin etmək üçün çox əhəmiyyətlidir. UNESCO bu məsələ üzrə aparıcı təşkilatlardan biridir və təhsil kurrikulumunu işə salıb, üzv ölkələr bu istiqamətdə dərslər hazırlayıb onlayn kurslar, layihələr və araşdırmalar təşkil edirlər. UNESCO və BMT-nin sivilizasiyalar ittifaqı illik qlobal media və informasiya savadlılığı həftəsi oktyabrın 24-də başladı. Proqram çərçivəsində dünya üzrə bir sıra tədbirlər təşkil olunacaq.

Xanımlar və cənablar, İkinci Dünya müharibəsindən sonra Eynşteyn bir çıxışında belə demişdi: “Düşünmə modelindən başqa hər şeyi dəyişdik”. Bu gün düşünmə modelimizi daha kreativ, insan inkişafına daha yönümlü bir istiqamətdə dəyişmək üçün real imkanımız var. Bütün üzv ölkələrin üzərində işlədiyi BMT-nin davamlı inkişaf proqramı daha dərin, daha geniş mədəniyyətlərarası dialoqa əsaslanan kollektiv həllər tapmağa istiqamətlənib. UNESCO da üzv ölkələri mədəniyyət, təhsil, elm və kommunikasiya sahəsində dəstəkləməkdə davam edir. Bu nəslin daha təhlükəsiz, daha sülh dolu, daha firavan və daha davamlı yeni bir dünya yaratmaq imkanı var. Ümid edirəm ki, “Bakı Prosesi”nin yeni ilində müzakirələr bu mövzu ətrafında da olacaq.

Sağ olun.

* * *

**Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış edərək deyib:**

- Çox sağ olun, cənab Prezident İlham Əliyev.

Hörmətli tədbir iştirakçıları, milli parlamentlərin ümumdünya təşkilatı olan Parlamentlərarası İttifaqın sədri və meksikalı parlamentari kimi VI Bakı Beynəlxalq Humanitar Forumunda çıxış etməkdən çox şadam. Biz bu gün buraya beynəlxalq aləmin, eləcə də bəşəriyyətin bir sıra qlobal çağırışlarla üzləşdiyi vaxtda toplaşmışıq. Oslo Sülh Tədqiqatları Mərkəzinin rəyinə görə, 2017-ci il soyuq müharibə bitdikdən sonra ən zorakı illərdən biri olub. Həmin ildə dövlətlər arasında 49 həll olunmamış münaqişə və 82 fəal mərhələdə olan qeyri-dövlət münaqişəsi qeydə alınıb. Həmin münaqişələrin, o cümlədən bütün dünyada artan ekoloji böhranın nəticəsi olaraq dünya miqyasında məcburi köçkünlərin sayı 2017-ci ilin sonuna 68,5 milyon insana çatıb. Bununla yanaşı, qlobal iqtisadiyyatın




mövcud vəziyyəti qlobal istehsal və istehsal proseslər ilə birgə artıq dözülməz vəziyyət yaradıb və hazırda il ərzində istifadə olunan təbii resursların həcminə cavab vermək üçün artıq bizə indikindən 1,7 dəfə böyük Yer kürəsi lazımdır.

Bundan əlavə, texnogen fəaliyyətin ətraf mühitə təsiri planetimiz üçün ağır təbii fəsadlar törədir və hazırda BMT gələcək illərdə qlobal istiləşmənin 1,5 selsi dərəcəsində saxlanılması üçün beynəlxalq öhdəliklərin olmasına çalışır. Biz, həmçinin texnoloji tərəqqinin daim dəyişən mahiyyətinin yaratdığı çağırışlarla üzləşirik və nəticədə avtomatlaşdırılmanın artması iqtisadi əməkdaşlıq və inkişaf təşkilatına üzv ölkələrində iş yerlərinin ən azı 14 faizini sual altında qoyur. Bu cür dəyişkən zamanda bəşəriyyət yol ayrıcında qalır və əgər biz planetimizin getdiyi istiqaməti dəyişmək istəyiriksə, orada innovasiya, əməkdaşlıq, yaradıcı yanaşma və çoxtərəflilik fundamental əhəmiyyət daşımalıdır. Məhz həmin mürəkkəb çağırışlar səbəbindən mən Azərbaycanın və bu tədbir təşkilatçılarının göstərdiyi səyləri alqışlayıram. Beynəlxalq humanitar forumun müzakirələri yaradıcı yanaşma və insan inkişafına əsaslanan yeni dünyanın formalaşdırılması mövzusuna həsr olunub. Aydındır ki, əgər biz dünyamızın tələb etdiyi təcili dəyişikliklərə nail olmaq istəyiriksə, bu elementlər olduqca dəyərlidir. Hamımızın bildiyi kimi, geniş ilhamverici və olduqca zəruri olan Dayanıqlı İnkişaf Məqsədlərinə və 2030-cu ilədək olan gündəliyə nail olmaq üçün dünyanın cəmi 12 ili qalır. Parlament üzvü və təşkilat sədri kimi, biz milli reallıqlar arasında körpü salmağa çalışırıq və bir çox hallarda bu addım uzaq məsafəli çoxtərəflilik kimi qələmə verilir. Bununla belə qeyd etməliyəm ki, hazırda dünya heç vaxt görünmədiyi qədər güclü, çoxtərəfli əməkdaşlığa və tərəfdaşlığa ehtiyac duyur. Bizim üzləşdiyimiz çağırışlara gəlincə, həll variantlarını tapmaq üçün qarşılıqlı əlaqələri və fəaliyyəti müəyyənləşdirməliyik.

Məmnunluqla qeyd edirəm ki, Forumdakı müzakirələr zamanı çoxtərəfli müttəfiqlik və tərəfdaşlığa zərurət artıq etiraf edilir. Bir çox hallarda qeyd olunur ki, 2030-cu il üçün

gündəliyin ən mürəkkəb məsələlərindən biri 17-ci Dayanıqlı İnkişaf Məqsədinə nail olmaqdır. Çoxtərəfli əməkdaşlığa gəldikdə spektiv yanaşmanı açıq şəkildə sərgiləyən bir sıra ölkələrin proteksionizmə və populist ritorikaya sığındığı zaman bu tərəfdaşlığın qurulması, əslində, çətin proses olar. Bununla belə, beynəlxalq təşəbbüslərə tərəddüd və tənqidlə yanaşıldığı dövrdə biz çoxtərəfliliyi müdafiə etməli və dəstəkləməliyik, çünki birgə fəaliyyət dünyamızın problemlərinin həllinə aparan yeganə yoldur. Olduqca vacibdir ki, tərəfdaşlıq nəinki parlament çərçivəsində, o cümlədən milli hökumətlər arasında olmalıdır və biz bu prosesə özəl sektoru və vətəndaş cəmiyyətini də qoşmalıyıq. Buna nail olmaq üçün üçtərəfli əməkdaşlıq fundamentaldır və bütün təbəqələr arasında etimadın qurulmasında xüsusi əhəmiyyət kəsb edir. Biz hamımız bu məqsədi qarşımıza qoyub bərabərliyə, düzgünlüyə, əməkdaşlığa nail olmalıyıq. Gələcək illərdə bizim qarşımızda duran məqsəd, mən Dayanıqlı İnkişaf Məqsədlərini də nəzərdə tuturam, öz resurslarımızı yerli səviyyədə səfərbər edərək imkanlarımızı genişləndirməkdir. Bunun nəticəsində əldə olunacaq 5-7 trilyon dollar Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına sərf edilməlidir. Bu baxımdan milli parlamentlərin və bizim Parlamentlərarası İttifaqın oynadığı rol çox mühümdür. Bizim bununla bağlı qarşımızda qoyduğumuz məram müvafiq dövlət siyasətinin formalaşdırılmasına yönəldilməli, 2030-cu ilə nəzərdə tutulan gündəlik həyata keçirilməlidir. Biz parlament olaraq bu məsuliyyəti öz üzərimizə götürürük və effektiv olaraq milli resursların cəmlənməsinə çalışmalıyıq.

Təbii ki, dünyada mədəniyyətlərarası dialoqun da inkişaf etdirilməsi çox vacibdir. Çünki Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün trilyonlarla dollar lazım gəlir və bu, maliyyə boşluğunun aradan qaldırılması bütün ölkələrə, cəmiyyətin bütün təbəqələrinə aiddir və bu, hamımızı narahat etməlidir. Buna görə də biz çoxtərəfliliyi qorumalıyıq.

Hörmətli həmkarlar, bu gün bəşəriyyətin çox çətin zamanda üzləşdiyi çağırışlar mürəkkəbdir və bizim dünya həm iqtisadi və sosial baxımından diqqətlə davranmalıdır, əməkdaşlığımız güclü və geniş olmalıdır. Biz bir-birimizlə rəqabət aparmalı deyilik. Hər hansı bir həll variantının olmaması, yaradıcı yanaşmanın tətbiq edilməməsi heç nəyə gətirib çıxara bilməz. Hesab edirəm ki, məhz yaradıcı yanaşma və innovasiya bizə nəinki bu mərhələni keçməyə, həmçinin əlimizdə olan enerjini daha da artırmağa imkan yaradacaq. Çoxtərəflilik bu gün informasiyanın çatışmazlığı səbəbindən əziyyət çəkir. Populizmin və milli maraqların xüsusi olaraq nümayiş etdirildiyi bir vaxtda, ümidvaram ki, bu Forumun bütün iştirakçıları açıq şəkildə yeni imkanları müzakirə edəcəklər, çoxtərəfliliyi yenidən canlandıracaqlar, innovativ həll yollarını irəli sürəcəklər, tərəfdaşlıq quracaqlar. Təbii ki, biz bütün bunları beynəlxalq hüququn prinsiplərinə uyğun etməliyik. Çoxtərəflilik, əslində, dünyamızın dəyişilməsi üçün özündə bir çox davranışı və fəaliyyəti ehtiva edir. Biz yeni yollar araşdırmalıyıq ki, bunun vasitəsilə çoxtərəfliliyin təsirini ölçə bilək, onu anlayaq və bunu milli və yerli səviyyədə həyata keçirək. Əgər biz bu təsirin ölçülməsinə nail olarıqsa, əminəm ki, dünyamızı dəyişə biləcəyik. Dünyamızın dəyişilməsi üçün biz öz icmamızdan başlamalıyıq və bu, yeganə yoldur.

Mən hamınıza müraciət edərək demək istəyirəm ki, Forumun əsas məqsədlərindən biri

məhz çoxtərəfliliyə nail olmaqdır. Biz humanist prinsiplərə əsaslanan icmanı qurmalıyıq, o, insan həyatlarını xilas edə bilər, insanların əzab-əziyyətlərini aradan qaldıra bilər, insan ləyaqətini saxlaya bilər və dəyişən dünyanın insana təsirini azalda bilər. Biz belə bir dəyişkən bir vaxtda bəşəriyyəti daha da təkmilləşdirmək üçün nə etməliyik? İnanıram ki, Forum bu və bir çox digər suallara yeni cavablar tapacaq. Sağ olun.

* * *

**Bununla da VI Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimi başa çatıb.**

Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Qeyd edək ki, 2010-cu ildən təşkil olunan Forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA İMAM HÜSEYN MƏSCİDİNİN BƏRPADAN SONRA AÇILIŞINDA İŞTİRAK EDİB



Oktyabrın 23-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa olunmuş İmam Hüseyn məscidinin açılışında iştirak edib.

Cəmiyyətin, ölkənin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycanda bu münasibətlər yüksək səviyyədə tənzimlənir. Vətəndaşlarının əksəriyyəti müsəlman olan Azərbaycanda məscidlərin, eyni zamanda rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikilməsi və təmiri dövlətin bu istiqamətdə apardığı siyasətin göstəricisidir. Bu sahədə Heydər Əliyev Fondunun da gördüyü işlər böyük əhəmiyyətə malikdir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya İmam Hüseyn məscidi barədə məlumat verib.

Bildirilib ki, məscid 1890-cı ildə xeyriyyəçi Hacı Hacıbala tərəfindən tikilib. 1920-ci ildə bolşevik işğalından sonra məscid bir müddət bağlı qalıb. Lakin sonralar yenidən dindarların istifadəsinə verilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid təmir olunub.

Azərbaycanın qədim məscidlərindən biri olan İmam Hüseyn məscidində 2017-ci ildə



Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və bərpa işlərinə başlanılıb. Yüksək keyfiyyətlə aparılan təmir zamanı binanın memarlıq üslubu qorunub saxlanılıb, ərazisi abadlaşdırılıb. Məscidin sahəsi 300 kvadratmetrdir. Burada eyni vaxtda 400 nəfər ibadət edə bilər. İmam Hüseyn məscidinin ərazisində 130 nəfərlik mərasim zalı da inşa olunub.

Azərbaycanda dini-mənəvi dəyərlərin qorunmasına hər zaman yüksək diqqət göstərilib. Son bir neçə ildə ölkədə onlarla məscid, ibadətgah və dini ziyarətgah təmir olunaraq xalqın istifadəsinə verilib. Təbii ki, bu prosesdə Heydər Əliyev Fondu da xüsusi fəaliyyəti ilə seçilib. Fondun dəstəyi ilə bərpa olunan İmam Hüseyn məscidinin istifadəyə verilməsi də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

Məscidin axundu Hacı Əbdül Birinci vitse-prezident Mehriban Əliyevaya Müqəddəs Qurani-Kərim hədiyyə edib.

Dövlət-din münasibətlərinin Azərbaycan modeli bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Azərbaycanın bu istiqamətdəki siyasəti artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq edib. Azərbaycan öz milli-mənəvi, dini dəyərlərinə sadiq, onları qoruyan, eyni zamanda müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyən bir ölkə kimi tanınır.

# İSLAMOFOBİYAYA QARŞI MÜBARİZƏ "DİN VƏ TERROR" MÜSTƏVİSİNDƏ

***Elçin CABBAROV,***
*filologiya elmləri namizədi*

***AÇAR SÖZLƏR:*** *Quran, din, terror, şəhid.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Коран, религия, террор, шахид (мученик).*
***KEY WORDS:*** *the Quran, religion, terror, martyr.*

Məqalədə "din və terror" kontekstində müasir terrorun genişlənmə tendensiyası araşdırılır, onun islamofobiya istiqamətinin sosial-siyasi amilləri xarakterizə edilir. Elmi-nəzəri mövqe, ümumiyyətlə, terrora qarşı mübarizə məsələləri müstəvisində əsaslandırılır, bu bazada islamofobiya ilə mübarizənin əsas xüsusiyyətləri nəzərdən keçirilir.

Müasir dünyanın geosiyasi maraqları qətiyyətlə göstərir ki, onun ünvanlı siyasi ambisiyalara və tendensiyalı strateji tərəfdaşlığa bağlantısı təhlükəsizlik haqqındakı hər cür vədlərdən daha vacibdir. Bu motiv üzərində köklənmiş ictimai-siyasi həyat terrorun forma və niyyət cəhətdən inkişafına, hətta müharibə mahiyyəti almasına nail olmuşdur. Uyuşdurucu və psixotrop maddələrin, hərbi silahların, enerji daşıyıcılarının, hətta nüvə və bakterioloji silah elementlərinin qeyri-qanuni dövriyyəsi, kosmosa və Arktikaya tuşlanmış arzu və niyyətlər terrorçuluq sisteminin maliyyələşdirilməsi məsələlərinə xüsusi təsir göstərdiyindən, terror qitələrarası xarakter almışdır. Buna görə də onunla mübarizə ümumdünya xarakteri qazanmış, eyni zamanda xeyli də çətinləşmişdir.

Müasir terrorun kompleks özəl xüsusiyyətlərindən biri onun həm Xeyir, həm də Şər tərəfində yer almasıdır. Çünki hazırda hər iki tərəf məhz qorxu hissi ilə manipulyasiya edərək, cəmiyyətin idarəçiliyi işinə müdaxilə etməkdə israrlıdır. Terrora qarşı mübarizənin bir çətinliyi də bundan irəli gəlir. Digər çətinlik isə terrorun mahiyyətindəki siyasi amilin tədricən iqtisadi amillə yerdəyişməsidir. Məsələnin kədəri ondadır ki, hər iki tərəf öz ideyası, məqsədi və maraqlarından çıxış edərək terror törətməkdən çəkinmir, hətta terrorçunun müsbət qəhrəman imicini yaratmaqda xüsusi fəallıq və səxavətli "sahib" xarakteri göstərir. Terror və terrorçuluğa münasibətdə ikili standartların mənşəyində məhz bu tipli ziddiyyətlər durur. Başqa bir xüsusiyyət də diqqət çəkmədədir: bəzi dövlətlər terrorla daha amansız mübarizə aparmaq fikrindədir (ABŞ, Rusiya, Türkiyə və s.), Avropanın bir çox ölkələri isə insan hüququ və humanizm ideyalarına əsaslanaraq terrora qarşı mücadilədə yumşaqlıq nümayiş etdirirlər, hərbi potensialdan tam istifadəyə imkan verməməyə çalışırlar və belə bir "yumşaq davranışı" dünya birliyinə də tövsiyə edirlər. Bu da müasir antiterrorun ictimai-siyasi reallıqlarındandır və terrorla mübarizəyə öz mənfi təsirini göstərir. Bəzi dairələr terrorla mübarizə forması kimi "terror" termininin ictimai-siyasi leksikondan çıxarılması fikrini irəli sürülər, yəni söz işlədilmədikcə yaddan çıxacaq, onun ifadə etdiyi əmələ də maraq tədricən azalacaq, beləliklə, problemə son qoyulacaqdır. Bu yanaşmanın da faydasına güman azdır.

Müasir dövrün bazar iqtisadiyyatının formalaşdırdığı maraqlar dairəsi daha sevilən, cazibədar, eyni zamanda daha qəddardır, ona görə də **dünya bu gün ticarətin iqtisadiyyatı ilə məşğuldur,**

**istehsalın iqtisadiyyatı arxa plana keçmişdir.** Ona görə də dövlətlərarası münasibətlər bu tezis üzərində biçimlənir. Beləliklə də, yaranmış vəziyyət xammal bazarı uğrunda mübarizə üzərində köklənmişdir. Müasir istehlak sivilizasiyasının maddi-mənəvi dəyərlər sistemində xammal maraqları / təbii sərvətlər düşkünlüyü tez-tez qarşı-qarşıya gəldiyi üçün ***demokratiya və ədalətin prinsipləri deyil, hərbi-iqtisadi güc, siyasi təkəbbür, yeni formatda xərac yığmaq*** formaları önə keçmişdir. Terror bu formalarla ittifaqdadır.

Beləliklə, ***dünyəvi elm*** terrorun kökündə sözün ən geniş mənasında mədəni-psixoloji tənəzzül faktının durduğunu qətiyyətlə təsdiqləyərək, ona qarşı mübarizəni dünyada mənfi sosial reallıqların genişlənməsi və dərinləşməsinə qarşı mübarizədən başlamağı tövsiyə edir.

Problemə münasibətdə ekstremist ***dini dünyagörüşün*** məntiqi isə belədir:

***a)*** Cəmiyyətin formalaşmasında dinin rolu böyükdür, buna görə də ekstremist ideya sahibləri insanın xarakterindəki *ifratçılığa meyillənmək* hissindən istifadə edərək bəşəriyyət üçün terror kabusu bəlası yaratmışlar;

***b)*** Ekstremist düşüncəlilərə görə, din öz mənsubu olmayanlar arasında ziddiyyət salmaqda maraqlıdır;

***c)*** Dindəki, ümumiyyətlə, himayə etmək hissi ən radikal addımları həm dünyəvilik, həm də dinilik baxımından müdafiə etməyi dəstəkləyir.

Bir hədisdə nəql olunur: "Əgər bir zaman Dəccal zühur edərsə və mən də sizin aranızda olaramsa, sizin köməyiniz olmadan mən özüm hər birinizi ondan qoruyacağam. Ancaq Dəccal zühur edərkən, sizin aranızda olmaramsa, hər kəs özünü qorumalıdır..." [1].

Terror bu günün dəccalıdır!

Beynəlxalq münasibətlər sistemində iqtisadi-siyasi maraq dairələrinin genişlənməsi müasir terrorun mahiyyətinə prinsipial əlavələr etmişdir. Bu əlavələrdən biri "İslam terroru" anlayışı ilə bağlıdır. "İslam terroru" termini ilə xüsusi fərqləndirilən və təbliğ olunan bu ifadə, ümumiyyətlə, dünya ictimaiyyəti tərəfindən birmənalı qəbul olunmur. Onu təkzib edənlər arasında etnik-dini mənsubiyyətindən asılı olmayaraq bütün təbəqədən və cəmiyyətdən insanlar var. Elm də bu mövzuya münasibətdə tendensiyalı yanaşmanı rədd edir. Əvvəla, ona görə ki, İslam dini dünyagörüşü və mədəniyyət ifadəçisi və daşıyıcısı kimi özü hər cür terror üsuluna qarşıdır. *İkincisi,* dini mənsubiyyətindən asılı olmayaraq, dünyanın mötəbər teoloqları və dini liderləri heç bir dini, o cümlədən İslam dinini terrorla əlaqədə təqdim etmir. Üçüncüsü, belə mövqe başqa dinlərə "xüsusilik" təyini yapışdırır ki, o halda tolerantlıqdan, çoxmədəniyyətlikdən söhbət gedə bilməz. Bu, səmavi dinlərin mahiyyətinə zidd fikirdir.

Terror probleminin qədimliyini və dərinliyini bəzi ilahiyyatçılar İblislə əlaqələndirirlər [**2**]. Adəm oğulları Qabil və Habil arasındakı həsədçilikdən yaranan qardaş qatilliyi əsasında belə mühakimə yürüdülür ki, ekstremist duyğular fani dünyanın mahiyyətindədir və o, həm də terrorun törədicisidir. Bidət əhli xaricilər, qədərilərin iradə azadlığı və tale qarşısında mütilik məsələləri ilə əlaqəli fərqli mövqeləri, həmçinin dini elitanı təmsil edən şəxslər arasında hakimiyyət uğrunda qarşıdurmalar terrorun oxşarlarını xatırladan amillərdir. "Əl-Maidə" surəsindən bu fikrin əsaslarını duymaq mümkündür [3].[1]

---

1 **27.** (Ya Rəsulum!) Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Bu tipli fikirlərə və hadisələrə digər səmavi dinlərdə də rast gəlinir. Hətta bəzi radikal düşüncəli din adamlarına elə gəlir ki, terrorçular İsa məsihin öz dini uğrunda mücadilə aparmaq işini davam etdirənlərdir. Göründüyü kimi, cəmiyyətin düşkünlüyü barədə həyəcan təbili çalanlar arasında dünyəvi elm adamları ilə yanaşı, teoloqlar da var. Bu məsələdə hər iki səmavi dinin mənəvi cəhətdən, demək olar ki, eyni məxrəcə gəlməsi terrorla mübarizənin gələcəyi üçün nikbin və səmərəli perspektiv vəd edir. Lakin hazırda İslam dinini terrorla ittifaqda ittiham edərək islamofobiyanı yayan ictimai-siyasi fikir sahibləri də var. Onlar örnək kimi Qərb dünyasında «assasinlər»[2], Şərq aləmində isə «həşişçilər», «xaşxaşilər» kimi tanınan şiə İsmaililər məzhəbinin Nizarilər qoluna mənsub hərbi qruplaşmanı görk edirlər [4]. Bu barədə geniş yayılmış fikir, əsasən, alman şərqşünası Avqust Müllerin qənaətləri ətrafında dolaşır və müvafiq müddəalar bu və ya digər formada hələ də təkrarlanmaqdadır [5].

Vaxtilə xristian Avropasında şüurlu surətdə formalaşdırılaraq yaşadılan bu yanaşmaya Azərbaycan ictimai-fəlsəfi fikrində də rast gəlinir və Həsən əs-Sabbah həmin "terrorçu birləşmənin başçısı", Nizarilərə isə terrorçu kimi baxılır; bu gün təbliğ olunan "İslam terroru" anlayışına xaşxaşilərin tarixi ilə qədimlik ruhu verməyə ciddi-cəhd göstərilir. Lakin bu məsələ ilə bağlı yeni tədqiqatlar həmin fikirləri təkzib edir.[3]

---

edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm!" (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən (qurban) qəbul edər!

**28.** Sən məni öldürməkdən ötrü mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram.

**29.** Mən istəyirəm ki, sən (məni öldürməklə) mənim də günahımı öz günahınla birlikdə üstünə götürəsən və beləliklə də, Cəhənnəm sakinlərindən olasan. Zalımların cəzası budur!

**30.** Nəfsi onu (Qabili) qardaşını öldürməyə sövq etdi, onu (Habili) öldürdü və bununla da zərərçəkənlərdən oldu.

**32.** Buna görə də İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara (İsrail oğullarına) açıq möcüzələr gətirmişdilər. Bundan (bu möcüzələrdən) sonra da onların bir çoxu yer üzündə (küfr, qətl və cinayət etməklə) həddi aşdılar.

**33**. Allaha və Peyğəmbərinə qarşı vuruşanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası ancaq öldürülmək.., yaxud da yaşadıqları yerdən sürgün olunmalıdırlar. Bu (cəza) onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir.

2 İngilis dilindən tərcümədə *qatil* mənasını ifadə edir.

3 İsmaililiklə dərindən məşğul olan tədqiqatçı-alimlər xaşxaşiləri terrorçu qiyafəsində təqdim edən elementlərin uydurma olduğunu bildirirlər. Buna əsaslanırlar ki, I Səlib yürüşündə müsəlman dünyası məğlub olsa da, xaçlılarla hərbi-diplomatik mübarizə davam edirdi. Belə bir çətin zamanda sünni-şiə qarşıdurması da ismaililərin əleyhinə işləyirdi. Səlcuqların və sünni teoloqların öz opponentlərini xalqın gözündən salmaq üçün «xaşxaşilər» epitetini ortaya atmaları Nizarilərlə düşmənçilik edən xaçlılar üçün də əlverişli təbliğat faktı idi. Beləliklə, XII əsrdən başlayaraq Avropa salnaməçilərinin və səyyahlarının dilində ərəbdilli "həşişi" leksik vahidindən törəmə söz kimi «həşişçilər» termini geniş yayılmmışdı. Az itki vermək hərbi taktikasına əsaslanmaq, günahsız qan tökməmək, rəqibi hamının gözü qarşısında qətlə yetirib qaçmamaq anlayışı ilə ədalətin təntənəsini nümayişkaranə sübuta yetirmək, ələ keçdikdə öz ölümünü mərdliklə qarşılamaq ruhunda hərtərəfli hərbi-mənəvi təlim keçən, gizli və qəfil hücumları döyüş taktikasına çevirən həşişçilərin həyat və fəaliyyətləri barədə xeyli uydurmaların yaradılıb yayılması, o dövrün informasiya müharibəsinə xidmət edirdi. Səyyah adı ilə Vatikana casusluq xidməti göstərən Marko Polonun məxsusi qara

İslamofobiya ətrafında aparılan müzakirələrdə «İslam terroru» termininin tez-tez xatırladılması, «Allahu-əkbər» alqışının kontekstdən çıxarılaraq antifenomen enerji ilə yayımlanması üsulundan və intihar formatında terror törədənlərin ictimaiyyətə müsəlman üçün müqəddəs olan obrazda – şəhid (bəzən *kamikadze*)[4] ifadəsi ilə təqdiminə geniş yer verilir. Lakin intihar edərək terror aktı törədənlərin uca şəhid adı, müqəddəs yapon əsgəri kimi portretləşdirilməsi, dolayısı ilə terrorçunu mədh etməkdir, problemə bu tip yanaşma tərzi həm elmi-dini, həm də ictimai-siyasi baxımdan qəbul oluna bilməz. Dini əzabkeşlik müstəvisində islamofobiyanın qabardılması dünyanın bəzi regionlarında gedən qarşıdurmalara İslam dini rəngini qatmaqla onun coğrafiyasını genişləndirmək, bu dinin gələcəkdə ictimai-siyasi sistem quran amil olması barədə qorxulu fantaziyaları yayıb, ona qarşı beynəlxalq əks-təbliğatı gücləndirmək niyyətindən, siyasi ambisiyaları həyata keçirmək intriqasından başqa heç nə deyildir.[5]

---

fantaziyalarından sonra isə həşişçilərin adı daha qorxunc aktlarla hallanmağa başlanmış və günümüzədək gəlib çataraq, bir növ, legitimləşmişdir. Nizarilərin belə imici həm antiismaililərə, həm də xaçlılara, ümumiyyətlə, o dövrün latın Şərqində strateji maraqları olan Avropa üçün faydalı idi. Bəzi tədqiqatçılar Avropa subyektivizminə əsir olaraq Həsən əs-Sabbahın "*Biz sadəcə bir insanı öldürməklə kifayətlənməyib, min nəfərin də qəlbinə qorxu toxumları əkəcəyik*", – fikrinə şərh verib, onun terror vasitəsilə ictimaiyyət arasında qorxu hissi yaymasını sübut etməyə cəhd göstərirlər. Halbuki onun hədəfi ideya düşmənləri və günahı olan insanlar idi və "qorxu toxumu" fikri onlara münasibətdə işlədilmişdi. O, sıravi xalqı qorxu içində saxlamaq üçün cinayət törətmirdi. Onların Avropadakı muzdlu qatillik fəaliyyətlərində də hədəf xalq kütləsi deyildi. İslam dininin həyatın qanunu olduğu bir dövrdə nahaq qan tökərək "günaha batmq" əqidəsi ilə yaşamaq, müsəlmanın rəğbətini qazanmaq baş tutacaq iş deyildi və İslam ictimaiyyəti tərəfindən məqbul qarşılanmazdı [6].

4 Şəhid terrorçu termini siyasiləşdirilmiş din mövzusundan qaynaqlanır. Bəzən *terrorçu-kamikadze* və s. ifadə də işlədilir; Azərbaycan dilində "intihar terroru" termini uyğun ola bilər.

5 "İslam terrorçuları" adı ilə təşkil olunan qanundan kənar silahlı birləşmələrin fəaliyyət zonası tədricən müsəlman dünyasının içərilərinə doğru genişlənməkdədir. *Terrora qarşı mübarizə pərdəsi altında İslam dinini İslam aləmi ilə qarşı-qarşıya qoymaq, beynəlxalq terror təhlükəsini dünyanın başqa regionlarından sıxışdırıb, müsəlman Şərqinə istiqamətləndirmək terrorla mübarizə kimi qəbul edilə bilməz.* Həmçinin "İslam dini və terror" mövzusu ətrafında ictimai-siyasi sözbazlıq da genişlənməkdədir. Mövzu ilə əlaqədar işlədilən eyni mənşəli əlavə terminlər də var ki, onlar da həm teoloji, həm də politoloji baxımdan ciddi etirazlarla qarşılanır. Müxtəlif dillərdə «İslam terroru» anlamında tirajlanan ifadənin, yaxud bu leksik vahiddən qaynaqlanan "qohum" ifadələrin işlədilməsi qeyri-elmidir. İslam dini pərdəsi altında terrorçuluq edənləri, məsələn, "terrorçu - münafiqlər", "münafiq terroru" terminləri, yaxud da bu leksik vahiddən, onun məna tutumundan qaynaqlanan digər söz və ya söz birləşməsindən qaynaqlanan yaxınmənalı sözlərlə ifadə etmək mövzunun təbiətinə uyğun gələ bilər. Qurani-Kərimdən [3] bəzi seçmə surə-sitatlara heç bir şərh vermədən fikrin məntiqinə, potensialına və perspektivinə diqqət edək:

**Tovbə surəsi: 56** (Münafiqlər) sizdən olmaya-olmaya mütləq sizdən olduqları barədə Allaha and içərlər. Lakin onlar (əslində sizin onları öldürmənizdən ehtiyat edən, buna görə də zahirən özlərini müsəlman kimi göstərən) qorxaq bir zümrədir.

**Tovbə surəsi: 57** Əgər onlar bir sığınacaq və ya (gizlənmək üçün) mağara, yaxud girməyə bir deşik (yer) tapsaydılar, tələsik ora üz tutardılar.

**Həşr surəsi: 13** (Ey möminlər!) Onların (münafiqlərlə yəhudilərin) ürəklərinə qorxu salan Allahdan çox sizsiniz. Bu isə onların (Allahın əzəmət və heybətini) anlamaz bir qövm olduqlarına görədir.

**Həşr surəsi: 14** Onlar (münafiqlərlə yəhudilər) hamılıqla sizə qarşı ancaq möhkəm şəhərlərdə (kəndlərdə), yaxud divar arxasında (qala içərisində) olarkən döyüşərlər (başqa şəraitdə sizinlə vuruşmağa cürət etməzlər). Onların öz aralarındakı vuruşmaları (və düşmənçilikləri) isə çox güclüdür. (Ya Peyğəmbər!) Sən onların əlbir olduqlarını güman edirsən, lakin onların qəlbləri dağınıqdır. Bunun səbəbi onların ağılsız bir qövm olmalarıdır.

Beləliklə, islamofobiya istiqaməti müasir terrorun yeni bir əlaməti kimi nəzərə çarpır.

Hazırda islamofobiya müstəvisində «davakar İslam» anlayışı çox geniş işlədilir və bununla da "İslam terrorçuluğu" beyinlərə yeridilərək, insanlara İslam dinindən qorxmaq kompleksi aşılanır. Bunun bariz nümunəsini bir çağırış-informasiyanın nümunəsində dərk etmək mümkündür. KİV-in məlumatına görə, 2018-ci ilin 10-11 mart günlərində Böyük Britaniyada yayılmış anonim bir broşürdə aprel ayının 3-ü "Müsəlmanların cəzalandırılması" günü elan edilmişdir. İslamofobiyanın əsiri olan müəlliflər "bal" sistemi ilə xristian vətəndaşları antimüsəlman fəaliyyətə təhrik etmişlər: müsəlman qadının başından çarşabını dartıb yerə atmaq – 25 bal; müsəlmanı öldürmək – 500 bal və s. formatlar tövsiyə olunmuşdur. Çağırışda təqdim olunan cəza tədbirləri siyahısında (müsəlmanın üzünə kimyəvi turşu atmaq; müsəlmanı döymək; elektrik cərəyanı ilə müsəlmana cəza vermək; tapança, bıçaq vasitəsilə müsəlmanı öldürmək, yaxud da avtomobili müsəlmanının üzərinə sürmək; məscidə bomba atmaq; Məkkəni partlatmaq) terrora təşviq qabarıq nəzərə çarpır [7].

Uzun illər davam edən ciddi-cəhd nəticəsində hazırda dünyada üç İslam dini anlayışı dartışılır: **SÜNNİ – ŞİƏ – DAVAKAR İSLAM.** Və bu kontekstdə islamofobiya dini-siyasi düşüncə səviyyəsinə yüksəldilmişdir. Onun qarşısını almaq üçün "sülh quşları" sadəcə "tədbir keçirib sözdə orta məxrəcə gəlmək" üsulundan, hərb canavarları isə "qana-qan" çağırışından istifadə edirlər. Almaniyada, İspaniyada və bəzi digər ölkələrdə məscidlərdə axtarışlar aparmaq, cümə xütbələrinin mətnlərini nəzarətə götürmək, hətta çimərlikdə günəşlənən hicablı qadınları geyimlərini zorla dəyişməyə vadar etmək, müsəlman təşkilatlarını qapatmaq və s. buna bənzər primitiv mübarizə üsulları ilə fəaliyyət güclənməkdədir. İslamofobiya ilə bu, yaxud buna bənzər formalarla mübarizə aparmaq dünyada ənənəvi şovinizmin, xüsusilə də total nasional şovinizmin baş qaldırmasına gətirib çıxara bilər. Bu halda terror daha da amansızlaşar, qlobal etnik-dini qarşıdurmaya səbəb olar. Bütün bunlar göstərir ki, islamofobiyanın əsaslandığı, həm də törətdiyi şizofrenik qorxu cəmiyyətdə ancaq amansız qisasçılıq ehtirasını alovlandırmağı bacarmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ilin aprel ayının 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin birinci sessiyasındakı çıxışında Azərbaycan dövlətinin bu problemlə əlaqədar mövqeyini belə ifadə etmişdir: "...Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir".

Qeyd olunduğu kimi, problemin çox təhlükəli perspektivi odur ki, hazırda islamofobiya

---

**Nisa surəsi, 145:** (Ya Rəsulum!) Əlbəttə, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan!

**Bəqərə surəsi, 9:** Onlar elə güman edirlər ki, (qəlblərində olan küfrü gizlətməklə) Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar.

**Bəqərə surəsi, 14:** Onlar möminlərlə qarşılaşdıqları zaman: 'Biz də (sizin kimi) iman gətirdik', -deyirlər. Halbuki öz şeytanları ilə (onları aldadan dostları ilə) təkbətək qalanda: 'Biz də sizinləyik, biz ancaq (möminlərə) istehza edirik', -deyirlər.

**Furqan surəsi, 63-68:** Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzün¬də təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər. Onlar ... Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz).

psixologiyası çox məharətlə İslam coğrafiyasına tərəf yönləndirilir. Başqa sözlə, **müasir terror hətta antiterror bayrağı altında da Şərə xidmət etməyi bacarır.**

Ümumiyyətlə, ekstremist təfsir yolu ilə istənilən dindən terror üçün ideya qondarmaq mümkündür. Buna qarşı, ilk növbədə, hər din dünyası öz daxilində əks-təsir cəbhəsi formalaşdırmalı və savadlı, mədəni, müdrik müqavimət göstərməlidir. Öncəliklə islamofobiyanın dini deyil, siyasi anlayış olması barədə təbliğat daha da gücləndirilməlidir. Məhz bu meyarla «İslam terroru» deyilən problemlə mübarizəyə diqqət yetirərkən müasir antiterror formatının səmərəsizliyi aydın olur. Çünki islamofobiyanın ancaq İslam dininə bağlılığı subyektiv mülahizələrlə əsaslandırılır, İslam dininə yanaşmada siyasi-iqtisadi maraqlar qabardılır, beləliklə də, İslam dini mənsublarına qarşı sosial-siyasi sərtlik göstərmək həyatın mənasına çevrildilir. Demokratik dəyərlərin qorunması və insan haqlarına hörmət demaqogiyası bu fazada dolayısı ilə qarşıdurma ehtirasının güclənməsinə təkan verir.

Beləliklə, müasir informasiya bolluğu göstərir ki, «İslam terroru» ilə mübarizə adı altında aparılan müasir ictimai-siyasi-hərbi işlər iqtisadi maraqlara xidmət etdiyindən, bu mübarizə situasiyanı sakitləşdirə bilmir, çünki:

***1***. Mübarizə tərəfkeşlik mövqeyindən aparıldığından, özünümüdafiə sindromu önə keçir və mübarizənin tərəfləri zərbə altına düşür;

***2.*** Dini ad verilən terror – antiterror qarşıdurmasında paralel olaraq bumeranq effekti də fəaliyyətə başlayır və radikal düşüncənin, dini təməlçiliyin, təriqətçiliyin oyanmasına və coşmasına münasib şərait yaradılır;

***3.*** Mübarizəni uzadaraq problemi sosial-siyasi mədəniyyətlərin qarşıdurmasına çevirməklə, problemə yeni nəfəs verilir.

Beləliklə, dini mənsubiyyət və etnik mənşə məsələləri islamofobiya fikrinin sosial-siyasi bazasının formalaşdırılmasında, separatçılıq isə onun icra üsullarında möhkəmlənir.[6]

Müasir terrora, o cümlədən islamofobiyaya qarşı mübarizə formalarına yanaşma barədə fikirlər müxtəlifdir. *Xüsusi xidmət orqanları* bu işin qabaqlayıcı tədbirlər üzərindən aparılmasını dəstəkləyir və agent cəlb etmə, informasiya-xəbərçilik şəbəkəsini genişləndirmək, müvafiq informasiya bankı yaratmaq işinə, kibertəhlükəsizlik işinin sistem olaraq düzgün təşkil olunmasına üstünlük verirlər. Beləliklə, *ictimai qurumlar* bu mübarizəni insan hüquqlarının qorunması ilə aparılmasını tələb edirlər, hətta ölkənin müvafiq qanunvericilik bazasında bu barədə islahatlar aparılmasını müntəzəm qabardırlar. *Teologiya* isə terrorun dini olmadığı fikrini israr edərək, dini savadın dərinləşdirilməsi

6 İctimai-siyasi gündəmdə ayırımçı fikir təbliğ edərək, onu siyasi kamerton kimi ümumdünya düzəninə qəbul etdirmək tendensiyası da nəzərə çarpır. Yəni:

***a.*** Xristian dini cəmiyyətin ancaq mənəvi məsələlərinə müdaxilə etməyə üstünlük verir, siyasətə, əsasən,"vasitəçi" kimi təsir göstərir;

***b.*** İslam dini siyasətdə birbaşa və fəal iştirak edir, daxili və xarici siyasətin formalaşmasında mühüm rol oynayır.

2016-cı ilin fevral ayının 12-də Vatikan və Rusiya kilsə liderlərinin Havanada tarixi görüşündə qlobal siyasi problemlərin müzakirəsi kontekstində hər iki kilsə arasında "həmrəylik" və "birliyin" zəruriliyi ifadə edilmiş, həmçinin kilsələrin birliyi ilə yanaşı, siyasi birlik fikri də vurğulanmışdı. Xristian və İslam dininin, ümumiyyətlə, bütün dinlərin politoloji formatda müqayisəli analizi müxalif fikirlər üçün ilham mənbəyidir. Bu fikir həmin ayırımçılığı qabardanlara qarşı ünvanlanmaqla yanaşı, Kubadakı görüşün diqqətlə öyrənilməsinin strateji əhəmiyyətə malik olduğunu da tövsiyə edir.

və yayılması üsulunu antiterror formatının səmərəli metodu kimi dəstəkləməkdədir.

Hazırda İslam coğrafiyası növbəti dəfə özünün ağır dövrünü yaşamaqdadır. Allah, İslam Peyğəmbəri adından ağır cinayətlər törədilir, xoşagəlməz təbliğat aparılır. Öz məqsədlərini "İslamiləşdirən", mənşəyi, məzhəbi məlum olmayan qurumlar, silahlı dəstələr yaradılır, onların əli ilə ağır cinayətlərə yol verilir. Təəssüf ki, ən məşhur elmi-kütləvi TV proqramlarında (BBC, CNN, Euronews və s.), filmlərdə bütün bunlar bəhanə edilərək «davakar İslam» termini sıx-sıx işlədilir və bəşəriyyətə islamofobiya kompleksi aşılanır, İslam dininin müqəddəsləri, rəmzləri təhqir edilir. Xilafətin yenidən bərpası ətrafında tirajlanan uydurmalarla dünya müsəlmanlarına qarşı savaş açmaq bəhanələri ictimailəşdirilir. Dünyanın ayrı-ayrı bölgələrində müsəlman adət-ənənələri, ibadət yerləri aşağılanır, vətəndaş qarşıdurmaları üçün subyektiv səbəblər yaradılır. Paradoks ondadır ki, bugünkü teoloji panoramda Xristianlıq və İslam dini arasında ümumi müddəaların daha çox olduğu vurğulansa da, onlar arasındakı ümumi dəyərlər barədə müsbət elmi fikir mübadilələri aparılsa da, terror məsələlərinə gəldikdə məhz İslam terrorçu din kimi təbliğ olunur, "səbəbkar davakar İslamdır" - deyib, toplum arasında "ilk informasiya" effekti gücləndirilir, "Allahu-Əkbər" alqışı isə terminator səviyyəsinə çatdırılır. Terror aktları İslam dininin adına yazılmamalıdır, xristianların Balkanlarda, Azərbaycanda və s. coğrafiyalarda törətdikləri terror cinayətlərini də Xristian dininin adından təbliğ etmək səhvdir. Bu günahlar, əsasən, beynəlxalq miqyasda mənəviyyatın tənəzzülə uğramağa başlaması səbəbindən irəli gəlir. Teoloq Məhəmməd əl-Qəzali (1917-1996) problemə belə şərh vermişdir: "... Həqiqət bundan ibarətdir ki, dini və ümməti üçün Allahdan qorxmayan insanlar şayiə və zənnin qara buludlarını ətrafa yaymışlar. Söhbət elə şayiə və zəndən gedir ki, onlar müsəlmanları pərən-pərən salan, beyinləri boş təsəvvürlərlə, ardınca da qəlbləri sapqın hisslərlə dolduran gizli səbəb rolunu oynamışdır. Xalq kütlələri, çox təəssüf ki, əsası olmayan müştərək yalanların qurbanıdır"[8].

Beləliklə, cəmiyyətin islamofobiya və "davakar İslam" yanaşmaları, onu beynəlxalq terrorçuluq səviyyəsinə qaldırmaq həvəsi mövcud beynəlxalq hüquq qanunlarına ziddir və müstəqillik illərində Azərbaycan Respublikasının antiterror fəaliyyətində bu istiqamət xüsusi yer tutur. 2016-cı ilin aprel ayının 1-5-i tarixlərində qoşunların təmas nöqtəsində erməni dövlət terrorunun qarşısı Azərbaycan ordusu tərəfindən alındıqdan sonra erməni KİV-inin Azərbaycan tərəfdən İŞİD terrorçularının döyüşdüyünü iddia etməsinə yuxarıda qeyd olunanlar kontekstində ancaq subyektivlik xarakteri kimi yanaşılmamalıdır. Dolayısı ilə Azərbaycan islamofobiya ilə şərlənməkdədir.

Bəzi dairələr İslam dinindəki məzhəblərarası münasibətlərdən istifadə edərək yumşaq və sərt güc terroru ilə qarşıdurma yaratmaqda bu gün də maraqlıdır. «Reallıq bundan ibarətdir ki, müsəlmanları bir-biri ilə çəkişən qruplara bölmək istəyənlər bölünmə üçün ağlabatan bəhanə tapmadıqları zaman təfriqə "səbəblər"i uydururlar. Düzgünlük meydanı daraldığından yalan meydanı onlar üçün gen olub!» [8, s. 39.] Həmin dairələrin **dünyəvi dövlətlərdə dindarların hüquqlarının, teokratik dövlətlərdə isə demokratik baxışların qorunması bəhanəsilə dövlətlərin daxili işinə qarışmaq, hərbi güc tətbiq etmək üçün islamofobiya aurası yaratmaq istəyi beynəlxalq şərin sevimli taktikasına çevrilmişdir**.

Problemlə bağlı amillərdən biri də budur ki, İslam dünyası islamofobiyanın yaranmasına və yayılmasına səbəb olan müasir ümumdünya mənəvi tənəzzülünü dərk etsə də, bunun qarşısının alınmasının vacibliyini vurğulasa da, vahid mübarizə strategiyası, xüsusilə də kollektiv surətdə

dini ekstremizm və terrora qarşı mübarizənin istiqamətlərini və formalarını işləyib hazırlamaqda çətinliklərlə üzləşir. Hazırda "İslam terroru" deyilən fikrə qarşı ən səmərəli addım müsəlman dövlətlərinin birləşərək beynəlxalq terrora, o cümlədən islamofobiya anlayışını təbliğ edənlərə qarşı "yumşaq qüvvə" ilə mütəşəkkil mübarizə aparması optimal variant hesab olunur. Yeri gəlmişkən, 2015-ci ilin dekabr ayının 15-də terrora qarşı İslam koalisiyasının yaradılması təşəbbüsü irəli sürülmüşdü [9].

Məhəmməd əl-Qəzali vaxtilə belə bir təklif irəli sürmüşdü: «İxtilafların at oynatdığı bir vaxtda sünniləri, şiə və xariciləri özündə birləşdirən parlament yaradılarsa – bunu edənləri bəzən axmaq yerinə qoyurlar – düşünürəm ki, onlar döyüş meydanlarında qılıncla üz-üzə gəlmələrindən, sonrakı nəsillərə heç bir ağla və imana əsaslanmayan ədavət və intiqam hissi miras buraxmaqdan daha çox İslama yaxın olarlar...» [8, s. 18]. Bu kontekstdə qeyd edək ki, din aliminin birləşmək və parlament üsulu ilə mübarizə aparmaq təklifi İslam dininin məhz demokratik dəyərini bir daha önə çəkir. Belə mövqeyə dəstək qarşı tərəflərdən də gəlməlidir.[7]

Azərbaycan Respublikası terrorla mübarizədə qətiyyətli mövqeyini ABŞ-da törədilmiş 11 sentyabr terror aktlarından sonra bir daha bildirmişdir. Azərbaycan malik olduğu bütün imkanlar daxilində beynəlxalq antiterror koalisiyasının tərkibində fəaliyyət göstərməkdədir. Dünya

---

7 Qeyd etdiyimiz kimi, 2016-cı ildə Kubanın paytaxtı Havananın Xose Marti hava limanında, nəhayət ki, yəni son 1230 il ərzində ilk dəfə və 55 il hazırlaşdıqdan sonra xristian dünyasının iki kilsəsinin – Vatikan və Rusiya kilsə liderinin tarixi görüşü olmuşdur. «Biz rəqib deyil, qardaşıq: bir-birimizə və xarici aləmə münasibətdə bütün fəaliyyətimizdə bu anlayışdan çıxış etməliyik...» – qənaətinə sədaqət ruhunda keçən görüşdə Suriya, İraq və s. ölkələrdə vətəndaşlar arasında vəziyyətin mürəkkəbləşdiyi, terrorun yayıldığı vurğulanaraq, bütün bunlara qarşı səylərin artırılması ifadə edilmişdir ("Radio Vatikan"). Tarixi görüşdə məqsəd xristianlıq əleyhinə çıxışların qarşısını almaq üçün, həmçinin terrorla mübarizədə vahid koalisiyanın yaradılmasında dini liderlərin də iştirakı məsələsi olmuşdur [10]. Yeri gəlmişkən, hüquq müdafiəçiləri belə bir statistika da dərc etmişlər: hazırda 139 ölkədə xristianofobiya, 121 ölkədə isə islamofobiya mövcuddur [11]. Yəni əslində xristianofobiya daha geniş yayılıb, ancaq mübarizə islamofobiyaya qarşı aparılır. Havanadakı dini "sammitdə ümumdünya təhlükəsizliyi qarşısında Xristianlığın öz potensialından istifadə etməsi zərurəti vurğulanmışdı. Yekun sənədin (Birgə Bəyanat) ruhundan və üslubundan hiss olunur ki, Yaxın Şərqdə və Şimali Afrikada xristianların öz doğma yerlərindən sıxışdırılıb çıxarılması və qarşıdurmada bəzilərinin ölümü, sekulyar Avropada isə hüquqi və mənəvi ayrı-seçkilik yolu ilə möminlərin sıxışdırılması həm katolik, həm də pravoslav iyerarxiyasını rahatsız etməkdədir (Ermənistan Respublikasından müsəlman əhalinin sıxışdırılıb qovulması faktı da yaddaşlardan silinməməlidir). Dini liderlərin Havana görüşündə mövqelər belə ifadə edilmişdir: müasir şəraitdə Rusiya patriarxlığı həmrəyliyin arxasında siyasi birliyin, dünya xristianlarının hüquqlarını birlikdə müdafiə etməyin tərəfdarıdır, Vatikan isə bu fikirlə yanaşı, kilsələrin də birliyi niyyətində olduğunu kardinal K. Kox vasitəsilə diqqətə çatdırmışdır, amma bir şərtlə – bütünlüklə Roma Papasının rəhbərliyi altında birləşməli [12]. 2016-cı ildə Azərbaycana da səfər edən Roma Papası Fransisk oktyabr ayının 2-də Heydər Əliyev Mərkəzində ictimaiyyətin nümayəndələri qarşısında çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində azərbaycanlıların başına gələn müsibətləri dilə gətirmiş, Ermənistanın dövlət terroruna məruz qalan, əziyyət çəkən xalqın halına acımış, onlarla həmrəylik ifadə etmiş və sülhə çağırış səsləri ucaltmışdır: «…Bu ölkəyə (Azərbaycan Respublikasına. – E.C.) gəldikdə, qanlı münaqişə səbəbindən öz torpaqlarını məcburiyyət qarşısında tərk etmiş, əziyyət çəkən bu qədər şəxslərə böyük vəchlə yaxınlığımı bildirmək istəyirəm. Arzu edirəm ki, beynəlxalq ictimaiyyət öz lazımi yardımını daim göstərsin. Eyni zamanda, yeni mərhələnin başlanmasını mümkün etmək məqsədilə bölgədə sabit sülhün qurulması üçün razılıq doğuran həll variantına nail olmaq naminə hamını əlindən gələni etməyə çağırıram. İnanıram ki, Tanrının himayəsi ilə və tərəflərin xoş iradəsi sayəsində Qafqaz dialoq və danışıqlar yolu ilə bir məkana çevriləcək ki, ziddiyyətlər və fərqlər çözüləcək, aradan qalxacaq. Ölkənizə səfəri zamanı müqəddəs II İoann Pavelin gözəl kəlamı ilə desək, qoy, "Şərq ilə Qərbin arasında qapı" olan bu məkan sülhə açıq olsun və digər keçmiş, eləcə də yeni münaqişələrin həlli üçün nümunəyə çevrilsin».

mətbuatında Azərbaycanın beynəlxalq terrorla mübarizəni dəstəklədiyini vurğulayan təbliğat-təşviqat materialları dərc olunur. Bütün bunlar müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan Respublikasının terrorla mücadiləsində yeni səhifədir.

## ƏDƏBİYYAT


1. Sahih-i Muslim. Deccalın kıssası, sifatı ve beraberinde bulunacaq şeyler babı.2937-ci hedis.
2. Muhamməd Əbdül Ğəffar əl-Şərif. Dini ekstremizm. Onun səbəbləri və aradan qaldırılması yolları (problemə şəriət yönümündən baxış. B.: “İdrak” İctimai Birliyi, 2009.
3. http://www.quran.az
4. Мюллер А. История ислама. От мусульманской Персий до падения мусульманской Испании: пер с нем. М.:ООО «Издательство Астр ель», 2004, с.133 – 157.
5. Згурский Г.В. Словарь исторических терминов / Г.В. Згурский, под ред. С.Н. Смоленского. – М.: Эксмо, 2008, с.49.
6. Дафтари Ф. Краткая история исмаилизма: Традиции мусульманской общины. Пер. с англ. Л.Р. Додыхудоевой, Л.Н. Додыхудоевой. М.: ООО «Издательство АСТ»: «Ладомир», 2004, с.28 – 29; 129 – 138.
7. https://golosislama.com/news.php?id=34074
8. Məhəmməd əl-Qəzali. Məzhəb ixtilafları haqda yeni söz. B.: “İdrak” İctimai Birliyi, 2010, s.35.
9. https://metbuat.az/news/460031/200-minlik-islam-ordusunun-qerargahi-qurulur.html
10. «РПЦ призовет Ватикан встать на защиту христиан» // «Известия», 10 февраля 2016г.
11. «Международная жизнь», март, 2016, с.2.
12. «Наука и религия», 2016, № 3, с.6 – 7.

Эльчин Джаббаров

## БОРЬБА С ИСЛАМОФОБИЕЙ В КОНТЕКСТЕ «РЕЛИГИЯ И ТЕРРОР»


### АННОТАЦИЯ

В статье рассматривается тенденция укрупнения современного террора в контексте «религия и террор», а также социально-политические факторы его исламофобского направления. Научно-теоретическая позиция базируется на антитеррористических вопросах, в которых рассматриваются основные особенности борьбы с исламофобией.


Elchin Jabbarov

## THE FIGHT AGAINST ISLAMOPHOBIA IN THE CONTEXT OF «RELIGION AND TERROR»


### ANNOTATION

The article considers the trend of consolidation of modern terror in the context of «religion and terror», as well as the socio-political factors of its Islamophobic direction. The scientific position is formulated on the basis on antiterrorist issues that address the main features of the fight against Islamophobia.

# СРЕДСТВА МАССОВОЙ ИНФОРМАЦИИ КАК ПРИЧИНА ИСЛАМОФОБИИ

***Фариз АХМЕД,***
*Государственная Нефтяная Компания Азербайджанской Республики Государственный Научно-исследовательский Институт Нефти и Газа, старший научный сотрудник отдела "Борьбы с песко-водо проявлениями",*
*farizahmed@mail.ru*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *средства массовой информации, исламофобия, секулярная культура, манипуляция.*
***AÇAR SÖZLƏR:*** *kütləvi informasiya vasitələri, islamofobiya, sekulyar mədəniyyət, manipulyasiya.*
***KEY WORDS:*** *mass media, islamophobia, secular culture, manipulation.*

В современном мире по отношению к религии переживается жестокий кризис. Общество не хочет воспринимать религию как одну из реалий современной жизни, поскольку манипуляция научными фактами не оставила на Земле место чему-либо другому.

В своем кризисе общество пребывает в растерянности. Оно полагает, что Ислам изжил себя, а его цели потеряли актуальность. Но постепенно современное общество начинает осознавать, что Ислам вовсе не наследие древности, которому место в музее идей, а живое образование, обладающее необходимым жизненным потенциалом на будущее.

В конце восьмидесятых годов XX в. в Европе было введено в обиход новое слово, которое свидетельствовало о продолжении давней политики Запада в отношении мусульман. В это время слово "исламофобия" стало некой заменой антиисламского проекта, потому что, имея антиисламский характер, оно ещё имело иные особенности. В общественном понимании исламофобии мусульмане представляются теми, кто считается врагами и угрозой человечеству.

С целью создания и поддержания подобных стереотипов требуются определённые усилия. Проводником этих усилий в XX в. являлись средства массовой информации (СМИ). Ещё в 1981 году профессор Колумбийского университета Эдвард Саид так описывал их роль: "СМИ могут сделать все, что угодно, представлять все виды точек зрения, способствовать появлению многих вещей, которые являются эксцентричными, неожиданно оригинальными, даже представляют собой отклонение от нормы...". Эдвард Саид считал позицию западных СМИ относительно Ислама частью их культуры. Эта культура воспринималась им, как структура, существующая в определённой исторической эпохе, которая определяет существование определённых взглядов и мнений. В освещении

СМИ, Ислам ассоциируется с воинственностью, угрозой и антизападными настроениями. То есть, говоря об Исламе и мусульманах, западные СМИ при помощи таких приёмов как гиперболизация и стереотипизация делают акцент на “воинствующей враждебности” ислама и мусульман [1, 2].

Новая Исламская волна черпает свои огромные силы из прошлого и имеет источники мощной силы в настоящем. Эта волна направлена в будущее, а для её роста и усиления существует целый ряд благоприятных факторов. Вне всякого сомнения, это возродит первоначальное Исламское чудо. Из низшей точки нравственного падения люди поднимутся до уровня возвышенного гуманизма на всей Земле, устремленного к небесам.

Но мусульманский мир не отрицает глобализацию как таковую, он выдвигает свой проект глобализации и свой цивилизационный проект-в качестве альтернативы нынешнему мировому порядку, который требует от современного мира, в первую очередь от Запада, кардинальных изменений.

По словам немецкого и американского философа, социолога и культуролога Герберта Маркузе секулярная культура “одномерна” (она абсолютизирует только физическую реальность) и не в силах понять другие, не являющиеся одномерными культуры. Следовательно, её сосуществование с другими культурами невозможно. По этим причинам секулярная культура может продолжать существовать исключительно путём изобретения “чужого”, то есть мнимого призрачного врага [3]. Для изобретения “чужого” мнимого призрачного врага в СМИ очень широко используется блеф и психологические манипуляции.

Сегодня существует множество примеров антиисламской пропаганды в мире. Для этого СМИ используют различные тактики и уловки, в частности, практикуется использование прилагательного “исламские” при описании терактов и экстремистских группировок. Ведь если говорить о проявлениях насильственных действий со стороны, например, христианского вероисповедания, то в масс-медиа мы вряд ли встретим такое выражение как “католический терроризм”. Помимо этого, в прессе практически полностью отсутствует информация о позитивной деятельности мусульман. К сожалению, сегодня большинство СМИ преследует цель не объективного и регулярного освещения события, а лишь получения прибыли. А искажение объективных фактов и оскорбление мусульманских ценностей в СМИ не считается чем-то противозаконным и преподносится как свобода слова.

В СМИ мы можем наблюдать большой поток дезинформации, направленный против Ислама и мусульман. Враги Ислама и мусульман всячески пытаются опорочить имидж Ислама, навешивая различные унизительные ярлыки, такие как “Ислам-религия насилия”, “пояс шахида”, “террорист-смертник” и прочие, которые не имеют с Исламом ничего общего.

Одним из аспектов, подстёгивающих исламофобию, является демонизация (приём манипулирования, когда вокруг объекта формируется негативное информационное поле) Ислама. Большая роль здесь отводится СМИ, так как именно они, завися от конъюнктуры, способны сформировать исключительно негативные представления. И именно они способны осуществлять фильтрацию информационных потоков. Порой, чтобы достичь цели, используются существующие факты, но они подвергаются такому сильному искажению, что в конечном итоге получается желаемый демонизированный продукт, сеющий в глубинах

подсознания страх. Причем страх надуманный, не реальный. Заставляющий вполне сознательного и пытающегося воспринимать адекватно общественные процессы человека испытывать душевный дискомфорт от возникшего противоречия.

На протяжении 2500-летней истории западной культуры Запад, в отличие от мусульман, никогда не имел опыта мирного сосуществования с другими культурами. Ведь с того самого момента, как другие культуры начинают демонстрировать даже самые незначительные признаки своего присутствия и жизнеспособности, становится неизбежной их нейтрализация в результате атак секулярной культуры. Когда Ислам в определенной форме обнаружил своё присутствие в Европе, это привело к тому, что Запад начал относить мусульман к категории “чужих” и наделять их демоническими качествами.

Проявление лжи в речах, или, проще говоря, обман, считается пороком во всём мире, даже если люди прибегают к нему время от времени. Если бы последний и самый великий из пророков-Мухаммад солгал, Господь наказал бы и его… ***“Если бы он приписал Нам некоторые слова, то Мы схватили бы его за правую руку (или схватили бы его крепко), а потом перерезали бы ему аорту, и никто из вас не избавил бы его” (аль-Хагга, 44-47)*** … не говоря уже о простых людях. Посланник Аллаха, один из правдивейших, сообщил: ***“Вера раба не будет правдивой, пока его сердце не станет правдивым. А сердце не станет таковым, пока язык раба не освободится ото лжи. А человек, чей сосед не безопасен от его вреда, никогда не войдёт в Рай”*** Также: ***“Человек продолжает лгать, пока не будет записан перед Господом постоянным лжецом”*** *(Сахих аль-Бухари)*

Запад на сегодняшний день использует фактор слова как эффективное оружие для промывки мозгов. О силе слова известно с древних времён. Ещё Аристотель сказал: “Слово-самое сильное оружие человека”. Таким образом, современные масс-медиа становятся одним из самых мощных видов информационного оружия, которое использует для выполнения своих негативных функций. Ведь язык “не только творит и мыслит, он управляет также чувствами, он руководит всей душевной субстанцией человека”. Виктор Клемперер, известный немецкий филолог, сравнивал слова с “мизерными дозами мышьяка: их незаметно для себя проглатывают, они вроде бы не оказывают никакого действия, но через некоторое время отравление налицо” [5]. Именно посредством языка, на основе использования отдельных слов, оборотов речи и конструкций предложений, внедряются в сознание индивида идеалы и ценности, разлагающие существующие ценностные ориентиры общества.

Технология массовой промывки мозгов для Запада не нова. Этот метод разработал и применял его в своё время на миллионах немцев Министр Пропаганды фашистской Германии Йозеф Геббельс. По утверждению доктора Геббельса: “Ложь, произнесенная многократно, становится правдой”. Попадая в жернова этой системы, человек постепенно начинал воспринимать мир так, как это было нужно создателю пропагандистской машины Третьего рейха.

С падением Берлина современной западное общество не освободилось от стереотипов системы пропаганды созданных нацистами. Наоборот, все эти годы она активно развивалась, и обогащалась новыми достижениями психологии и социологии.

В современном обществе весьма эффективно функционирует социальная машина

манипуляции общественным сознанием, представляющая собою набор технологий господства, одним из существенных элементов которых являются СМИ. Негативные оценочные функции СМИ, особенно электронных масс-медиа, проявляются в том, что они занимают командные высоты в массовой культуре, используют технологии разрушения сознания и конструирование специфической, реальности, внедряя в сознание индивида и социальных групп виртуальную реальность, которой ничего не соответствует в объективной социальной действительности. Все это в определенных социальных условиях выполняет негативные функции деструктивные для индивидуального и общественного сознания.

Российский политолог и социолог С.Г.Кара-Мурза высказывает следующую мысль: “По многим признакам манипуляция общественным сознанием напоминает войну небольшой, хорошо организованной и вооруженной армии чужеземцев против огромного мирного населения, которое к этой войне не готово. Постепенно создавались системы оружия в этой особой войне и постепенно, по мере накопления знания о человеке и его поведении, складывались доктрины манипуляции сознанием”. По мнению автора, человечество стоит на пороге создания такого типа общественного жизнеустройства, где главным и почти тотальным средством господства станет манипуляция сознанием. [6, 7].

Так в результате огромного потока дезинформации в обществе, появилась такая болезнь как исламофобия, то есть страх перед Исламом или боязнь Ислама со стороны не мусульман. Симптом этой болезни представляется в изображении Ислама как отсталой цивилизации.

***“Они хотят погасить свет Аллаха своими устами, но Аллах сохранит Свой свет, даже если это ненавистно неверующим”*** *(Ас-Сафф, 8).* Они надеются своими порочными речами затмить истину. Но этому не быть, ибо разумный человек, послушав их, еще сильнее убедится в лживости их воззрений. Аллах гарантировал победу своей религии и торжество истины, с которой Он отправил своих посланников, и обещал озарить светом правой веры все страны, как бы это ни было ненавистно неверующим. Даже если они направят все свои усилия на то, чтобы затушить свет Аллаха, им все равно не избежать поражения. Они подобны тем, кто пытается задуть свет солнца. Им никогда не удастся достичь желаемого, а их бессмысленные усилия лишь свидетельствуют об их слабоумии.

До событий, произошедших 11 сентября 2001 года о проблеме исламофобии мало кто говорил, и мало кого это вообще интересовало, так как Ислам никого не пугал. Для манипуляторов сознанием это были бесценные часы, когда на перевернутое и искаженное людское сознание можно было записать любую ложь, вне зависимости от ее чудовищности. В результате от мирового сообщества было получено молчаливое одобрение на вторжение в земли мусульман, с яростным и неотвратимым требованием мести. После 11 сентября мир по-другому посмотрел на Ислам, как на религию войны (джихада) и религию террористов-смертников (шахидов). Мир окончательно запутался с понятиями об Исламе.

По выражению Гейдара Джамаля: “Книга Орианы Фаллачи “Ярость и гордость” состоит из выражений, типа “мусульмане плодятся как крысы”, “ублюдки, попирающие наш святой мрамор…”, полна терминами, снятыми с забора, площадной бранью. Но отличилась не она одна. Человек, известный своей подчеркнутой интеллигентностью на телеэкране, ведущий “Времена” Познер неожиданно заявил в эфире, что он готов взять автомат и пойти

расстреливать мусульман… Эти эпизоды являются лишь легкими всплесками на фоне бытовой, все более набирающей силу звериной исламофобии, которая сегодня практически превращается в норму” [8].

30 сентября 2005 года в газете “Jyllands-Posten”, публикуемой в Дании, вышла карикатура Курт Вестергаард на Пророка Мухаммеда (с.а.с.) в образе террориста. В поддержку этому гнусному поступку, карикатура была перепечатана некоторыми газетами Франции, Германии, Голландии, Италии и Испании. Таким образом, те, кто передал карикатуру на страницы медии достигли своей цели и укрепили в сознании простых европейцев представление о мусульманах, как о террористах. Исламофобия оказалось в выигрыше, а человечество в проигрыше.

27 марта 2007 года голландский политик Геерт Уайлдерс распространил в Интернете краткометражный фильм “Фитна”, являющийся оскорблением для Ислама. Но, судья оправдал Уайлдерса, аргументируя это странным доводом о том, что в фильме целью были не мусульмане, а Ислам. На самом деле, этот фильм был подтверждением того, что исламофобия усиливается в Европе.

В 2010 году 11 сентября был объявлен американским священником Терри Джонсом “днем сожжения Корана”. Несмотря на то, что в результате протестов акция не была претворена жизнь, но Терри Джонсу удалось сделать задуманное. В результате, в Афганистане прошли акции протеста и погибли десятки людей. Это событие дало дополнительный повод тем, кто хотел развить исламофобию.

И наконец, известный фильм “Невинность мусульман” вызвал новую волну ненависти к Исламу в Европе. Мусульмане, протестующие против этого фильма, совершили много преступлений под влиянием радикальных чувств. В результате, противоположная сторона получил еще один аргумент, чтобы унизить Ислам.

Чтобы в ложь об Исламе поверили-она должна быть чудовищной. Манипулируя терминами “джихад”, “шахид”, “исламист”, “радикал”, “экстремист” они шокируют общество и таким образом проникают в подсознание человека. В тот момент, когда человек удивлён, растерян, возмущён или шокирован он становится наиболее беззащитным и абсолютно внушаемым. Например, в СМИ часто используется простой ход-это напугать человека и дать ему короткую инструкцию-лозунг. Через несколько повторений (в различных вариациях) такой лозунг незаметно для человека становится его убеждением. Определить, что это убеждение навязано извне, простому обывателю практически невозможно. Плотный, непрекращающийся поток направленной информации обеспечивает эффект облучения подсознания человека. По воле Всевышнего они не достигнут своей конечной цели: ***“Он сделал тщётными деяния тех, которые не уверовали и сбивали других с пути Аллаха...”*** *(Мухаммад, 2).*

Так, никто и никогда не примет отъявленного лжеца, даже такие же, как и он, ведь только безумец станет доверять этому человеку. И поскольку ясность речей показатель правдивости, любая двусмысленность, недомолвка, сарказм, хитрость и любая другая форма обмана отвергается Исламом. Возможно, кто-то предпочтёт воздержаться от лжи, когда вспомнит, что это один из признаков наиболее гнусного качества-лицемерия. Ислам не

только рассказывает о недопустимости лжи, но и предостерегает от всех путей, ведущих к ней.

Мусульманин привержен определённым идеологическим идеалам, в которые он верит свято, и с которыми сверяет всю поступающую к нему информацию. Мусульманин привязанный к Корану и Сунне Пророка (мир ему и благословение) наименее подвержен всяческим попыткам манипуляции его сознанием. У мусульманина есть Слово Аллаха и пример жизни Его Посланника (мир ему и благословение), детально регламентирующие жизнь верующего. Именно с этими двумя источниками мусульманин каждый миг сверяет окружающую реальность, поступающую к нему информацию и навязываемые ему сведения. Трудно навязать какие-нибудь ложные представления человеку, живущему в обществе, сверяющее каждый шаг с Божественной Истиной.

Стремление к правдивости в душе, словах и делах требует от верующего предельной твердости и бдительности по отношению к опасности лжи, фальши, обмана и лицемерия: ***"Это происходит для того, чтобы Аллах воздал правдивым за их правдивость и наказал лицемеров, если Он пожелает этого, или принял их покаяния. Воистину, Аллах-Прощающий, Милосердный" (аль-Ахзаб, 24)***

Поскольку практически невозможно манипулировать сознанием истинного мусульманина, живущего по принципам Корана и Сунны Пророка (мир ему и благословение), то массированной атаке подвергается имидж Ислама. Образ Ислама искажается и извращается до неузнаваемости. В ход идут самые грязные и лживые измышления. Ведется плотная обработка и манипуляция сознанием обычных людей. Истерия исламофобии доводится до невероятного накала. Закрываются и поджигаются мечети, оскверняются мусульманские могилы и святыни, убивают мусульман, преследуются исламские активисты и проповедники.

Так в современном Западном обществе огромный поток лжи внедряется в сознания людей. Люди преднамеренно распространяющие эту ложь являются прислужниками шайтана. В книге Мухйидина бин Араби "Исповедь Сатаны" есть притча о разговоре Пророка Мухаммада с Шайтаном: "Разве ты не знаешь, о Мухаммад, что ложь от меня, и первый, кто солгал-это я. И каждый из тех, кто говорит ложь мой приятель. И каждый из тех, кто произносит ложную клятву это тот, кого я люблю. Неужели, о Мухаммад, ты не помнишь, как я поклялся именем Аллаха и обманул Адама и Хавву? Ложная клятва-праздник души моей". **Шайтан намеренно подменяет названия вещей и вводит в заблуждение. Шайтан пытается сокрыть истину, установленную Аллахом, и подменить ее ложью:** Шайтан поклялся ввести в заблуждение тех, которых он соблазнил, отвратив их от Истины Аллаха и внушив им низменные страсти… Тот, кто берёт шайтана покровителем, понесёт явный урон, потому что он заблуждается и отклоняется от истинного пути, принося в жертву свой разум. Он обрекает себя на погибель в ближайшей жизни и мучительное наказание в последней жизни (ан-Ниса, 119) [9].

Это всего лишь малая толика тех нападок, искажений и очернения Ислама перед миром. Не говоря уже и о том, каким нападкам подвергается авторитет Пророка (да благословит его Аллах и приветствует). Мусульмане не должны идти на поводу этих манипуляций и должны быть твердо убеждены в чистоте своей религии и отдалится от всего того что приписывают Исламу исламоненавистники. Мусульмане не должны быть соучастниками в

очернении Ислама в угоду им ради своего благополучия или каких-то подачек. Ясно, что это противостояние будет до Судного Дня. И это испытание для нас в том, насколько мы будем верны завету между нами и Всевышним.

## ЛИТЕРАТУРА


1. Said, E. Covering Islam: How the Media and the Experts Determine. How We See the Rest of the World. N.Y.: Vintage Books, 1997.
2. Hart, W. Edward Said and the Religious Effects of Culture. Cambridge: Cambridge University Press, 2000.
3. Herbert Marcuse. One-Dimensional Man. Boston: Beacon Press, 1964, pp. 257.
4. Р.Р.Гарифуллин. Энциклопедия блефа. **Манипуляционная психология и психотерапия**. Казань: 1995, 217 с.
5. *Клемперер В.* LTI. Язык Третьего рейха: Записная книжка филолога. М.: Прогресс-Традиция, 1998, 381 с.
6. Кара-Мурза С. Г. **Манипуляция сознанием**. М.: Эксмо, 2000, 864 с.
7. Nicolas Guéguen. Psychologie de la manipulation et de la soumission. Dunod, Paris: 2002, pp. 203.
8. Г.Д. Джамаль. Исламская интеллектуальная инициатива XX века. М.: Издательский дом "Ummah", Изд-во "Социально-политическая мысль", 2005, 336 с.
9. Мухйиддин бин Араби. Исповедь Сатаны. М.: ООО "Издательская группа "САД", 2009, 52 стр.

Fariz Əhməd

## KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ İSLAMOFOBİYANIN SƏBƏBİ KİMİ


XÜLASƏ

XX əsrdə islamofobiyaya dair stereotiplərin formalaşmasında kütləvi informasiya vasitələri (KİV) aparıcı rol oynamışlar. Artıq bir neçə ildir ki, KİV-də İslama və müsəlmanlara qarşı yönəlmiş böyük dezinformasiya axını müşahidə olunur. Son nəticədə isə islamofobiya kimi xəstəlik yaranmış və bu tendensiya getdikcə genişlənməkdədir.


Fariz Ahmad

## MASS MEDIA AS THE CAUSE OF ISLAMOPHOBIA


SUMMARY

In the 20th century, mass media played a leading role in shaping stereotypes regarding Islamophobia. There has been a massive flow of misinformation directed at Islam and Muslims in the mass media for several years. As a result, illness has emerged as Islamophobia, and this tendency is increasingly expanding.

# SOSİAL FƏLSƏFƏDƏ DƏYƏR KATEQORİYASININ FORMALARI HAQQINDA

***Kamran VƏLİZADƏ,***
*Naxçıvan Dövlət Universitetinin*
*Fəlsəfə və politologiya kafedrasının müəllimi*
*kvelizadeh@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *şəxsiyyət, millət, siyasət, dəyər, mənafe.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *личность, нация, политика, значение, интерес.*
***KEY WORDS:*** *individual, nation, politics, value, interest.*

Şəxsiyyəti aksioloji varlıq kimi araşdırmaq, onun hərtərəfli və dərin elmi-nəzəri modelini yaratmaq son dərəcə vacibdir. Bununla əlaqədar, ilk növbədə, aksiologiyada mərkəzi yer tutan dəyər anlayışının mahiyyət və məzmununu açmaq tələb olunur. Bu fikri bir qədər də konkretləşdirərək deyə bilərik ki, söhbət aşağıdakı məsələlərdən gedir: varlığın real, ontoloji təbiətli fenomeni kimi dəyərlərin mənşəyinin araşdırılması, dəyər anlayışının məzmununa dair fəlsəfi ədəbiyyatda söylənilən müddəaların təhlil edilib dəqiqləşdirilməsi, onun strukturu, formaları və şəxsiyyətin anlaşılmasında oynadığı rolun tam dolğunluğu ilə aşkar edilməsi, dəyərlərin real varlıqda fəaliyyətinin sosioloji və psixoloji ilkin şərtlərinin müəyyənləşdirilməsi.

Dəyər gerçəklik hadisələrinin və faktlarının mədəni, ictimai və şəxsiyyət baxımından əhəmiyyətliliyini ifadə edən anlayışdır. Dəyərlər fenomeni ayrıca bir insanın və sosial birliklərin real həyat prosesi və sosial praktikası ilə ayrılmaz əlaqədə çıxış edir. Fəlsəfi ədəbiyyatda dəyərlər əsasən iki növə ayrılır: predmet dəyərləri və subyekt dəyərləri. Birincilər ətraf aləmdəki obyektləri xeyir və şər, həqiqət və yalan, gözəl və eybəcər, ədalətli və ədalətsiz kimi qiymətləndirir. İnsanların maddi və mənəvi fəaliyyətinin bütün ictimai münasibətlər və onlarla əlaqəli olan təbiət hadisələri bu qrupa aiddir. Burada əsas meyar həmin obyektlərin insan üçün müsbət əhəmiyyət kəsb etməsi və onun tələbatlarını ödəməsidir. Subyekt dəyərləri isə insanların fəaliyyət və davranışlarının oriyentirləri və meyarları rolunu oynayır. Onlar bir qayda olaraq, normalarda ifadə olunan xüsusiyyətləri, qiymətləndirməni, tələbləri və yasaqları əks etdirirlər.

Dəyərlərin predmet və subyekt növlərinə ayrılması ilə yanaşı, digər əlamətlər üzrə təsnifatları da mövcuddur. Onlardan nisbətən geniş yayılanı aşağıdakı bölgüdür: a) ekzistensial (cari, gündəlik mövcudluq ilə bağlı olan) və essensial (insanın mahiyyətini ifadə edən) dəyərlər; b) mövcud olan (yəni artıq reallaşmış olan) və fikirdə tutulan, ideal dəyərlər; c) arzuolunan (məsələn, yüksək təhsil almaq, cəmiyyətdə yüksək mənsəb sahibi olmaq) və normativ (qanuna hörmət, müxtəlif qaydalara əməl olunan) dəyərlər [1, s. 609].

Dəyərləri məqsəd (yüksək mütləq dəyərlər ) və vasitə dəyərlərinə (ikinci dərəcəli, alət rolunu oynayan dəyərlər), habelə maddi və mənəvi növlərə bölən təsnifatlar da mövcuddur. Bundan əlavə, siyasi, qneseoloji (həqiqət, elmilik), etik (xeyirxahlıq, ədalət), estetik (gözəllik, ülvilik) və dini

dəyərləri də bir-birindən fərqləndirirlər [2, s. 459].

Dəyərlərin yuxarıda göstərilən tipologiyası xeyli dərəcədə nisbi xarakter daşıyır. Çünki onlar bu və ya digər meyar, əlamət üzrə aparılır. Odur ki, onları bir-birindən ayrılıqda deyil, sıx əlaqədə götürmək tələb olunur. Bununla yanaşı, nisbi xarakter daşımayan, mütləq mahiyyət kəsb edən dəyərlər də vardır. İnsan və onun həyatı belə dəyərlərdəndir. İ.Kant bu məqamı xüsusi vurğulayaraq yazırdı ki, insana əsl məqsəd kimi yanaşmaq lazımdır, ondan digər dəyəri yerinə yetirmək üçün vasitə kimi istifadə etmək yolverilməzdir, çünki insan özdəyərdir və mütləq ali dəyərdir [3, s. 781].

Şəxsiyyətin fəaliyyətində dəyərlərin rolundan danışarkən onların müxtəlif qruplardan ibarət olduğu da nəzərə alınmalıdır. Bu baxımdan onların aşağıdakı iki böyük qrupu bir-birindən fərqləndirilir: a) elmi dəyərlər (müvafiq bilik sahəsinə aid idrakı informasiya, onun həqiqi məzmunu, dünyanın elmi mənzərəsi, elmi təfəkkürün üslubu, eksperiment aparmağın metodları və metodikası və s.); b) sosial dəyərlər (bunlar onu göstərir ki, insan müəyyən bir cəmiyyətin, millətin, sosial qrupun üzvü olduğu üçün öz fəaliyyətində həmin birlik formalarının maraqlarını ifadə edən dəyərlərə uyğun hərəkət edir); c) etik dəyərlər (xeyirxahlıq, ədalətlilik, sülhsevərlik və s.); d) siyasi, dünyagörüşü xarakterli dəyərlər; e) estetik dəyərlər və s. Qeyd edək ki, bəzən sonuncu iki qrup birləşdirilərək vahid sosial dəyərlər adı altında verilir ki, bunu da məqbul saymaq olar.

Müasir dövrdə sosial-etik və humanist dəyərlərin rolu və təsir dairəsi durmadan genişlənir, onlar hətta təbii elmi idraka da dərindən nüfuz edirlər. Bu təbiidir, çünki sosial-etik və humanist problemlər zahiri xarakterli və elmi həqiqət axtarışını müşayiət edən xarici amillər deyildir. Onlar elmin "bədəninə" onun zəruri şərti kimi, təfəkkür "yürütmə şəraiti" və həqiqəti, effektiv reallaşdırma forması kimi daxildirlər [4, s. 13].

Şəxsiyyətin dəyərləri üç əsas mənbə hesabına formalaşır. Onlardan birincisi, insanların yaratdığı və nəsildən-nəslə keçirdiyi, lakin konkret cəmiyyətin fövqündə duraraq ümumbəşəri səviyyəyə yüksəlmiş aksioloji formalar; ikincisi, şəxsiyyətin yaşadığı cəmiyyətdə, real sosial mühitdə əsas yer tutan dəyərlər sistemi; nəhayət, üçüncüsü, şəxsiyyətin özünün sosial statusu, rolu, dünyagörüşü, bilik və mədəniyyət səviyyəsi, şəxsi təcrübəsi nəticəsində formalaşan dəyərlərdir. Şəxsiyyətin həyat fəaliyyətində bu üç tərəf bir-birindən ayrılıqda deyil, sıx qarşılıqlı təsirdə və vəhdətdə çıxış edir. Dəyərlərin məzmununda mövcud ictimai münasibətlər sisteminin xarakteri, tələbatları və inkişaf qanunauyğunluqları heç də həmişə adekvat əks olunmur, yəni burada təhriflərə və yanlışlıqlara yol verilə bilər.

Şəxsiyyətin dəyərlərinə təkcə predmet deyil, həm də normativ cəhətdən yanaşmaq lazımdır. İkinci halda onlar şəxsiyyətin öz maraq və məqsədlərinə uyğun həyata keçirdiyi dəyərləndirici və qiymətverici münasibət kimi çıxış edir. Belə münasibət fərd tərəfindən onu əhatə edən az-çox əhəmiyyətli bütün sosial hadisələrə və proseslərə nəzərən bildirilir.

İnsanın fəaliyyətində idraki, praktiki və dəyərləndirici tərəflər bir-birindən ayrılmaz olduğundan belə dəyərləndirmə müstəsna əhəmiyyətə malikdir.

Dəyərlərin funksiyaları siyasi, hüquqi, iqtisadi, əxlaqi və estetik sahələrdə təzahür edir, həm də digər normalar ilə əlaqədə reallaşır. Dəyərlərin ən böyük rolu bundadır ki, onlar cəmiyyətin mənafeləri ilə sosial qrupların və ayrı-ayrı şəxsiyyətlərin mənafelərini əlaqələndirməyin hərəkətverici mexanizmləri kimi çıxış edir [5, s. 187].

Şəxsiyyətin formalaşmasında oynadığı rol baxımından predmet dəyərləri və onun xüsusi növünü təşkil edən maddi-texniki dəyərlər (elmi-texniki yeniliklər, yeni əmək vasitələri, texnoloji nailiyyətlər və s.) şəxsiyyətin istehsalçı, ictimai faydalı əməklə məşğul olan cəmiyyət üzvü kimi formalaşmasında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan müasir elmi-texniki tərəqqinin yaratdığı misilsiz imkanların rolu xüsusi qeyd olunmalıdır. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarılmamalıdır ki, maddi dəyərlər və ya elmi-texniki zəka öz-özlüyündə və birbaşa şəxsiyyətin inkişafını müəyyən edir. Əslində, bu iki tərəf arasında əlaqələr çox mürəkkəb və vasitələnmiş xarakter daşıyır. Bundan başqa, onlar arasında uyğunsuzluq və münaqişə halları da özünü göstərə bilər. Müasir cəmiyyətdə elmi-texniki inkişafın heç də həmişə şəxsiyyətin yüksəlişinə təkan verməməsi, əksinə, bəzən onun mənəvi kasadlaşmasına gətirib çıxarması bununla izah olunur. Buradan aydın olur ki, maddi və elmi-texniki amillər öz-özlüyündə deyil, yalnız sözün əsl mənasında dəyər kimi fəaliyyət göstərdikdə şəxsiyyətin davranışının və hərəkətinin mühüm oriyentirlərinə çevrilir.

Şəxsiyyətin formalaşmasına bilavasitə istehsal xarakterli dəyərlər ilə yanaşı, istehsaldan kənar tələbatların ödənilməsinə yönəlmiş xidmət dəyərləri (mənzil, ərzaq, geyim vasitələri və s .) də güclü təsir göstərir. Onlar şəxsiyyətin fiziki inkişafının mühüm şərti kimi çıxış edirlər. Lakin maddi predmet dəyərlərinin rolu təkcə cismani inkişafa təsir göstərməklə məhdudlaşmır. Bütövlükdə bu dəyərlərin mənimsənilməsi gedişində şəxsiyyətin davranış formasının dəyişilməsi, ümumi mədəni səviyyəsinin yüksəlməsi və əhatə dairəsinin genişlənməsi baş verir.

Şəxsiyyətin formalaşmasına göstərdiyi təsir baxımından mənəvi dəyərlər xüsusi əhəmiyyət kəsb edir. Bu, bir sıra səbəblərlə izah edilir. Əvvəla, maddi dəyərlər istehlak prosesində tezliklə tükənə bilir və əsasən şəxsiyyətin fiziki dünyasının hüdudlarından kənara çıxmır. Halbuki mənəvi dəyərlər praktiki olaraq tükənmir, onlardan daima istifadə etmək olur. Digər tərəfdən, mənəvi dəyərlər şəxsiyyətin fəaliyyət motivləri ilə daha sıx əlaqəlidir, onun davranış və hərəkətlərinin oriyentirləri rolunu oynayırlar [6, s. 308].

Mənəvi dəyərlər müxtəlif formalarda çıxış edirlər. Onların tərkibinə elmi həqiqəti ifadə edən nəzəri müddəalardan tutmuş, əxlaqi normalar, estetik dəyərlər, bədii zövq, dini inam, ictimai rəyin müəyyən ünsürləri və s. daxildir. Mənəvi dəyərlərin bir qismi ictimai ideal və mədəni-tarixi inkişafın hamı tərəfindən qəbul olunmuş məqsədi kimi çıxış edirlər. Bunlara misal olaraq, azadlığı, sosial bərabərliyi, ədaləti, humanizmi, demokratiyanı, habelə digər ümumbəşəri xarakter daşıyan idealları göstərmək olar. Onlar ümumi mədəniyyət sistemində mərkəzi yer tutur, bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir şəxsiyyətin mənəvi zənginliyinin nüvəsini təşkil edirlər.

Ümumi ictimai inkişafda və şəxsiyyətin formalaşmasında oynadığı rolun səviyyəsi və miqyasına görə mənəvi dəyərlərin özünü iki qrupa ayırmaq olar. Birinci qrupa əsas yer tutan məqsəd dəyərləri (fundamental dəyərlər, yaxud ali dəyərlər), ikinci qrupa isə nisbətən arxa planda çıxış edən vasitə dəyərləri (instrumental dəyərlər ) daxildir.

Birinci qrupa daxil olan dəyərlərdə insana məqsəd kimi yanaşılması, həyatın mənası, xeyirxahlıq, ədalət, gözəllik, həqiqət, azadlıq və s. aparıcı yer tutur. XX əsrin görkəmli filosoflarından A.Uaytxed həmin dəyərlərin rolunu xüsusi qeyd edərək yazırdı ki, “onlar öz təbiətinə görə zamanın fövqündə durur və əbədi xarakter daşıyır, onların mahiyyətini müvəqqəti və keçici amillərlə izah etmək olmaz” [7, s. 306].

Təbii ki, şəxsiyyətin sosiallaşması prosesinə göstərdiyi təsirin dərəcəsi baxımından da həmin dəyərlər digərlərindən yüksəkdə durur. Başqa sözlə, bu cür dəyərlərin şəxsiyyətin həyatına hopması onun daxili strukturunun ən dərin qatlarını müsbət istiqamətdə dəyişdirir, onun özünün aktuallaşdırılmasını sürətləndirir. Sözügedən ali dəyərləri lazımı səviyyədə mənimsəməmiş şəxsiyyət dolğun həyat fəaliyyəti göstərə bilmir. Məsələn, müəyyən səbəblər üzündən həyatın mənasını anlaya bilməyən insanlarda dərin mənəvi sarsıntılar özünü göstərir, bu isə bəzən faciələrlə nəticələnə bilir. Yaxud azadlıq dəyərini götürək. O, insanın məsləkində o dərəcə yüksək yer tutur ki, ona malik olmaq üçün insanlar öz həyatlarını qurban verməkdən çəkinmirlər.

Məşhur amerikan psixoloqu A.Maslou bu dəyərlərin şəxsiyyətin sosiallaşmasında və özünü aktuallaşdırmasında müstəsna rol oynadığını göstərmişdir. O qeyd edirdi ki, insanlar hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq bu dəyərlərə daim sadiq qalmağa çalışır və onları son dərəcədə əziz bir şey kimi qiymətləndirirlər. Biri öz həyatını qanuna, digəri ədalətin qorunmasına həsr edir. Başqaları isə gözəlliyin və həqiqətin qayğısına qalır. Onların hamısı öz həyatını bu və ya digər şəkildə "varlıq dəyərləri" adlanan dəyərlərin axtarışına həsr edir. Belə dəyərlərin sayı çoxdur. Onların arasında aşağıdakılar xüsusilə mühümdür: həqiqət, gözəllik, xeyirxahlıq, mükəmməllik, sadəlik, hərtərəflilik, ədalətlilik, ləyaqətlilik və başqaları [8, s. 110].

Maslouya görə, bu dəyərlər çox mühüm tələbatları ifadə etdiyi üçün onların əzilməsi hətta ruhun patologiyasını dəyişdirir. Buna görə də onlar əksər insanların həyatının mənasını təşkil edir.

Ali dəyərlər, xüsusən də həyatın mənası "ekzistensial vakuum" ilə sıx əlaqəlidir. Belə ki, dəyərlərin müxtəliflik labirintində çaşıb qalan və çıxış yolu tapmayan insan "ekzistensial vakuuma" düçar olur. Qeyd edək ki, sözügedən vəziyyət müasir dövrün şəxsiyyət tipi üçün daha səciyyəvidir. Çünki indi cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində özünü göstərən əsaslı dəyişikliklər nəticəsində ənənəvi dəyərlər sisteminin köhnəlməsi, bütövlükdə dəyərlərin yenidən mənalandırılması prosesi baş verir. Bununla əlaqədar nəinki təkcə gənclər, hətta yaşlılar arasında öz həyatının mənasını, nəyə görə yaşadığını dərk etməyən insanlar hələ də müəyyən çəkiyə malikdirlər. Şəxsiyyətin həyatı üçün böyük əhəmiyyət kəsb edən dəyərlərin itirilməsi (ekzistensial vakuum) çox vaxt stress vəziyyətlərinə gətirib çıxarır və şəxsiyyətin ümumi inkişafına güclü mənfi təsir göstərir.

Şəxsiyyətin sosiallaşması prosesində təkcə ali (məqsəd) dəyərlər deyil, həm də konkret (vasitə) dəyərlər mühüm rol oynayır. Bunlar ali dəyərlərdən ayrılıqda deyil, onlara tabe şəkildə fəaliyyət göstərirlər və əsasən onlar ilə şərtlənirlər. Bunu aşağıdakı misaldan da görmək olar. Əgər bu və ya digər şəxsiyyətin fəaliyyət və davranışında ədalətlilik kimi yüksək dəyər əsas yer tutursa, onda o heç vaxt öz məqsədinə çatmaq üçün qeyri-ədalətli vasitə dəyərlərindən istifadə etmir. O cümlədən əsl xeyirxahlığa can atan adamın bu yolda xeyirxah olmayan vasitələrdən istifadə etməsi ağlasığmazdır. Deyilənlər göstərir ki, məqsəd dəyərlər ilə vasitə dəyərlər bir-biri ilə sıx əlaqəlidir. Belə ki, bir tərəfdən ikincilər birincilərin əldə olunmasının əsl vasitələri rolunu oynayır, digər tərəfdən hər hansı yüksək məqsədə nail olmaq üçün mənəvi cəhətdən özünü doğrultmayan vasitələrdən istifadə edilə bilməz. Sözügedən iki tip dəyərlərin sıx qarşılıqlı təsiri və vəhdəti onların şəxsiyyətin sosiallaşma prosesində rolunu daha da gücləndirir. Bununla yanaşı, nəzərdə tutulmalıdır ki, vasitə dəyərlər məqsəd dəyərlərə nisbətən daha çox konkret şəraitin təsirində olur və dəyişilir. Ona görə də dəyərlərin seçim imkanlarına ayrı-ayrı real amillərin təsiri güclüdür. Odur ki, istənilən

məqsəd dəyərini həyata keçirmək üçün müxtəlif konkret vasitə dəyərlərindən istifadə olunur (maddi, mənəvi, iqtisadi, sosial, siyasi və s.). Həm də onların hər biri şəxsiyyətin davranışına eyni dərəcədə təsir göstərmir.

Cəmiyyətdəki dəyərlər təkbaşına deyil, mövcud sosial normalar sistemi ilə vəhdətdə və çulğalaşmış halda çıxış edərək, şəxsiyyətin davranışının tənzimləyicisi rolunu oynayır. Lakin nəzərdə tutmaq lazımdır ki, sosial dəyərlər şəxsiyyətin davranışının ümumi prinsiplərini müəyyən edir və onun özünün konkret davranış xəttini müəyyənləşdirməkdə sərbəstliyini və seçim imkanını məhdudlaşdırmır. Buradan aydın olur ki, sosial dəyərlərin davranışı tənzimetmə funksiyası həmişə insanın öz daxili vəziyyəti, yetkinlik səviyyəsi ilə bağlı həyata keçir [9, s. 147].

Şəxsiyyətin formalaşmasında sosial dəyərlərin rolunu araşdırarkən müasir bazar iqtisadiyyatının və ictimai həyatın bütün sahələrində qərarlaşmaqda olan bazar münasibətlərinin bu prosesə göstərdiyi təsirdən yan keçmək olmaz. Əvvəlcədən deyək ki, bu təsir çox güclü, genişmiqyaslı xarakter daşıyır və birmənalı olmayıb, müxtəlif istiqamətlidir.

Ölkəmizdə qərarlaşmış bazar iqtisadiyyatı uzun müddət ərzində hökmranlıq edən dövlət mülkiyyətinin və ictimai mülkiyyətin inhisarına son qoydu. Bu gün aparılan iqtisadi islahatlar nəticəsində xüsusi mülkiyyətin cəmiyyət həyatında rolu və çəkisi yüksəlmişdir. Ən əsası isə bazar iqtisadiyyatı cəmiyyətdə çoxlu bərabərhüquqlu mülkiyyət formalarının mövcudluğuna real şərait yaradır. Bu hal şəxsiyyətin bir mülkiyyətçi kimi çoxtərəfli inkişafına geniş imkanlar açır. Belə ki, o, özünün qabiliyyət və arzusuna uyğun mülkiyyət formasında fəaliyyət göstərə bilir. Bu mənada hazırda ölkəmizdə azad sahibkarlığın inkişafına şərait yaratmaq yolunda həyata keçirilən tədbirlər çox mühümdür. Bu cür şərait şəxsiyyətin iqtisadi müstəqilliyini və təsərrüfat təşəbbüskarlığını da yüksəldir. Digər tərəfdən, sərbəst rəqabətdə davam gətirmək tələbatı onu müasir standartlara cavab verən yüksək keyfiyyətli məhsul hazırlamağa sövq edir. Bazar iqtisadiyyatı şəxsiyyətin inkişafına həm də müəyyən qədər neqativ, pozucu təsir göstərir. Belə ki, sərt bazar qanunlarının diktəsi altında şəxsiyyət bəzən hansı yolla olursa-olsun mülkiyyətə sahib olmağa, çoxlu qazanc əldə etməyə çalışır. Bu yolda çox vaxt heç bir qanuna və əxlaq normalarına məhəl qoyulmur. Nəticədə şəxsiyyətin varlanması onun mənəvi kasadlaşması, bir çox mənəvi dəyərlərin itirilməsi ilə müşayiət olunur. Bazar qanunlarının fəaliyyəti bəzən şəxsiyyətin mənəviyyatına ikiüzlülük gətirir, onda psixi pozğunluq və nevroz vəziyyəti yaradır. Bir sözlə, bazar münasibətlərinin mövcudluğu yeni tipli şəxsiyyəti – “bazar xarakterli” insanı formalaşdırır ki, belə şəxsiyyət üçün təkcə əşyalar deyil, insanın özü də, enerjisi, biliyi, rəy və hissləri, hətta gülümsəməyi də əlverişli sövdələşmə obyektinə çevrilir [10, s. 29].

Deyilənlərdən aydın olur ki, bazar münasibətləri ilə bağlı dəyərlər şəxsiyyətin formalaşmasına mənfi istiqamətdə də təsir göstərir. Buna görə də bazar fundamentalizminə uymamaq, ölkənin həyatında, ilk növbədə isə iqtisadiyyatda dövlətin sosial tənzimləyici rolunu gücləndirmək zəruridir. Bütövlükdə şəxsiyyətin formalaşmasında dəyərlərin müsbət istiqamətdə təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və milli dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumbəşəri dəyərlərin müsbət cəhətlərini əxz etmək çox vacibdir.

## ƏDƏBİYYAT


1. Hacıyev Z.C. Fəlsəfə. Bakı: 1988, 640 s.
2. Ильин В.В. Философия, 2 том. Ростов-на-Дону: Феникс, 2006, 773 с.
3. Кант И. Критика чистого разума. Москва: Эксмо, 2007, 1110 с.
4. Фролов И.Т., Юдин Б.Г. Этика науки. Проблемы и дискуссии. М.: 1986, 314 с.
5. Славская А.Н. Личность как субъект интерпретации. М: Феникс, 2009, 314 с.
6. İmanov H.R. Fəlsəfənin əsasları. Bakı: Turan evi, 2007, 442 s.
7. Уайтхед А.Н. Избранные работы по философии. М.: 1990, 718 с.
8. Маслоу А. Самоактуализация. “Психология личности”. М.: 1982, 18-41 с.
9. Ayhan Aydın. Düşünce tarihi ve insan doğası. İstanbul: “Alfa”, 2000, 292 s.
10. Фром. Э. Адольф Гитлер: клинический случай никрофилии М: 1992, 148с.

Камран Велизаде

## К ФОРМАМ КАТЕГОРИИ ЦЕННОСТЕЙ В СОЦИАЛЬНОЙ ФИЛОСОФИИ

РЕЗЮМЕ

В настоящее время ценности играют важную роль в формировании и социализации личности. В статье в качестве философской категории описываются различные формы ценностей и структурных особенностей, раскрывается ведущая роль национальных и нравственных ценностей в жизни общества.

Kamran Valizada

## ABOUT THE FORMS OF VALUE CATEGORY IN SOCIAL PHILOSOPHY

SUMMARY

At the present times values play an important role in the formation and socialization of an individual. The article describes various forms of values and structural features as a philosophical category, reveals the leading role of national and moral values in the life of society.

# QLOBAL MƏDƏNİ İNTEQRASİYA, MULTİKULTURALİZİM VƏ MƏNƏVİ DƏYƏRLƏR

***Məsud ŞÜKÜROV,***
*AMEA-nın Fəlsəfə İnstitutunun Davamlı inkişafın fəlsəfəsi şöbəsinin böyük elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru*

***AÇAR SÖZLƏR:*** *qloballaşma, multikultural cəmiyyət, mənəvi dəyərlər, multikulturalizm, milli maraqlar.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *глобализация, мультикультуральное общество, нравстные ценности, мультикультурализм, национальные интересы.*
***KEY WORDS:*** *globalization, multicultural society, moral values, multiculturalism, national interests.*

XX əsrin sonu – XXI əsrin əvvəlləri bəşər sivilizasiyasının tarixində ciddi dəyişikliklər baş verdi. Əhalinin yerdəyişmə prosesləri, informasiya-kommunikasiya texnologiyasının inkişafı, demokratikləşmə, qloballaşma və inteqrasiya prosesləri, ölkələrin siyasi, sosial-iqtisadi, mədəni-mənəvi həyatına ciddi təsir etdi, tolerantlığı, multikulturalizmi ümumdünya hadisəsinə çevirdi. Qlobal mədəni inteqrasiya milli mədəniyyətlərin və dəyərlərin bir-birinə yaxınlaşması, xalqlar arasında mədəni əlaqələrin möhkəmlənməsi və müasir dünya sivilizasiyasının bütövlüyünün formalaşdırlmasını ifadə edir. Yeni yaranan inteqral dünya mədəniyyəti özündə müxtəlif regionların əsas dəyərlərini birləşdirir. Qlobal mədəni inteqrasiya şəraitində xalqları bir-birinə yaxınlaşdıran mədəniyyətlərin müxtəlifliyini əxz, fərqli mədəni sistemlərin bərabərliyini qəbul edən multikulturalizm və tolerantlıq kimi dəyərlər geniş yayılır. Lakin mədəni-mənəvi dəyərlərin, dünyanı dərketmə və qavrama üsullarının, ənənələr sisteminin mədəni genotiplərin unifikasiyası – vahid şəklə salınması deyildir. Hər bir etnos, xalq, dövlət qlobal mədəni məkandan öz milli xüsusiyyətlərinə, ənənələrinə, mentalitetinə, psixoloji xarakterinə uyğun olanı götürür. Qlobal mədəni inteqrasiya hədsiz beynəlmiləl imkanlar əsasında planetar sivilizasiyanın və ümumdünya sosiomədəni məkanın təşəkkülünü təmin edir.

Multikulturalizmin tarixi kökü çox qədim dövrlərə qədər uzansa da, o, siyasi konsepsiya, mənəvi dəyər kimi yaxın dövrlərdə meydana çıxmışdır. Bu mənada Qərb tədqiqatçısı David Millerin fikirləri maraq doğurur: “Multikulturalizm mütərəqqi demokratik quruluşların milli və etnik azlıqlara qarşı yürütdükləri yeni bir siyasi konsepsiyanı ifadə edir” [1, s. 100-102]. Hazırda bəzi millətlər etnomədəni plüralizmi aradan qaldırmaq, milli çoxluğun etnikliyi və mədəniyyətinin xeyrinə milli azlığın assimilyasiyasına cəhd edir. Ona görə də multikulturalizm siyasəti və ideologiyasının reallaşması zərurətə çevrilir. Məhz bu məqama toxunan Rusiya tədqiqatçısı A.İ.Kuropyatnik “Multukulturalizm: polietnik cəmiyyətin sosial stabilliyinin siyasəti və ideologiyası” mövzusunda

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

yazdığı elmlər doktorluğu dissertasiyasında qeyd edir: "...multiukulturalizm sosial və siyasi-ideoloji əhəmiyyət kəsb edir. O, millətin mahiyyətini polietnik, polimədəni təzahür olaraq milli cəmiyyətin dövlət ideologiyası kimi reallaşan, konkret milli siyasət prinsiplərinin ayrı-seçkilik olmadan qrup və fərdi seçim azadlığı, sosial razılıq, etniklərarası mədəniyyətin tolerantlıq kimi qəbul edilməsini və yeni yanaşma əsasında şərh olunmasını irəli sürür. Multikulturalizm milli çoxluqla mühacirlər, etnik qruplar və milli azlıqlar arasında qarşılıqlı münasibətlərdə meydana gələn sosial, etnomədəni, siyasi problemlərin bütün spektrini əhatə edir" [2, s. 7]. Müəllif multikulturalizmin geniş məna daşıdığını, buraya milli çoxluğun tələbləri ilə yanaşı, milli azlıqların mədəniyyətlərini qoruyub saxlamaq, inkişaf etdirmək, dövlət orqanlarında nümayəndələrinin olması və s. kimi istəklərinin də daxil olduğunu göstərir.

Miqrantlar mühacirət etdiyi ölkələrdə, ilk növbədə, milli çoxluqla bərabər hüquqlara malik olmaq istəyir, eyni zamanda əmək bazarında, təhsil müəssisələrində, sosial təminat və hüquqi müdafiə sahələrində ayrı-seçkiliyin olmamasını tələb edirlər. Belə şəraitdə həmin ölkələrdə sosial gərginliyin zəiflədilməsi və aradan qaldırılması, habelə siyasi və hüquqi sistemlərin, daxili milli siyasətlərin transformasiyasına yönəlmiş dəyərlər böyük əhəmiyyət kəsb edir. Buna görə də M.Doyçeva yazır: "...milli, etnik və dini cəhətdən rəngarəng kosmopolit cəmiyyətlər həmişə mövcud olmuşdur. Yəni multikulturalizmi sadəcə demoqrafik (milli, etnik, dini) müxtəliflik kimi başa düşmək düzgün deyildir, əksinə, o, bir növ, siyasi quruluşun bu müxtəlifliyə göstərdiyi reaksiyadan ibarətdir" [3, s. 16]. Deməli, dövlət müxtəlif dəyərlərin təzahürü kimi təqdim olunan multikulturalizmi qəbul etməklə kifayətlənmir, həm də onu qoruyub inkişaf etdirir.

Mənəvi dəyər olan multikulturalizm liberalizmə və demokratiyaya əsaslanır, mədəni müxtəlifliyi təmsil edir. Azərbaycan İlahiyyat İnstitutunun müəllimi Asəf Qənbərov bu məqama toxunaraq yazır: "Tarixi prosesdə milli dövlətlər tərəfindən mədəni müxtəlifliyə üç cür mövqe və ya siyasi proqram tətbiq edilmişdir. Bunlardan birincisi assimilyasiya siyasətidir. Burada azlığın haqları tamamilə göz ardı edilmişdir. İkinci yanaşma plüralizmdir. Klassik liberalizmin inkişaf etməsi ilə mədəni müxtəlifliyin ifadə edilməsi önündəki məhdudiyyətlər aradan qaldırılır. Amma müxtəlifliyin inkişaf etdirilməsi və ya ifadəsi vətəndaş cəmiyyətinin öhdəsinə verilir. Dövlət sadəcə olaraq özəl kimliklərin ictimai təşkilatlanmasına şərait yaradır, aktiv şəkildə müxtəlifliyi təşviq etmir. Multikulturalizm siyasətində isə yuxarıda ifadə edildiyi kimi, mədəni müxtəlifliyin varlığı və dəyəri qəbul edilməklə yanaşı, bunların siyasi təşkilatlanması təmin edilir və dövlət proqramı çərçivəsində təşviq edilir" [4]. Müəllif qeyd edir ki, müxtəlif milli cəmiyyətlərdə multikultural reallığın dərk olunması ilə bağlı yanaşmalar ayrı-ayrı tarixə, mədəni identikliyə malik insanların birgəyaşayışının təmin olunmasını, qarşılıqlı tolerantlığın ümumi, universal prinsiplərə çevrilməsini tələb edir.

Keçmiş ABŞ prezidenti Avraam Linkoln qeyd edirdi ki, "Biz yalnız bir-birimizə dözməməliyik, biz bir-birimizin qayğısına qalmalıyıq, bu prinsip bizə imkan yaradacaq ki, biz dözümlülüyün iliyimizə, başqalarının inanclarının qəbulunun isə qəlbimizə işləyəcəyi bir dünyada yaşayaq" [5, 125]. Göründüyü kimi, məşhur siyasətçi multikulturalizmin və tolerantlığın sadəcə olaraq passivliyini qəbul etmir, onun aktiv siyasətə və ideologiyaya, daxili mənəvi dəyərə çevrilməsini istəyirdi.

Azərbaycan tədqiqatçısı E.Nəsibov multikulturalizmi təkcə milli, mədəni, etnik, dini

tolerantlıq, çoxmillətliliyin yaratdığı çoxmədəniyyətliyin, milli kimliyin dərk olunması prinsipi kimi deyil, həmçinin mənəvi dəyər kimi də qiymətləndirir [6]. Müəllif göstərir ki, multikulturalizm siyasi konsepsiya və ideologiya kimi insanların beynəlmiləlləşməsini, xalqların mədəni bütövlüyünü meydana gətirir, monoton dövlətlərin və cəmiyyətlərin yaranmasının qarşısını alır. Bu gün multikulturalizm dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində mədəni plüralizm prinsipinin və cəmiyyətin təşkilinin müxtəlif səviyyələrində, təhsildən tutmuş ölkələrin siyasi quruluşunadək milli siyasət sahələrində mədəni dəyərlərin qəbul edilməsi, hərtərəfli legitimləşməsi kimi təsdiq olunur. Onun bu prinsipdən çıxış etməsi xüsusi siyasi diskurs yaratmış, postmodernist fəlsəfə, siyasət və ideologiyada, plüralist demokratiya modelində öz ifadəsini tapmışdır. Qərb cəmiyyətlərinin inteqrasiyasında multikulturalizm siyasəti və ideologiyası mühüm rol oynayır. Multikulturalizm bəzi Qərb dövlətlərinin rəsmi siyasəti və ideologiyası hesab olunur, ABŞ və Hollandiyanın mədəni siyasəti onun prinsipləri əsasında müəyyən edilir. 1998-ci ildən isə Almaniyanın mədəni siyasətinin qeyri-rəsmi məqsədi multikultural cəmiyyətin yaradılmasının qəbul edilməsidir.

Azərbaycan tədqiqatçısı A.Quliyev multikulturalizm anlayışının əlamətlərinə aşağıdakı komponentləri aid edir:

1. Çoxmədəniyyətlilik;
2. Mədəniyyətlərin müxtəlifliyi;
3. Mədəniyyətlərin birliyi;
4. Mədəniyyətlərin qovuşması;
5. Mədəniyyətlərin vəhdəti;
6. Müştərək mədəniyyət formalaşdırılması meyilləri;
7. Çoxmədəniyyətliliyə və mədəniyyətlərin müxtəlifliyinə uyğun dövlət siyasətinin formalaşdılması və gerçəkləşdirilməsi;
8. Mədəniyyət sahəsində və müxtəlif milli-mənəvi dəyərlərin qorunmasında sosial ədalətə və onun şərtlərinə əməl olunması;
9. Mədəni sərvətlərdən istifadədə humanizm prinsipinin yerinə yetirilməsi;
10. İnsanın, vətəndaşın, şəxsiyyətin hüquq və azadlıqlarına hörmətlə yanaşılması;
11. Müxtəlif dini etiqadlara, eləcə də müxtəlif məzhəblərə onların fəaliyyəti ilə bağlı şərait yaradılması;
12. Dövlətlər arasında mədəni əlaqələrin, o cümlədən mədəniyyətlərarası və dinlərarası beynəlxalq münasibətlərin genişləndirilməsi və təkmilləşdirilməsi [7, s. 20]. Müəllifin fikrincə, multikulturalizm hər bir mədəni cəmiyyətin təbiətindən irəli gələrək özündə milli və ümumbəşəri dəyərləri əks etdirir.

A.Quliyev daha sonra yazır: “Azərbaycan indiki mərhələdə multikulturalizmin ən böyük vətəni və ən etibarlı dayağıdır. Mültikulturalizmin Azərbaycan layihəsi bütün tərəqqipərvər bəşəriyyət üçün nümunəyə çevrilir və bu, yaxın gələcəkdə gerçəkləşəcəkdir. Ümumiyyətlə, ölkəmiz bir çox ənənələrinə və qazandığı zəfərlərinə görə dünya birliyi dövlətləri içərisində birinciliyi özünə təmin etmişdir. Bu cəhətdən multikulturalizm də istisnalıq təşkil etmir və ümidvarıq ki, Azərbaycanın bu istiqamətdə atdığı addımlar ardıcıl olacaqdır” [7,195-196].

Rusiyalı tədqiqatçı İ.V.Sledzevski multikulturalizmi inteqrasiya ilə dezinteqrasiya arasında zərif balans kimi səciyyələndirərək yazır: “Mədəni fərqlər sahəsində mədəniyyətlərarası ədalət, demokratik bərabərlik ideyaları və dəyərləri normativ siyasi nəzəriyyələrdə və mədəni fəlsəfədə

(mədəni fəlsəfi essensializmin (latınca "essentia" sözündən olub "mahiyyət" mənasını verir) özünəməxsus istiqamətində) böyük əhəmiyyət kəsb edir. Lakin multikulturalizmin siyasi layihə kimi (mədəni fərdlərin qəbul edilməsi siyasəti) və mədəni fərqlərin inteqrasiyasının, müxtəlif sosiomədəni qrupların dəyərliliyinin və maraqlarının sərbəst ifadəsinin qeyd olunmuş əhəmiyyətini qəbul edən polimədəni cəmiyyət və xüsusi plüralist diskurs modelləri kimi anlaşılması müasir dövlətlərin sosiomədəni vəziyyətində prinsipial olaraq yeni şəraitini izah edir. Öz mahiyyəti və mənşəyinə görə bu sistem vətəndaş cəmiyyətinin inkişafı ilə əlaqədardır və şüurda vətəndaş tipli ümumi mədəniyyətə millıliklə vətəndaşlığın vəhdətinə mənsubdur" [8, s. 124]. Müəllif multikulturalizmin çoxcəhətli dəyər kimi sosial mütəşəkkil, inteqrasiyalı struktura malik açıq, mədəni plüarizmin, fərqlərin artdığı bir fenomen kimi vətəndaş cəmiyyətinin qorunub saxlanılmasını təmin etdiyini göstərir.

Multikulturalizm vətəndaş cəmiyyətinin yalnız çərçivəsini deyil, xarakterini də dəyişdirir. Klassik mühacir ölkələrdə multikulturalizmin institutalizasiyası sürətlə liberal-demokratik diskursu multikulturalizmin bir hissəsinə çevirir və siyasi qəbul etmə, identlik siyasəti legitimlik mahiyyəti kəsb edir. Qərb ölkələrinin əksəriyyətində multikulturalizm mənəvi dəyər kimi legitimləşməsinə baxmayaraq, həmin ölkələrin kütləvi şüurlarında və siyasi diskurslarında mühacirlərə hələ də əcnəbilər kimi baxılması təsəvvürləri hakim olmaqdadır. Avropa ölkələri mühacirlərin mədəni assimilyasiyasından imtina etsələr də, onların vətəndaş cəmiyyətinə inteqrasiyası zərurətə çevrilmişdir.

Ç.Kukatos multikulturalizmlə bağlılığı olan tipik reaksiyalar arasında "təcrid olunma", "assimilyasiya", "yumşaq multikulturalizm", "möhkəm multikulturalizm", "aparteid" siyasətini göstərir [9]. Bütün bu təzahürlərdən fərqli olaraq multikulturalizm cəmiyyətin siyasi-mənəvi inkişafına müsbət təsir göstərir.

Y.Sokolov multikulturalizmi yalnız müasir milli cəmiyyətlərin mədəni plüralizminin yüksəlişinin nəzəri konseptuallaşması forması, mədəniyyətlərarası kommunikasiyalar problemi kimi deyil, "müasir sosial nəzəriyyələrin və siyasi praktikanın inkişafının mühüm istiqaməti kimi şərh edir" [10]. Müəllifin fikrincə, multikulturalizm fərdi və qrup səviyyələrində cəmiyyətin üzvlərinin sosial, siyasi, mənəvi bərabərliyinin uzlaşmasını təmin edir.

Şəxsiyyətin mənəvi prinsiplər əsasında tərbiyə olunmasında multikulturalizm ideyalarının metodoloji imkanlarına müraciət edilməsinin böyük əhəmiyyəti var. Müasir cəmiyyətlərdə etnik, mədəni, dini müxtəliflik şəraitində həmin cəmiyyətin stabilliyi mənəvi vəhdətdən və mədəniyyətlərarası ədalətin mövcudluğundan asılıdır. Multikulturalizm mədəniyyətlərarası ədalət nəzəriyyəsinin praktiki tətbiqi vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayır. Mədəniyyətlərarası ədalət nəzəriyyəsi həmin cəmiyyətin mənəvi dəyər problemləri və insanların mənəviyyat haqqında təsəvvürlərinin transformasiyasına gətirib çıxaran multikulturalizm obyektin dərk olunması ilə əlaqədardır. Ukrayna tədqiqatçısı Y.P.Annanyeva göstərir ki, müasir plüralist aləmdə multikulturalizm olmadan ən ümumi ədalət konsepsiyasını qəti olaraq formalaşdırmaq qeyri-mümkündür: "Beləliklə, müxtəlif mədəniyyətlərin nümayəndələri arasında qarşılıqlı münasibətlərdəki mövcud olan gərginlik əxlaq haqqında anlayışların daxilində əmələ gəlir, bu isə hazırkı multikultural reallıqlar şəraitində ictimai inkişafın perspektivlərini əsaslandırmağa və proqnozlaşdırmağa imkan verən yeni fəlsəfi baxışların, konsepsiyaların və layihələrin təzahürünü

və onların fəlsəfi dərk olunmasını tələb edir" [11]. Müəllif multikultural cəmiyyətlərdə əxlaqi dəyər təsəvvürlərinin fəlsəfi dərk olunmasının böyük mənəvi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırır.

Qərbin postmodernist fəlsəfəsinin görkəmli nümayəndəsi Yurgen Habermasın fikrincə, əxlaq davranış və mühakimələr səviyyəsində münaqişələrin tənzimlənməsində əsas rol oynayır, ədalət bir əxlaqi prinsip kimi multikultural birliyin bütün üzvləri tərəfindən sərbəst müzakirə olunmalıdır. Y.Habermasın qeyd etdiyi kimi, insanın daxili aləmini müdafiə edən əxlaq iki vəzifəni yerinə yetirməlidir: "Birincisi o, hər kəsin yüksək ləyaqətinin bərabərliyinə çağırır; ikincisi, qarşılıqlı etirafın daxili mahiyyətini müdafiə edir ki, bunun vasitəsilə fərdlər öz birgə identiklərini əldə edirlər" [9, s. 38]. Bununla da müəllif mənəvi dəyərlərin bu iki aspektinin ədalət və həmrəylik prinsiplərinə cavab verdiyini göstərir. Onun fikrincə, ədalət praktiki olaraq hər bir insanın bərabər maraqlarına və hüquqlarına, həmrəylik prinsipi əsasında digər insanlarla birgəyaşayış şəraitində yaşamağa çağırır.

Azərbaycanın qloballaşma üzrə görkəmli tədqiqatçısı, fəlsəfə elmlər doktoru, professor A.Şükürov qloballaşmanın multikultural dəyərlərin formalaşmasına və kütləvi şüura təsirindən bəhs edərək yazır: "Yer kürəsi əhalisinin birləşməsini və onun davranışını, idarə edilməsini özünə daxil edən qloballaşma mahiyyətinə görə adamların mənəvi aləminin dəyişməsini, kütləvi şüurun yenidən qurulmasını müəyyən edir" [5, s. 130]. Bununla da müəllif qlobal mədəni inteqraqsiyanın mənəvi dəyərlərə, multikultural mühitin yaranmasına güclü təsir etdiyini göstərir.

Ulu Öndər Heydər Əliyev qloballaşmaya dünyanın inkişafının başlıca meyli kimi baxırdı, Azərbaycanın qlobal mədəni inteqrasiyaya və multikultural dəyərlərə öz töhfəsini verdiyini xüsusi olaraq diqqətə çatdırırdı: "Azərbaycan qloballaşmanın inkişafına müsbət mənada öz töhfəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından istifadə edərək Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir" [12, s. 4]. Heydər Əliyev qloballaşma dedikdə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyə, mədəni-mənəvi dəyərlərə sirayət edən bir prosesi başa düşürdü. Böyük dahi insan "milliliklə ümumbəşəriliyin vəhdəti" ideyasını əsas götürür, qloballaşmada ortaq məxrəc prinsipini əsas tutur, "hansı millətdə hansı milli-mənəvi keyfiyyət üstündürsə, onun bütün bəşəriyyət tərəfindən qəbul olunmasını ideal qloballaşma modelinə daha çox uyğun" [13, s. 275] hesab edirdi. Ona görə də akademik R.Mehdiyev Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra əminliklə qeyd edir ki, "totalitar dövrün kütləvi şüur formasının açıq, şəffaf və demokratik cəmiyyət elementləri ilə zənginləşmiş şüur forması ilə əvəz olunmasını nəzərdə tutan ictimai transformasiya baş vermişdi" [14, s. 123]. Bu fikri "Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçirilməsinə dair" məqaləsində daha da inkişaf etdirən R.Mehdiyev yazır: "Qarşıdakı mərhələdə qlobal elm, təhsil və informasiya məkanına inteqrasiya, modernləşmə və innovasiya kursunu həyata keçirmək üçün yeni nəsil tədqiqatçıların, XXI əsrin kreativ elitasının formalaşmasına böyük zərurət yaranmışdır. Azərbaycanın milli varlığını, perspektivlərini yeni yüzillikdə məhz bu nəslin potensialı müəyyən edəcəkdir..." [15].

Qloballaşma nəticəsində bütün xalqlar və dövlətlərin yaxınlaşmasının, həmçinin ictimai həyatda baş verən proseslərin intensivliyinin artmasının, hər bir xalqın özünüdərk və özünütəsdiq istiqamətində atdığı addımların sürətlənməsinin ənənəvi dəyərlərin yenidən nəzərdən keçirilməsini tələb etdiyini qeyd edən müəllif daha sonra yazır: "Dünyada 200 dövlətin, 8 sivilizasiyanın yarışdığı inteqrasiya məkanında Azərbaycanın sosial-humanitar potensialı bütün cəmiyyət miqyasında səfərbər

edilməlidir, adekvat sosial-mədəni mühitin yaradılması yönündə tədbirlərin görülməsi ümummilli vəzifə hesab olunmalıdır... Qloballaşma dövründə Şərq və Qərb fəlsəfi fikir ənənələrinin yaxınlaşması və insanların dünyaya baxışlarının ortaq konseptual sisteminin yaradılması işində regional əlaqələrin inkişafına böyük ehtiyac var. Azərbaycan üçün bir tərəfdən Qərb məkanına inteqrasiyanın siyasi, iqtisadi və elmi-texnoloji əhəmiyyəti getdikcə artır. Digər tərəfdən, MDB məkanında, habelə türk dövlətləri arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində yeni perspektivlər açılır. Bu proseslər dünyagörüşün bəzi ümumi prinsiplərinin, vahid metodoloji sistemlərin formalaşmasını və elmi-fəlsəfi araşdırmaları da əhatə edir...” [15]. Müəllif haqlı olaraq diqqətə çatdırır ki, qlobal inteqrasiya, dünyada mövcud olan problemlər ənənəvi birgəyaşayış prinsiplərini və qaydalarını formalaşdıran universal fəlsəfi kateqoriyaların bir daha nəzərdən keçirilməsini tələb edir. Bu isə bəşəriyyətin artıq yeni bir eraya qədəm qoyduğunu, bu eranın qarşıdakı bir neçə onillikdə bizim inkişaf strategiyamızı müəyyən edəcəyini göstərir.

Beləliklə, qlobal mədəni inteqrasiya şəraitində multikultural cəmiyyətdə tolerantlıq mühüm liberal dəyər kimi çıxış edir. Şübhəsiz ki, tolerantlığın hüdudları mənəvi dəyərlər çərçivəsində ədalət konsepsiyası ilə müəyyən olunur. Hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişaf etdiyi ölkələrdə demokratiya, insanın hüquq və azadlıqlarına hörmət, söz azadlığı, şəxsi həyata müdaxilə etməmək kimi mənəvi dəyərlər cəmiyyətin bütün üzvlərini birləşdirir. Multikultural şəraitin sosial ədalətin və yüksək mənəviyyatın bərqərar olduğu müasir Azərbaycanda dinlərin xalqların, mədəniyyətlərin, etnosların müxtəlifliyi, onlara tolerant münasibət hökm sürür.

## ƏDƏBİYYAT


1. David Miller. Politikal Philosopiy: A.Veru Sharl İnteredistion.New York: Okvord Unversitu Press. 2003, 210 p.
2. Куропятник А.И. Мультукультурализм: Идеология и политика социальной стабильности полиэтнических обществ. Диссертация доктора социологических наук. Санкт Петербург, 2000, 332 с.
3. Doytcheva M. Çokkültürlülük (tərcümə edəni Tuba Akincilar Onmus). İstanbul: İletisim Xay, 2013, 270 s.
4. Qəribov A. Multikulturailizm: birgəyaşayışın müasir konsepsiyası //https: //sunna.az./index.phn./component/k21/iden/4183-multikulturailizm-birgəyaşayışın- müasir- konsepsiyası.html.
5. Şükürov A. Qloballaşma: mahiyyəti və problemləri. Bakı: Adiloğlu, 2001, 170 s.
6. Nəsibov E. Multikulturalizm nədir və onun ölkə üçün nə əhəmiyyəti var?// http://strateq.az/arashdirma/26098/alim-baxisi-multikulturalizm-n%C9%99dir-v%C9%99-onun-olk%C9%99-ucun-n%C9%99-%C9%99h%C9%99miyy%C9%99ti-var.html
7. Quliyev A. Azərbaycanda multikulturalizmin tarixi- ənənəvi köklərinin siyasi-hüquqi aspektləri. Bakı: Xəzər Unversiteti nəşriyyatı, 2016, 200 s.
8. Следзевский И.В. Мультукультурализм: крупкий баланс между интеграцией и дезинтеграцией //Общественные науки и современность, 2013, №2 с.123-137
9. Хабермас Ю. Философский дискурс о модерне. Москва: АСТ, 2003, 210 с.
10. Соколов А. Мультукультурализм и мультукультурная политика в контексте теории политического порядка.//Evropiskü Politiskü a pravni diskurz L, 2014a, № 1, c.60-66./ https://www errol.13. cz /wp. Content/prlond/2014/2014-1-1-108/pdf
11. Аннаньева Е.П. Мультукультурализм и мораль в глобилизированном общуственном пространстве //https:/caberleninka.ru/article /v/multikulturailzm и pooral
12. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2007, 280 s.
13. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı: AUN. 2001, 358 s.
14. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: XXI –Yeni Nəşrlər Evi, 2005, 464 s.
15. Mehdiyev R. Qlobal inteqrasiya və Azərbaycanda fəlsəfi fikrin yenidən nəzərdən keçrilməsinə dair//jttps: rudocy. ekdat-com./docs/.ideks.18/652.html.page 5

Масуд Шукюров

## ГЛОБАЛЬНАЯ КУЛЬТУРНАЯ ИНТЕГРАЦИЯ, МУЛЬТИКУЛЬТУРАЛИЗМ И НРАВСТНЫЕ ЦЕННОСТИ

РЕЗЮМЕ

В статье с социально-философского аспекта рассматриваются взаимоотношения глобальной социокультурной интеграции, мультикультурализма и нравственных ценностей в многокультурном обществе. Выяснилось, что возникшие на западе глобализация и мультикультурализм - это процессы, которые тесно связаны со многими ценностями - политической, моральной, межкультурной справедливостью, патриотизмом, национальными интересами и общественными идеалами. Несомненно, здесь ключевую роль играет взаимное влияние толерантности и либеральных ценностей. Автор отмечает, что сегодня в контексте глобальной культурной интеграции объединены в модели мультикультурализма Азербайджана и политической линии государства политические и духовные ценности составляют единство.

Masud Shukurov

## GLOBAL CULTURAL INTEGRATION, MULTICULTURALISM AND MORAL VALUES

SUMMARY

The article considers global socio-cultural integration, multiculturalism and the relationship of values and morals in a multicultural society from the socio-philosophical aspect. It became clear that globalization and multiculturalism that have emerged in the West are processes that are closely connected with many values - political, moral, intercultural justice, patriotism, national interests and social ideals. Undoubtedly, the key role here is played by the mutual influence of tolerance and liberal values. The author notes that today, in the context of global cultural integration, the political and spiritual values constitute unity in the models of Azerbaijani multiculturalism and the state's political line.

# SİYASİ ELİTANIN FORMALAŞMASI VƏ DEMOKRATİK PRİNSİPLƏR DÜNYA TƏCRÜBƏSİ KONTEKSTİNDƏ

**_Şahin BAĞIROV,_**
*AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Shahin_bagirov17@mail.ru*

***AÇAR SÖZLƏR:*** *elita, cəmiyyət, siyasi proses, elitizm, siyasi partiya, hakimiyyət, demokratiya.*
***КЛЮЧЕВЫЕ СЛОВА****: элита, общество, политический процесс, элитизм, политическая партия, власть, демократия.*
***KEY WORDS:*** *elite, society, political process, elitism, political party, power, democracy.*

Fransız siyasi xadim Aleksis de Tokvil hələ 1831-ci ildə yazırdı ki, yerli hakimiyyət orqanları Amerika demokratiyasının özəyini təşkil edir. Həmin sistemlərdə "hər qəsəbə, bir növ, işlərini müstəqil idarə etməyə öyrəşmiş respublikasını təmsil edir" [1, s. 215]. Bu nəticə bugünkü gün üçün ədalətlidirmi? Görəsən, ABŞ-ın, o cümlədən digər ölkələrin şəhər və qəsəbələri bunun üçün lazım olan səlahiyyətlərə, vasitələrə, hər şeydən əvvəl, yaranan problemləri müvəffəqiyyətlə həll etmək bacarığı olan siyasətçilərə və idarəçilərə malikdir? Politoloqlar və sosioloqlar öz dünyagörüşlərində hələ ki yalnız hansısa ölçüdə bu məsələlərə cavab verən bəzi tədqiqatlarla tanışdırlar. Belə tədqiqatlardan biri 1966-cı ildə dörd ölkənin (ABŞ, Hindistan, Polşa, Yuqoslaviya) 30 şəhərində aparılmışdır. Şəhərlərin hər birində sosioloqlar tərəfindən hakimiyyəti təmsil etmiş 30 insan sorğuya cəlb olunmuşdu. 1983-cü ildə həmin şəhərlərdə yenidən, əlavə olaraq isə İsveçin 20 icmasında sorğular keçirilmişdir.

Şəhər hakimiyyətinin strukturlarına həsr edilmiş işləri iki əsas kateqoriyaya ayırmaq olar. Birinci kateqoriyaya, əsasən, ötən əsrin 60-cı illərində yerinə yetirilmiş işlər daxil idi. Buraya R.Dalın Nyu-Heyvendə (1961-ci ildə), F.Hanterin (1953-cü ildə) isə Atlantda keçirdiyi, şəhərlərdə real hakimiyyətin, əsasən, iş dünyasının nümayəndələrinin də elitaya aid olduğunu iddia edən politoloqlarla plüralist elita nəzəriyyəsinin tərəfdarları arasında polemikaları canlandırmış tədqiqatlar daxildir. İşlərin başqa qrupuna 1966-1967-ci ildə X.Eylau və onun həmkarları tərəfindən keçirilmiş, San-Fransiskoya yaxın olan 87 şəhərin bələdiyyə şuralarının müqayisəli tədqiqatı aiddir. Həmin tədqiqatlardan alınan məlumatların ümumiləşdirilməsi növbəti nəticələri əldə etməyə imkan yaradır. Birinci nəticə odur ki, elitaların tərkibinə öz-özlüyündə təhsilinin səviyyəsi ilə seçilənlər və yuxarı-orta gəlirli imtiyazlı peşəkar qruplara aid olanlar daxildirlər. Yuxarıda adı çəkilən ölkələrarası tədqiqatda ortaya çıxan nəticəyə əsasən, şəhərlərdə elita üzvlərinin 90%-ni hüquqşünaslar, menecerlər, biznesmenlər, müəllimlər, 1%-ni isə şəhərin keçmişdə fəhlə olan rəhbər işçiləri təşkil etmişdir.

Şəhərlərin yerli idarəetmə orqanlarında çalışanların 6%-i milli və irqi azlıqların nümayəndələri, 12%-i isə qadınlar olmuşdur. Bu sahədə ABŞ-dakı vəziyyət başqa ölkələrdəkindən çox az fərqlənir. Məsələn, İsveçdə və Norveçdə fəhlələr şəhər şurasının üzvlərinin 15%-ni təşkil edirdilər [2, s. 30]. Mövcud tip elitaların təkrar istehsalı tendensiyası və onların tərkibinin tədricən yenilənməsi narahatlıq doğurur. Eyni zamanda, orta təbəqəni təşkil edənlər olduqca müxtəlif sosial-siyasi təmayüllü insanlardır. Onlar müxtəlif peşə və etnik mənsubiyyətin daşıyıcılarıdırlar. Nəzərə almaq lazımdır ki, hazırda elita üzvlərinin çoxu məşğuliyyət növü, təhsili və gəlirinin səviyyəsinə görə orta sinfə aiddir və fəhlə ailələrində doğulublar. Belə şəxslərin sayı 1966-cı ildə şəhər administrasiyası üzvləri arasından sorğuya cəlb edilmişlərin 28%-ni, 1984-cü ildə 24%-ni təşkil edirdi. Əlbəttə bu, elitaların qapalı xarakteri haqqında danışmağa əsas vermir. Lakin şəhər idarəçiliyində aparıcı mövqelərin imtiyazlı sosial təbəqə nümayəndələrinə aid olması fikrini də birmənalı olaraq inkar edir [2, s. 31].

İkinci nəticə isə şəhər idarəçiliyi məsələlərində elita üzvləri arasında mövcud razılıq dərəcəsinə aid olunur. Qeyd edək ki, şəhərlərin əksəriyyətində belə uzlaşma yox idi. Hətta şəhərlərdə sosial-siyasi prioritetlərin müəyyən edilməsi, eyni zamanda hakim elitada işsizlik, yaşayış yerlərinin tikintisi, ətraf mühitin müdafiəsi və s. kimi müəyyən problemlərin effektiv həlli üçün potensial imkanlara malik olmaları ilə bağlı fikir ayrılıqları mövcud idi və hazırda da mövcuddur.

Hətta həlli çətin olan problemləri istisna etsək, şəhər hakimiyyətinin həlli kifayət qədər müvəffəqiyyətlə reallaşa biləcəyi nəzərdə tutulan sahələrdə yalnız 38% hallarda konstruktiv addımlara bel bağlanılırdı. Bu məlumatlar ABŞ şəhərlərində hakimiyyət böhranı üzrə idarə olunmazlıq haqqında məsələyə yenidən baxılmasına imkan verir. Açıq-aydın görünür ki, şəhər idarəçiliyinin çətinlikləri lazımi vasitələrin və səlahiyyətlərin yoxluğu ilə bağlı deyildir.

Mürəkkəb problemlərin öhdəsindən gəlmək imkanına dair bir qədər əminlik İsveç şəhərlərində həyata keçirilən idarəçilikdə müşahidə olunur. Lakin burada sorğuya cəlb edilmiş liderlərdən yalnız 15%-i güman edirdi ki, onların təşəbbüsü ilə atılmış addımlar arzu olunan effekti vermişdir [3, s. 32].

Sorğunun gedişatında şəhər idarə və şura üzvlərinə qeyd olunan məsələlər üzrə qərarların qəbul olunmasına təsir göstərdikləri ilə bağlı suallar ünvanlanmışdır. Bu suallar əsnasında alınmış məlumatlar müəyyən dərəcədə R.Dalın çıxardığı nəticəni təsdiq etməyə imkan verir: şəhərlərin siyasi idarəçiliyinin əsas məsələlərində həlledici çəkiyə bir neçə lider qrupunun səsləri malikdir. Həmçinin şəhər soveti üzvlərinin əksəriyyətinin problemlərə təsir göstərmək imkanlarına malik olduğu hesab edilir.

Şəhər idarəsi orqanlarının lider üzvləri məsləhət, kömək, tövsiyələrə görə müraciət etdikləri şəxslərin – “dəstək qrupları”nın təyini tədqiqatın vacib elementlərindən biri idi. Toplanmış məlumatlar göstərir ki, hər bir şəhərdə hakimiyyət praktik olaraq, ilk növbədə, iş dünyasının aparıcı nümayəndələrinin və biznes təşkilatlarının dəstəyinə teləsirlər [1, s.133]. Eyni zamanda, şəhər liderləri başqa maraq qruplarına müraciət edirdilər. Bəziləri vətəndaş təşəbbüsləri qrupları ilə daimi əlaqələri dəstəkləyir, başqaları isə irqi, yaxud milli icmalara yönəlir, üçüncülər isə həmkarlar ittifaqlarına və ya partiyanın yerli bölmələrinə müraciət edirlər. Şəhər idarəsinin 50% üzvü öz şəhərinin aparıcı din xadimləri ilə daim görüşürdülər [1, s. 134]. Bu cür seçmə prosedurların nəticəsi

o oldu ki, şəhər hakimiyyətinin başqa vətəndaşların səslərinə nisbətən müəyyən maraq qruplarının səslərinə daha çox əhəmiyyət verdiyi ortaya çıxdı. Sorğuya cəlb edilmiş liderlərin yarıdan çoxu (60%) seçicilərin fikrini izləməyi vacib hesab etmirdilər. Onlar düşünürdülər ki, siyasətçi, ilk növbədə, şəxsi inam və vicdanının səsini rəhbər tutmalıdır. Buna görə də yerli cəmiyyətlərdə təmsil olunan elitaların tərkibinə daxil olan siyasi xadimlərin baxışlarının öyrənilməsi xüsusi maraq kəsb edir. Məsələn, vaxtilə aparılan sorğuların nəticəsi göstərdi ki, ABŞ-da elita üzvlərinin əksəriyyəti (1966-cı ildə 63% və 1984-cü ildə 75%) əhalinin müxtəlif maraq qruplarının fərqini, siyasi partiyaların və liderlərin rəqabət ideyasını qəbul edirlər, münaqişəni demokratik siyasi sistemin fəaliyyətinin zəruri şərti kimi pozitiv amil sayırlar. Hindistanda isə liderlərin böyük əksəriyyəti siyasətdə "qrup maraqları"na qarşı çıxaraq konsensusun saxlanılmasında təkid edirdilər. ABŞ-da yerli elita nümayəndələrinin 78%-i vətəndaşların siyasi həyatda, həmçinin qərarların qəbul olunması proseslərində iştirakı ideyasını dəstəkləyirdilər. İsveçdə də elitanın sorğuya cəlb edilmiş üzvlərinin 82%-i eyni fikrə tərəfdardırlar.

Bunun əksinə olaraq Hindistanda liderlərin yalnız 37%-i sıravi vətəndaşların siyasi fəallığını zəruri hesab edirlər. Polşa və bir sıra Balkan ölkələrində isə siyasətçilərin səsləri, bu məsələyə münasibətdə, təqribən bərabər bölünür [4, s.75]. Hindistanda sorğuya cəlb edilən liderlərin 85%-i cəmiyyətdə ən böyük iqtisadi bərabərliyə nail olunması ideyasını dəstəkləyirlər. İsveçdə, həmçinin elita üzvlərinin 61%-i ölkədə kasıb və ehtiyacı olanlara dövlət köməyinin artırılmasının zəruriliyi, proqressiv vergi qoyma və əmək haqqının səviyyəsinin tədricən bərabərləşdirilməsi və s. ilə razılaşırlar. ABŞ-da da belə oxşar fikirləri, bir qayda olaraq, şəhərlərdə siyasətçilərin az hissəsi bölüşür: 1966-cı ildə - 24%, 1984-cü ildə - 37% [5, s.83]. Başqa ölkələrdə isə liderlər öz cəmiyyətlərində hər hansı dəyişiklikləri və ya yenilikləri dəstəkləməyə daha az meyillidirlər. Beləliklə, ABŞ şəhərlərinin siyasi liderləri azadlığın və demokratiyanın dəyərinə inanır, siyasi münaqişə ideyasını və vətəndaşların siyasi iştirak hüququnu dəstəkləyirdilər. Onlar populist olsalar da, sosial və iqtisadi bərabərlik ideyalarını bölüşmürdülər. ABŞ-ın müxtəlif regionlarında elitaların siyasi və iqtisadi oriyentasiyalarında olduqca əhəmiyyətli fərqlər müşahidə olunurdu ki, bu da elitaların xarakteristikası ilə deyil, əksinə, yerli iqtisadi, sosial, demoqrafik şərtlərin ölkədə müxtəlifliyi və bir çox submədəniyyətin mövcudluğu ilə izah olunur.

Klassik demokratiya və elita nəzəriyyəsinin nəticələrinin düzgünlüyünün qiymətləndirilməsi baxımından siyasi hakimiyyəti formalaşdıran elitaların müqayisəli tədqiqatları böyük maraq kəsb edir. Belə tədqiqatlardan biri 1969-cu ilə Miçiqandan olan politoloqlar qrupu tərəfindən 7 ölkə – Böyük Britaniya, İsveç, Niderland, AFR, Fransa, İtaliya və ABŞ-ın dövlət aparatlarının ən yüksək qulluqçuları və parlamentlərin üzvləri arasında keçirilmişdi. Həmin tədqiqat 1500 insanı əhatə edirdi.

Qadınlar elita üzvlərinin 7%-ni, parlament üzvlərinin 80%-ni, ali təhsilli qulluqçuların 96%-ni təşkil edirdilər (ölkələr üzrə müqayisədə orta hesabla 8%) [6, s. 89]. Onların içərisində fəhlə ailələrindən gələnlərin sayı daha az idi. Belə ki, qulluqçuların 7%-i, qanunvericilərin 20%-i, eyni zamanda sorğuya cəlb edilmişlərin 60%-i keçmişdə və ya hazırda müxtəlif siyasi postları tutanların qohumları idilər. Milli səviyyəli elitaya şəhər elitalarından hərəkət axını ilə ali təhsilli şəxslərin sayının artması zamanı "nisbətsizliyin inkişaf qanunu" və ya bütövlükdə "əhali ilə siyasi liderlər

arasında distansiyanın artması qanunu" "qüvvəyə minirdi". Sorğu zamanı ortaya çıxmışdı ki, öz sosial mənşəyini - fəhlə ailəsi olduğunu göstərmiş liderlər, əsasən, "sol" partiyalarda aktiv fəaliyyət göstərdikdən sonra elitanın üzvü olubmuşlar. Amma müşahidə edilən bu göstəricilər Nümayəndələr Palatasının üzvləri olan demokrat deputatlar arasında sosial mənşəyinə görə fəhlə sinfindən olan aşağı təbəqədən gəlmələr 14%, onların həmkarları respublikaçılar arasında isə 25% təşkil etdiyi ABŞ-a aid deyil.

Qeyd edək ki, 7 ölkədə elita üzvləri formalaşma tipinə görə kəskin fərqlənirdilər. Belə ki, Böyük Britaniyada yüksək vəzifə tutan qulluqçuların 40%-i, Almaniyada 2%-i, ABŞ-da 6%-i humanitar təhsil almışdılar. Hüquqşünasları nəzərə almasaq, Niderlandda humanitar elmlər sahəsində təhsil alanlardan elitada heç bir nümayəndə yox idi. İngiltərədə yüksək vəzifə tutan qulluqçuların arasında hüquq təhsilinə malik olanlar praktik olaraq yox dərəcəsində idi. Halbuki Almaniyada hüquq fakültələrinin məzunları bu kateqoriya qulluqçular arasında 66%, İtaliyada 54%, Niderlandda 89%, ABŞ-da 20% təşkil edirdilər. ABŞ-ın Nümayəndələr Palatasının qanunvericiləri arasında hüquqşünaslar 51%, İngiltərədə parlament üzvləri arasında isə 21% təşkil edirdilər. Sosiallaşma prosesində bu fərqlər elita üzvlərinin baxışlarında və onların fəaliyyət metodlarında əhəmiyyətli xüsusiyyətləri şərtləndirə bilər. Ali səviyyəli dövlət qulluqçuları və qanunverici qurumların üzvləri siyasi prosesdə öz rollarına görə müxtəlif siyasi institutların yeri və rolu haqqında ümumi təsəvvürləri bölüşürlər. Yəni, onlar arasında siyasi həyatın problemləri üzrə əhəmiyyətli fikir ayrılıqları aşkara çıxarılmışdır. Məsələn, dövlət aparatı qulluqçuları arasında iqtisadiyyata dövlət müdaxiləsinin genişlənilməsini 27% dəstəkləyirsə, parlament üzvləri arasında isə bu fikri dəstəkləyənlər sorğuya cəlb edilmişlərin 54%-ni təşkil edir [7, s. 56].

Həmçinin milli elitaların hər iki qrupunun ideoloji oriyentasiyalarında fərqləri göstərən məlumatlar da mövcuddur. Ancaq nəzərə almaq lazımdır ki, 7 ölkə üzrə orta rəqəmlər onlardan hər birinin xüsusiyyətləri haqqında tam təsəvvür vermir. Eyni zamanda, ölkələr üzrə elita üzvlərinin bu və ya digər problemlərə münasibətində əhəmiyyətli fərqlər də çoxdur. Belə ki, elita üzvlərinin 23%-i hesab edir ki, ictimai mülkiyyət payı artırılmalı və ya tam milliləşdirilmə həyata keçirilməlidir. Ancaq Hollandiyada belə fikirləşənlərin sayı parlament üzvləri arasında 68% idisə, AFR və Fransada yalnız 13% təşkil edirdi [7, s. 56].

Tədqiqatın növbəti bəndi elita üzvlərinin kimlərlə daimi əlaqələri dəstəkləmələri və cəmiyyətdə hansı qruplarla qarşılıqlı təsirdə olduqları məsələsinə aid idi. Burada, həmçinin ölkələr üzrə alimənsəb dövlət qulluqçuları arasında əlaqələrin müntəzəmlik dərəcəsi və qanunverici orqan üzvlərinin bir-biri ilə nəzərəçarpan fərqləri müşahidə olunur. Əgər ABŞ-da və AFR-də dövlət aparatının qulluqçularının 2/3-dən, 3/4-nə qədər parlament üzvləri ilə daimi əlaqələri dəstəkləyirdisə, Niderlandda yalnız 16% və Böyük Britaniyada isə 5% qulluqçu qanunverici orqan üzvləri ilə daim təmas qurduqlarını bildirirdilər [1, s.57]. Elita üzvlərinin vətəndaşlarla əlaqələrinə gəlincə, bu və ya digər sahədə, 7 ölkə üçün ənənəvi olan, qanunvericilərin öz seçiciləri ilə müntəzəm görüşmələri istisna olmaqla qarşılıqlı təsirin tipləri müxtəlif idi. ABŞ-da qulluqçuların 93%-i maraq qruplarının nümayəndələri ilə, 68%-i isə ictimaiyyətlə daim görüşürlər.

Nəhayət, demokratik dəyərlərə elita üzvlərinin münasibətinin üzə çıxarılması tədqiqatın son vacib anı idi. "Elitalar demokratiyanın müdafiəçisidir" fikri haqqında təsəvvür doğrudurmu? Elita

üzvlərinin ümumilikdə 90%-i siyasi prosesə bərabər təsir göstərmək imkanının bütün vətəndaşlara verilmə ehtiyacı haqqında təsəvvürün zəruriliyi iddiasıyla razılaşmışlar. Bu məsələ ilə bağlı sual konkretləşdirilərkən siyasi bərabərlik prinsiplərinin dəstəklənməsi barədə rəylər əhəmiyyətli dərəcədə azalmışdır. Alimənsəb qulluqçuların 40%-ə qədəri və qanunvericilərin isə 60%-dən çox olmayan vətəndaşların seçkilərdə iştirakçılıq çərçivəsindən kənara çıxan siyasi fəallığını dəstəklədikləri haqqında fikirlərini bildirmişlər [7, s. 59]. Siyasi müxalifət ideyasına münasibət də eynilə aşağı olmuşdur.

Müxtəlif fikirlərə özlərinin dözümlü yanaşması haqqında yüksək səviyyəli qulluqçuların 75%-i, parlament üzvlərinin isə 66%-i rəylərini bildirmişlər. Lakin sorğuya cəlb edilmişlərin yarıdan daha azı siyasi münaqişəni (yəni, demokratik çəkişməni) pozitiv amil hesab edirdilər.

Hələ kiçik azarkeşlik belə partiyanın daxilində münaqişələrin mövcud olmasına rəvac verir. Beləliklə, bir çox liderlər demokratik siyasi normalara sadiq deyildilər. Ancaq bu nəticə milli fərqlərin, siyasi mədəniyyət xüsusiyyətlərini, ölkələrin hər birində elitaların sosializasiya proseslərini, elita üzvlərinin təhsilinin xarakterini və karyerasının tipini nəzərə alınmasını tələb edir. Əgər bütövlükdə müasir demokratik cəmiyyətlərdə elitalar haqqında politoloqlar və sosioloqlar tərəfindən əldə edilmiş məlumatları qiymətləndirsək, görərik ki, onlar elitanın klassik nəzəriyyəsində təklif edilən modelə uyğun deyillər [8, s. 34]. Ancaq demokratiyanın klassik nəzəriyyəsi müasir siyasətin reallıqlarını izah etmir. Belə “Demokratik elitizm” adlandırılan revizionist modellər bir çox politoloq tərəfindən müasir cəmiyyətdə siyasi proseslərin xüsusiyyətlərini nəzərə almağa imkan verən hansısa orta variant kimi nəzərdən keçirilirdi. Lakin bu tədqiqatların nəticələri belə yanaşmaları təsdiq etmədi. Əgər elitizmin mahiyyətini siyasi hakimiyyətin imtiyazlı sosial təbəqələrə aidliyinin mövcudluğu kimi qəbul etsək, onda bu asılılıq tamamilə aşkar görünür. Əgər elitanın ən əhəmiyyətli əlaməti kimi onun mütəşəkilliyini, daxili təşkilinin mövcudluğunu nəzərdən keçirsək, çətin ki, bu təsəvvür gerçəkliyə cavab versin. Əgər elitizmin vahidliyi baxışların, dəyərlərin, hakimiyyətin ən yüksək eşelonlarının nümayəndələrinin oriyentasiyalarının mövcudluğunda meydana çıxırsa, onda hər ölkə haqqında konkret danışmaq lazımdır. Nəhayət, əgər elitanın mövcudluğunun meyarı demokratik normaların inkarında meydana gəlirsə, onda bu iddia üzrə ölkələr arasında fərqlərin nəzərə alınmasını tələb edir. Demokratik elitizmin bəzi nəzəriyyələri siyasi elitaların işlək modellərini təsəvvür etməyə imkan verir, amma hər ölkənin özünəməxsusluqları və prosesləri olduqca mürəkkəbdir ki, bu da, öz növbəsində, hər hansı ümumi nəticələri əldə etməyə imkan vermir.

Beləliklə, sonrakı tədqiqatlarda, yeni elitanın transformasiyası araşdırılarkən tarixi şəraiti (şərtləri), ölkələrin mədəniyyətlərinin xüsusiyyətlərini və hər ölkədə cərəyan edən sosial proseslər nəzərə alınmalıdır. Bu əsasda əxlaqi dəyərlərin, baxışların və siyasi elitaların qruplaşmalarının daha yaxşı anlaşılması istiqamətində araşdırma aparılması zəruri şərtlərdən hesab olunmalıdır.

## ƏDƏBİYYAT


1. American voting behaviour /. By Burdick E., Brodbeck A.J. Bums a. McEachem: Free vice, 1959. 475 ps. Bibliog.: P.470-475.
2. Baskin D. American pluralist democracy: Criticism.. N.Y. E.a.: Van Nostrand Rein mhold co., 1971.New perspective in the political science. 29) . VIII, 184 ps.
3. Pluralizm and protest / author Baskin D. Cupertino (Cal.): Freel, 1973. X 316
4. Pluralizm and protest / author Baskin D. Cupertino (Cal.): Freel, 1973. X 316 ps.
5. Haşımov D. Hərbi politologiyanın problemləri. Bakı, Azərnəşr, 2003, 146 s.
6. Eldersveld S.J. American interest grup: Some thoughts for investigation investigations and teory and methods // interest groups of the four continents / author Ehrmann W. Pittsburgh, 1958. P.173-196.
7. Барзилов С.И., Чернышев А.Г. Политическая структура современной российская политика, как факторы формирования элиты (Отечественный и зарубежный опыт». Ростов-на-Дону: Изд-во СКАГС, 2007. 211 с.
8. Haşımov D. Hərbi politologiyanın problemləri. Bakı, Azərnəşr, 2003, 146 s.

Шахин Багиров

## ФОРМИРОВАНИЕ ПОЛИТИЧЕСКОЙ ЭЛИТЫ И ДЕМОКРАТИЧЕСКИЕ ПРИНЦИПЫ В МИРОВОЙ ПРАКТИКЕ

РЕЗЮМЕ

Статья посвящена процессу трансформации политической элиты в демократических обществах. Проведенные опросы, теоретические знания, мнения и суждения известных специалистов привлечены к исследованию передового опыта в ведущих государствах мира.

Shahin Baghirov

## FORMATION OF POLITICAL ELITE AND DEMOCRATIC PRINCIPLES IN INTERNATIONAL PRACTICE

SUMMARY

The article is devoted to the process of transformation of the political elite in democratic societies. Surveys, theoretical knowledge, opinions and judgments of well-known experts are involved in the study of best practices in the leading countries of the world.

# DİN SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ YARANAN RİSKLƏR VƏ MAARİFLƏNDİRMƏNİN ƏHƏMİYYƏTİ

***Güney NAMAZOVA,***
*DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin baş məsləhətçisi,*
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müdavimi*

***AÇAR SÖZLƏR:*** *din siyasəti, risklərin idarə olunması, maarifləndirmə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *религиозная политика, управление рисками, просветительская работа.*
***KEY WORDS:*** *religious policy, risk management, awareness-raising work.*

**Giriş**

Din müasir dövrdə çox əhəmiyyətli, eyni zamanda mürəkkəb fenomenlərdən biridir. Dinlərin qarşılıqlı əlaqəsi, həmçinin onların dövlət və cəmiyyətlə qarşılıqlı təsiri ölkələrin və regionların daxili və xarici siyasətinin sosial-siyasi kontekstini müəyyənləşdirir, o cümlədən dünya siyasətinin xarakter və məzmununa əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla belə, dinin müasir dünyadakı rolu və əhəmiyyəti mübahisəli olaraq qalmaqdadır. Son 20 ilə yaxındır ki, din aktiv şəkildə aqressiv xüsusiyyətlərə sahib fenomen kimi təqdim edilərək siyasi proseslərə cəlb olunur. Qloballaşmanın təsiri ilə sekulyarlaşma ictimai, dövlət və beynəlxalq həyatın bütün sahələrindən dinin pozitiv məzmununu sıxışdırıb çıxarır. Bununla yanaşı, müxtəlif səviyyədəki siyasətçilər dinə hörmətlə yanaşdıqlarını formal olaraq dilə gətirməkdən yorulmurlar, getdikcə dinlərarası forumların sayı çoxalır, dinin iştirakı ilə sülhməramlı təşəbbüslərin də sayında artım müşahidə olunur.

Müasir cəmiyyət həyatında dini-mənəvi sahədə risklərin idarə olunması ictimai-siyasi idarəetmənin digər sahələrində yarana biləcək risklərin idarə olunmasından əsaslı surətdə fərqlənir. Bunun əsas səbəblərini aşağıdakı kimi sıralaya bilərik:

- dinin ictimai-siyasi həyatın digər sahələrindən keyfiyyət baxımından fərqi;
- müasir geosiyasətdə dinin əhəmiyyətinin artması;
- dinin cəmiyyətin mənəviyyatı və əxlaqı ilə sıx əlaqəsi (bu onu mənəvi cəhətdən dolğun dünyagörüşünə çevirir);
- etnik, vətəndaş və dövlət identikliyinin müəyyən olunması proseslərində dinin lider mövqeyə doğru irəliləməsi.

Konfessiyalararası münasibətlərdə risklərin idarə olunmasının spesifik xüsusiyyəti həm də dini dəyərlərin xarakteri ilə əlaqəlidir. Belə ki, onlar şəxsiyyətin daxilində dərindən kök salıblar. Tarix də sübut edir ki, inanclı insan öz inancından ən sonda - artıq bütün digər dəyərlərini əldən verdikdən sonra imtina edir. Üstəlik, din saxtakarlığa qarşı çox həssas sahədir, onu idarə edə bilmək üçün

dərin biliklər, peşəkarlıq və dürüstlük tələb olunur. Bu sahənin idarə olunması metod və üsulları da əhəmiyyətli dərəcədə fərqlənir.

## Siyasət-din münasibəti

Dinlə siyasətin qarşılıqlı əlaqəsi qədim zamanlara gedib çıxır. Bu əlaqə hələ antik dövrlərdə formalaşmağa başlamışdı. Həmin dövrdə din ictimai və hər kəs tərəfindən qəbul edilən ideologiya idi. Onun cəmiyyətdəki rolu o qədər böyük və əhəmiyyətli idi ki, siyasət məfhumu ortaya çıxdığı ilk dövrlərdən etibarən onu öz məqsədləri üçün, ilk növbədə də, öz səlahiyyətlərini, gücünü və insanlar üzərindəki hökmranlığını artırmaq üçün istifadə etməyə çalışmışdır.

Ancaq etiraf etmək lazımdır ki, din də öz növbəsində, siyasətin köməyilə, xüsusilə mədəni, tərbiyəvi baxımdan cəmiyyətdə müsbət funksiyalar yerinə yetirmişdir. Bu baxımdan amerikalı sosioloq-nəzəriyyəçi T.Parsonsun "din cəmiyyətdə normativ dəyərlərin nizam-intizamını təmin edir" fikri ilə razılaşmamaq qeyri-mümkündür.

Din ideologiyanın bir növü kimi həm din xadimləri, həm də siyasətçilər tərəfindən həmişə kütlələrin təsir altına alınmasına xidmət göstərmişdir. Belə ki, din insanın hərəkətlərinə yön verən şüur üzərində hakimiyyət əldə etməyə və onu möhkəmləndirməyə siyasətə kömək etmişdir. O, "təcrübə və təsəvvürlər sistemi aşılayaraq dünyanın quruluşunun dərk və qəbul edilməsinə dair bu və ya digər prinsiplərin təsdiq olunmasına" təkan vermiş, bununla da hakimiyyətin qanuniləşməsinə şərait yaratmışdır.

Bununla belə, dinlə siyasət arasındakı münasibət göründüyü qədər sadə deyil. İstər dünyəvi, istər dini hakimiyyət bir-birindən asılı olduğunu dərk etsələr də, tarixən həmişə biri o birini özünə tabe etməyə çalışmışdır. Hələ antik dövrlərdə hökmdarlar və sərkərdələr hər hansı vacib qərarı qəbul etməzdən öncə ruhanilərdən (kahinlərdən) məsləhət alardılar, sonuncular isə lazım olduqda cəmiyyətdəki mövqelərini möhkəmlətmək üçün dünyəvi hakimiyyətdən dəstək alardılar. Əgər siyasətin əsas resursu hərbi güc idisə, digəri hər kəsin qeyd-şərtsiz tabe olduğu ideologiyaya sahib idi.

Tarix boyu dünyəvi hakimiyyətlə dini hakimiyyət arasındakı mübarizədə gah siyasət, gah da din qalib gəlmişdir. Ancaq onlar əməkdaşlıq etdikdə böyük uğur qazanmışlar. Buna misal olaraq, Qədim Misiri, Mesopotomiyanı, Amerika, Cənub-Şərqi Asiya və Okeaniyada Xristianlığın yayılmasını göstərə bilərik. Ancaq şübhəsiz, dinlə siyasətin əməkdaşlığına ən böyük nümunəni İslamın yayılması təşkil edir. Tarix boyu hələ heç bir din qısa müddət ərzində (təqribən 100 il) bu qədər geniş coğrafiyaya (müasir Mərakeş ərazisindən tutmuş Pakistana qədər) yayılmağa müvəffəq ola bilməmişdir.

Dinlə siyasət bir-birindən öz maraqları üçün istifadə etməklə yanaşı, ümumi maraqlara da xidmət etmişdir. Bəzi mütəfəkkirlərin fikrincə, din təkcə siyasət üçün kütlələri təsir altına alma vasitəsi kimi çıxış etməmişdir, həmçinin o insanları hər cür dünyəvi hakimiyyətin Tanrıdan olduğuna inandırmağa çalışmışdır. Onu da qeyd etmək lazımdır ki, bu cür qarşılıqlı yardımlaşma müvəqqəti xarakter daşımış və tərəflərdən birinin günahı ucbatından müəyyən müddətdən sonra sona yetmişdir. Məsələn, hakimiyyət silahdaş olaraq yeni dinə üz tutduqda köhnə din hər cür vasitə ilə buna qarşı çıxmışdır.

Göründüyü kimi, din insanların şüuruna və cəmiyyətə təsir göstərmək baxımından güclü vasitə olduğundan bəzi siyasi qüvvələr tarix boyu öz maraqlarını, siyasi-iqtisadi hegemonluqlarını təmin etmək üçün onun bu gücündən sui-istifadə etmişlər və bu proses müasir dövrdə də davam etməkdədir. Nəticə isə ortadadır: insanları vəhdətə, qarşılıqlı hörmət şəraitində yaşamağa çağıran dinlərin əsl mahiyyəti təhrif olunmuş və din müxtəlif siyasi oyunların alətinə çevrilmişdir.

## Dini sahədə ortaya çıxan risklər

Konfessiyalararası münasibətlərdə risklərin idarə olunmasının spesifik xüsusiyyətlərini anlamaq üçün, ilk növbədə, fenomen olaraq dinin mahiyyətini dərk etmək lazımdır. Dinin özünün dəyərlər sistemi vardır. Bu dəyərlər Tanrıya inamdan doğur. Dini dəyərlər sistemi iyerarxikdir: ən dəyərli olan Tanrıdır, sonra Tanrının ən sevimli əsəri - insan gəlir. Onun buyruqlarını yerinə yetirməklə insan Tanrıya yaxınlaşır. Tanrı bu yolda insana kömək edir – mənəvi inkişafın yollarını göstərir, bu inkişaf normaları insana irəliləməyə güc verir. İnam və dəyərlər, bir növ, mənəvi inkişafın koordinatlarını əmələ gətirir. Dini dəyərlər daimi və mütləqdir. Onlar inanclı insanın həyatında təcəssüm edir, insan bu dəyərlərə inanır. Dəyərlər inanclı insanın şəxsiyyətini formalaşdırır.

Dini dəyərlər insanın və cəmiyyətin digər dəyərləri ilə “qonşuluqda yaşayır”. Bu dəyərlər bəzən sülh şəraitində birgə mövcud olduqları halda, bəzən bir-biri ilə müxalifət təşkil edir. Dinə münasibətdə onunla müəyyən məsələlərdə antipod təşkil edən əsas dəyərlər isə müasir sekulyar dünyanın liberal dəyərləridir. Liberal dəyərlərin mövcudluğu əslində insanın mənəvi həyatı baxımından heç bir təhlükə doğurmazdı. Çünki onlar da cəmiyyətdə yaranır və kimin üçünsə dəyər təşkil edir. Ancaq liberal dəyərlər dini dəyərlərin yerini tutmağa, şəxsi və ictimai həyatdan dini dəyərləri sıxışdırıb çıxarmağa çalışır. Mütləqliyə iddialı olan liberal dəyərlər ənənəvi dünyagörüşündən azadlıq, ləyaqət, insan haqları kimi anlayışları götürərək, onlara tamamilə yeni məna - ənənəvi nöqteyi-nəzərə zidd məzmun yükləyir. Müasir dünyada hakim siyasi quruluş məhz liberal dəyərləri dəstəkləyir. Odur ki, bir çox ölkədə hakimiyyətdə olan siyasətçilər dinə hörmətlə yanaşdıqlarını dilə gətirsələr də, istəyərək və ya istəmədən dinin müasir dünyanın bütün sahələrindən sıxışdırılıb çıxarılmasına səbəb olan qərarlar qəbul edirlər. Bu baxımdan dini dəyərləri aqressiv şəkildə sıxışdırıb çıxarmağa çalışan liberalizm, təbii olaraq, dinin müqaviməti ilə rastlaşır, onda da din artıq doqmatizmdə, gerilikdə və aqressiyada günahlandırılır.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, konfessiyalararası münasibətlərin idarə olunması sahəsində risklər bir neçə istiqamətdə yaranaraq inkişaf edir və təhlükəli səviyyəyə çatır.

İlk növbədə, bu risklər getdikcə daha çox sekulyarlaşan dünya ilə dinlər arasında artan ziddiyyətlər nəticəsində ortaya çıxır. Bu risklərin aradan qaldırılması mümkün deyil. Belə ki, dinlər qeyri-dindar dünyanın təzyiqlərinə güzəştə gedə bilməzlər, əks halda onlar əsrlər boyu sahib olduqları dəyərlərdən imtina etmiş sayılarlar.

İkincisi, konfessiyalararası münasibətlər sahəsindəki risklər hər hansı din mənsublarının öz dinlərinin mütləqliyinə, yeganə doğru din olduğuna inanmaları problemi ətrafında cəmləşir. Hər din özünü yeganə həqiqi və doğru din sayır, digər dinlərin doğruluğuna şübhə yaradır ki, bu da konfessiyalararası münasibətlər baxımından təhlükəli məqamdır. Dinlərin bu zaman nümayiş etdirdikləri tolerantlıq sadəcə xarici cəhətdən özünü göstərir, onların maraqları toqquşduqda isə

ortadan qalxır.

Üçüncüsü, konfessiyalararası sahədə nəzərə çarpan risklər dinin siyasiləşdirilməsi prosesinin nəticəsidir. Müasir dünyanın ictimai-siyasi problemləri - sosial və iqtisadi ədalətsizlik, korrupsiya, maddi nemətlərin qeyri-bərabər bölüşdürülməsi və cəmiyyətdəki digər bu kimi qüsurlar dinin haqq-ədalət tərəfdarı, ədalət carçısı kimi rolunu artırır və o, özünə daha çox diqqət çəkərək tərəfdar toplayır. Bu onun siyasiləşdirmə cəhdlərinin ilkin mərhələsidir. Daha sonra ikinci mərhələ gəlir – din artıq bu cür siyasi problemləri özününkü kimi görməyə başlayır, bu da onun siyasiləşməsinə səbəb olur.

Dördüncüsü, konfessiyalararası münasibətlərdə risklər dinin radikallaşması prosesləri nəticəsində də yarana bilir. Bunun ən kəskin forması dinin radikallaşaraq dini ekstremizm və terrorizmə yol açmasıdır. Ayrı-ayrı dövlətlər və ümumilikdə dünya birliyi bu proseslərlə mübarizə aparır, bununla mübarizə üsulları ortaya qoyur.

Nəhayət, dövlətin və onun səlahiyyətli orqanlarının dinin işlərinə müdaxiləsi də risklərin ortaya çıxması ilə nəticələnə bilər. Sözsüz ki, dövlət bu və ya digər dərəcədə dini sahədəki vəziyyətlə maraqlanmalı, onu nəzarətdə saxlamalıdır, dövlətlə konfessiyalar arasındakı münasibətlərin tənzimlənməsində aktiv iştirak etməlidir. Bunların həyata keçirilməsi qaçınılmazdır və dövlətin buna hüququ vardır. Ancaq burada söhbət bu müdaxilənin dərəcəsindən, hansı həddə olduğundan gedir.

## Azərbaycanın dini sahədə üzləşdiyi təhdidlər

Son 10 ildə dünyada baş verən proseslər din amilinin təzyiq və təsir vasitəsi kimi ön plana çıxdığını təsdiqləyir. Böyük dövlətlərin hədəf olaraq seçdikləri ölkələri yola gətirmək üçün baş vurduqları əsas vasitələrdən biri dini məsələnin qabardılmasıdır. Odur ki, dövlət özünün, vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə dini məsələyə daha həssas və ehtiyatla yanaşmalıdır. Üstəlik, nəzərə almaq lazımdır ki, digər toplumlar və dövlətlərlə müqayisədə müsəlman ölkələri üçün din siyasi baxımdan daha təhlükəli sahədir. Elə Azərbaycan dövləti də din pərdəsi altında özünü göstərən təhlükə və təhdidlərdən sığortalanmayıb. Bunu bir neçə amillə əlaqələndirmək olar: Azərbaycanın yerləşdiyi coğrafi-siyasi mövqe, onun qarşısına qoyduğu strateji məqsəd və hədəflər, sahib olduğu enerji resursları və s.

Hazırda Azərbaycanda dindarlaşma prosesi güclənməkdədir. Əslində, insanların milli-mənəvi dəyərlərə və onların tərkib hissəsi olan dinə qayıdışı müsbət hal kimi qarşılanmalıdır. Çünki dinlə dövlətin bir çox ortaq hədəf və məqsədləri var. Məsələn, dinin hədəflərindən biri inanclı və imanlı insan, dövlətin hədəflərindən biri isə vicdanlı vətəndaş yetişdirməkdir. Ancaq bu güclənən dindarlaşma prosesinin özü ilə gətirdiyi problemləri də görməzdən gəlmək olmaz. Dini kimliyimizin milli kimliyimizə qarşı qoyulması, dindarlar arasında dünyəviliyin zəiflədilməyə çalışılması, dinin siyasiləşdirilməsi, ənənəvi İslamın zəiflədilməsi, dini radikalizmin, həmçinin dini zəmində xarici təsirlərin gücləndirilməsi (məscidlərin inşası, mədrəsə və Quran kurslarının açılması, gənclərin dini təhsil almaq üçün xaricə aparılması, zərərli dini ədəbiyyatın idxalı, xaricdəki müqəddəs məkanlara məqsədli kütləvi ziyarətlərin təşkil olunması) və s. cəhdlər bu problemlərdən sadəcə bir neçəsidir.

Bu gün dini sahədə qarşılaşdığımız əksər problemlərin kökündə dini savadsızlıq, İslamın

olduğu kimi təqdim edilməməsi dayanır. Məhz bu səbəbdən Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin, ümumilikdə, dinimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi önəm verir.

## Maarifləndirmə nə üçün lazmdır?

Məşhur rus alimi Mixail V.Lomonosova görə, yüksək təhsilli və əxlaqlı, zəhmətkeş vətəndaşların formalaşmasında, öz aktiv fəaliyyəti ilə ölkənin inkişafına töhfələr verən həqiqi Vətən oğullarının yetişməsində maarifçiliyin önəmi əvəzsizdir. Çünki maarifləndirmə bütün neqativ hallara qarşı mübarizədə ən effektiv vasitədir. Maarifləndirmənin əhəmiyyəti dini təhlükəsizliyin təminatında da ön plana çıxmaqdadır. Belə ki, dini maarifləndirmə düzgün aparıldığı təqdirdə dini təhlükəsizliyə yönələn təhdidlər azalır, ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilərək dini zəmindəki ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır.

Dövlətin bu istiqamətdə atdığı əsas addımlardan biri Prezident İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli Sərəncamı olmuşdur. Sərəncama əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 2.5 milyon manat ayrılmış, həmin vəsait mərhələli şəkildə xüsusi layihələr çərçivəsində dini icmalara paylanılmışdı. Əsas məqsəd dini icmaların xarici qüvvələrin təsir dairəsinə düşmək ehtimalının qarşısının alınması, onlara dini radikalizm, ekstremizm, məzhəb ayrı-seçkiliyi kimi müasir dövrün bəlalarına qarşı mübarizə istiqamətində geniş təbliğat-təşviqat işləri aparmasına şərait yaradılması idi. Dövlət başçısının 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu da dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunması və inkişafına, eyni zamanda dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanması və həyata keçirilməsinə xidmət göstərir.

Din sahəsində yüksək ixtisaslı kadrların hazırlanması isə maarifləndirmə işinin gələcəyə hesablanmış hissəsidir. Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılmış Azərbaycan İlahiyyat İnstitutu məhz bu missiyanı yerinə yetirməyi öz üzərinə götürmüşdür. İnstitut xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında və inkişafında, həmçinin ölkəmizə daxil olan zərərli ideyaların qarşısının alınmasında səylə çalışmağı, terrorizmə, ekstremizmə qarşı mübarizədə güclü maarifləndirmə işi aparmağı qarşısına məqsəd qoymuşdur.

Maarifləndirmə işi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin də əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Dövlət Komitəsi ölkədə dövlət-din münasibətlərinin, dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dini radikalizm meyillərinin qarşısının alınması, o cümlədən milli-mənəvi dəyərlərimizin, ölkədəki zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması məqsədilə dini maarifləndirmə işi aparır. Bu məqsədlə o, öz mətbu orqanları “Dövlət və Din” ictimai fikir toplusunu və “Cəmiyyət və Din” qəzetini nəşr etdirir; dini radikalizm, ekstremizm, fanatizm və xurafat meyillərinin qarşısını almaq, eyni zamanda milli-mənəvi dəyərləri təbliğ etmək məqsədilə kitab, broşür və digər çap məhsulları hazırlayır; ölkəmizin bütün regionlarında dini sahə ilə bağlı aktual olan mövzularda ictimaiyyətlə, dindarlarla silsilə konfranslar, seminar-treninqlər, “dəyirmi masa”lar təşkil edir və s.

Dövlət Komitəsinin maarifləndirmə işi ilə bağlı qarşısına qoyduğu məqsədlər 2014-2020-ci

illəri əhatə edən Strateji Planında da öz əksini tapmışdır:

✓Regionlarda uşaqların, qızların və gənc qadınların təhsil almasının əhəmiyyətinin ictimaiyyətə daha geniş çatdırılması, erkən nikahların qarşısının alınması ilə bağlı maarifləndirmə işinin aparılması, gənc qadın və qızların ölkənin ictimai həyatında iştirakının gücləndirilməsi;

✓Ölkədə gənclərə milli-mənəvi dəyərlərin təbliği və onlar arasında ideoloji maarifləndirmənin həyata keçirilməsi;

✓Dini sahədə xarici ideoloji təsirlərin mənfi təzahürlərini nəzərə alaraq, sağlam mənbələr əsasında müntəzəm maarifləndirmə işinin aparılması və bu sahədə müvafiq koordinasiyanın həyata keçirilməsi; Dini qurumların və bütövlükdə dindarların müasir demokratik vətəndaş cəmiyyətinin dəyərlərinə bağlılığının təmin edilməsi, onların cəmiyyətin quruculuq proseslərinə cəlb edilməsi;

✓Milli-vətənpərvərlik hisslərinin aşılanması, inanclı kontingent daxilində milli dövlətçilik işinin gücləndirilməsi və s.

## Nəticə

Görkəmli alman filosofu, neoklassik alman fəlsəfəsinin banisi İmmanuel Kant hesab edirdi ki, maariflənmə insanın yetkinlik dövrünə qədəm qoyması deməkdir. Belə ki, həddi-büluğa çatmamış adam başqalarının rəhbərliyi olmadan öz ağlından istifadə etmək qabiliyyətindən məhrumdur. Bu baxımdan gənclərin dini-əxlaqi dəyərlərdən uzaqlaşması onların adət-ənənələrimizə zidd düşüncələri mənimsəməsinə, zərərli axın və ideologiyaların tələsinə düşməsinə gətirib çıxara bilər ki, bu da cəmiyyətimizin gələcəyi üçün təhdiddir. Məhz buna görə də, dini radikalizmə, ekstremizmə, tarix boyu dini dəyərlərin təhrifinə yol açan xurafata və cəmiyyəti zülmətə sürükləyən cəhalətə səbəb olan amillərin qarşısını kəsmək, milli-mənəvi dəyərlərimizi, tolerantlıq, multikulturalizm ənənəmizi yaşadan, ailəsinə, Vətəninə faydalı, təhsilli, savadlı nəsil yetişdirmək üçün maarifləndirici tədbirləri artırmaq din siyasətinin əsas istiqamətlərindən olmalıdır.

## ƏDƏBİYYAT


1. Роль религий в культуре мира в Европе. Выступление зампреда ОВЦС Московского патриархата протоиерея Георгий Рябых на заседании Европейского совета религиозных лидеров // http://www.interfax-religion.ru/new/?act=documents&div=899
2. Парсонс Т. О социальных системах. М.: Академический проект, 2002.
3. Бурдье П. Социальное пространство: поля и практики (пер. с франц). М.: Институт экспериментальной социологии; СПб: Алетейя, 2005.
4. Gündüz İsmayılov. Azərbaycanda dini məsələ. Təhdidlər və hədəflər. Bakı: 2016.
5. Azərbaycanda dini icmalara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://president.az/articles/13554
6. Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı / https://president.az/articles/25489
7. Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://president.az/articles/27001

Гюней Намазова

# ПОТЕНЦИАЛЬНЫЕ РИСКИ В ОСУЩЕСТВЛЕНИИ РЕЛИГИОЗНОЙ ПОЛИТИКИ И ВАЖНОСТЬ ПРОСВЕТИТЕЛЬСКОЙ РАБОТЫ

## РЕЗЮМЕ

За последние 20 лет религия представляется как агрессивное явление и активно используется в политической сфере. С воздействием глобализации секуляризация исключает позитивное содержание религии из всех областей общественной, государственной и международной жизни. Тем не менее увеличивается число межрелигиозных форумов и миролюбивых инициатив.

В статье рассматривается взаимодействие религии и политики, их взаимовлияние, попытки политизации религии, потенциальные риски, которые могут возникнуть в ходе осуществления религиозной политики. Затрагивается важность просветительской работы для предотвращения экстремизма и радикализации в религиозной сфере, обсуждаются меры, принимаемые азербайджанским государством в данном направлении.

Guney Namazova

# POTENTIAL RISKS IN THE IMPLEMENTATION OF RELIGIOUS POLICY AND THE IMPORTANCE OF AWARENESS-RAISING WORK

## SUMMARY

Religion is presented as an aggressive phenomenon and actively used in the political sphere over the past 20 years. Secularization excludes the positive content of religion from all areas of public, state and international life with the impact of globalization. Nevertheless, the number of inter-religious forums and peace-loving initiatives is increasing.

The article discusses the interaction of religion and politics, their mutual influence, attempts to politicize religion, potential risks that may arise during the implementation of religious policy. The importance of educational work to prevent extremism and radicalization in the religious sphere is touched upon, measures taken by the Azerbaijani state in this direction are discussed.

# DİNİ TƏHSİLİN SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİ VƏ CƏMİYYƏTİN İNKİŞAFINDA ROLU

***Elçin HƏSƏNLİ,***
*AMEA-nın akademik Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun dissertantı*

***AÇAR SÖZLƏR:*** *din, təhsil, cəmiyyət, hüquq, əxlaq.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *религия, образование, общество, право, нравственность.*
***KEY WORDS:*** *religion, education, society, law, morality.*

Hər bir insanın əsas hüquqlarından olan təhsil almaq hüququ fərdlərin harmonik inkişafına zəmanət verir, ona sosial, siyasi, mənəvi və mədəni münasibətlərdə aktiv iştirakçı olmağa kömək edir. İnsan şəxsiyyətini formalaşmasında böyük rol oynayan təhsil hər bir dövlətin siyasətində mühüm yer tutur. Bu səbəbdən də fərdin cəmiyyətə faydalı şəxsiyyət kimi formalaşması üçün onun yaxşı təhsilə yiyələnməsi başlıca şərtlərdəndir.

Azərbaycan dövləti təhsilin xüsusi əhəmiyyətini nəzərə alaraq, ölkənin intellektual, mədəni və iqtisadi potensialının inkişafı üçün öz siyasətində təhsili prioritet sahə kimi müəyyənləşdirmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsinə əsasən, "hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir" [1, mad. 42]. Konstitusiyanın qeyd olunan maddəsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş müddəalar təhsil sahəsində qəbul edilən beynəlxalq standartlara tam cavab verir.

Hər bir şəxsin təhsil almaq hüququ hazırda çoxlu sayda milli və beynəlxalq hüquqi aktlarla təsbit olunmuşdur. Onlar arasında Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda təhsil almaq ən vacib insan hüquqları sırasında təsbit edilmişdir.

BMT Baş Assambleyasının 1948-ci il 10 dekabr tarixində qəbul etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində deyilir: "Hər bir insan təhsil almaq hüququna malikdir. Təhsil ən azı ibtidai və ümumi səviyyələrdə pulsuz olmalıdır. İbtidai təhsil məcburi olmalıdır. Hamının texniki və peşə təhsili almaq imkanı olmalıdır və hər bir insanın qabiliyyəti əsasında hamının eyni dərəcədə ali təhsil almaq imkanı olmalıdır. Təhsil insan şəxsiyyətinin tam inkişafına və insan hüquqlarına və əsas azadlıqlara hörmətin artırılmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa yardımçı olmalı və Birləşmiş Millətlər Təşkilatının sülhün qorunub saxlanması ilə bağlı fəaliyyətinə köməklik göstərməlidir" [2].

UNESCO-nun təşəbbüsü olan "Hamı üçün təhsil" (Education for All, EFA) strategiyasının əsas müddəaları 1990-cı ildə Tailandın Comtyen şəhərində keçirilən "Hamı üçün təhsil – Ümumdünya Konfransında" irəli sürülmüşdür. Konfransda qəbul edilmiş Hamı üçün Təhsil haqqında Ümumdünya

Bəyannaməsində vurğulanır ki, "Təhsil dünyanın hər yerində hamının – yaşından asılı olmayaraq, bütün qadın və kişilərin təməl hüququdur... Təhsil daha təhlükəsiz, sağlam, inkişaflı və ekoloji təmiz dünya üçün zəmin yaratmalı, eyni zamanda sosial, iqtisadi və mədəni tərəqqiyə, dözümlülüyə və beynəlxalq əməkdaşlığa yol açmalıdır... Təhsil şəxsi və ictimai təkmilləşmənin zəruri şərtidir" [3].

Təhsilin əsas xüsusiyyəti, sosial əhəmiyyəti, məqsəd və vəzifələri, eləcə də düzgün formada həyata keçirilməsi təhsil konsepsiyalarının xüsusiyyəti, onun idarə edilməsinin qanunauyğunluqları və s. amillər təhsilin fəlsəfəsini təşkil edir. İrəli sürülən müasir ideyalara əsasən, təhsil fəlsəfəsi ümumi fəlsəfi biliklərin bir növüdür və onun əsas mövzusu təhsil problemlərinin araşdırılmasıdır.

Pedaqoji sahədə böyük təcrübəsi olan azərbaycanlı tədqiqatçılar Ə.Paşayev və F.Rüstəmovun müəllifi olduqları "Pedaqogika, yeni kurs" adlı kitabda təhsilə bu cür tərif verilir: "Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədi ilə müasir standartlara uyğun olaraq müəyyənləşdirilmiş məzmunun tədris müəssisələrində mənimsənilmə səviyyəsinin qəbul olunmuş meyarlarla yoxlanılan və hüquqi sənədlərdə təsbit olunan nəticəsidir" [4, s.13-14].

Hər bir dövlətdə təhsil mədəni irsin və milli kimliyin ən qiymətli elementlərinə diqqət yetirməlidir. Eyni zamanda, cəmiyyət üçün yeni, daha ədalətli və ümumbəşəri qaydada qurulacaq etik prinsiplərin güclənməsinə kömək etməlidir. Əxlaqi dəyərlərin cəmiyyətdə möhkəmlənməsi üçün bir tərəfdən insanların öz aralarında olan münasibətlərinə, digər tərəfdən isə ümumbəşəri dəyərlərə əsaslanmaq lazımdır. Bunun üçün vicdan azadlığının konstitusiya prinsiplərinə və dövlət qarşısında dinlərin bərabərliyi doqmasına uyğunluğunu təmin edərək, mənəviyyat və əxlaqın ümumi prinsiplərini inkişaf etdirmək böyük əhəmiyyət daşıyır.

Tədris prosesində dini dəyərlərin istifadəsi üçün metodoloji əsas kimi yalnız xalqların, dini ənənələrinin, müasir mədəniyyətlərin və pedaqogikanın sıx və qarşılıqlı əlaqələri çıxış edə bilər.

Tarix boyu bütün millətlərin sosial-siyasi həyatında baş verən dəyişikliklər özünü ən çox təhsil sahəsinin struktur və funksiyasında göstərmişdir. Təhsilə təsir göstərən təbii və sosial faktorları müxtəlif ölkələrdə ayrı-ayrılıqda araşdıran və əldə etdiyi nəticələri müqayisəli şəkildə ortaya qoyan pedaqoq alim J.A.Lauverys din faktorunun təhsilə təsirini belə açıqlayır: "Dünyadakı bütün ölkələrdə din və təhsil bir-biri ilə əlaqəlidir. Çox qədim zamanlardan ibadət məkanları ibadət ilə yanaşı, digər funksiyaları da yerinə yetirmişlər. Bu məkanlarda din adamları həmin bölgənin uşaqlarının təhsili ilə də maraqlanırdılar. O dövrdə oxuyub-yazmağın öyrənilməsi ibadət ocaqlarının vəzifəsi kimi qəbul edilirdi. Dünyada dini məktəblərdən ayrı məktəb və təhsil sistemləri yaratmaq yeni düşüncədir. Təqribən iki yüz il əvvəl başlayan bu proses modern dövlət anlayışı və sənayeləşmənin nəticəsidir. Sosial və siyasi həyatda meydana gələn bu dəyişiklikdən sonra din xadimləri tərəfindən idarə edilən məktəblərdən əlavə, dünyəvi məktəblər də açılmışdır" [5, s.10].

Din bir sıra sosial funksiyaları yerinə yetirdiyi üçün müasir dünyanın ayrılmaz hissəsidir. Axı iman bu gün təkcə dünyaya açılan pəncərələrdən biri deyil, həmçinin din ilə təhsilin, fəlsəfənin və elmin sintezidir. Din sivilizasiyaları bir-biri ilə əlaqələndirərək insanları yalnız əxlaq qaydaları ilə deyil, həm də ənənə və mənəvi dəyərlərlə birləşdirir. Fəlsəfi, elmi və tarixi fikirdən fərqli olaraq, dini fikirlər hər kəs üçün əlçatandır və eynidir.

Hər bir xalqın həyatı mənəvi dəyərlərə əsaslanır, din isə hər bir dövlətin inkişafı və şəxsin

dünyagörüşünün inkişafında mühüm rol oynayır, insanlarda sosio-mənəvi dəyərləri inkişaf etdirir. İslam fəlsəfəsinin inkişafında müstəsna rolu olan tanınmış mütəfəkkir Mürtəza Mütəhhəri qeyd edir ki: “Təcrübə dinlərin əxlaqdan ayrıldığı yerlərdə böyük çatışmazlıqlar olduğunu göstərir. Din insana, onun əxlaqı üçün, ən azı, bir dəstək olaraq lazımdır” [6, s.113].

Hazırda gənclərin mənəvi təlim və tərbiyəsində dini təhsilin həyata keçirilməsi həlledici əhəmiyyətə malikdir. Çünki dini təhsil bir insanın müəyyən dəyərlər sistemini, davranış fəaliyyətinin normalarını, ailədə, gündəlik həyatda, cəmiyyətdəki insanlar arasındakı əlaqəni müəyyənləşdirir. Dini təhsil, həmçinin özündə təlim və tərbiyə komponentlərini ehtiva edir.

Dini təhsil vasitəsilə dinlər öz tərəfdarlarını artırır, dindarlar əxlaqi cəhətdən kamilləşir, onlara dinin xüsusiyyətləri və dəyərləri aşılanır. Beləliklə, dini təhsil və dini maarifləndirmə insan həyatının vacib elementini təşkil edir.

Müasir dövrdə bir çox ölkənin təhsil müəssisələrində dinin tədris olunub-olunmaması təhsil prosesinin məqsədləri və vəzifələri ciddi müzakirə olunur. Tələbələr təhsil standartlarına uyğun olaraq müəyyən biliklərə yiyələnsələr də, din haqqındakı bilikləri, daha doğrusu, dini dərk etmə dərəcəsi bir o qədər də yetərli olmur. Çünki gəncin tərbiyəsi ailədən formalaşmağa başlayır. Digər tərəfdən, yüksək səviyyədə dini-mənəvi təhsilin aparılması üçün ixtisaslaşmış kadrların hazırlanması hər bir dövlətin qarşısında duran mühüm vəzifələrdən biridir. Fikrimizcə, ailədə başlayan, məktəb və ali təhsil müəssisəsində, həmçinin yaşadığı mühitdə formalaşmağa davam edən hər bir gənc tərbiyəsinin tamamlanması üçün dini-mənəvi dünyagörüşünə sahib olması vacibdir [7, s.114].

Bütün dinlərdə təhsilə, biliyə və elmə yiyələnməyin əhəmiyyəti olduqca yüksək qiymətləndirilir. Bəşəriyyət üçün rəhbər göstəriş olan Allah kəlamının yer aldığı üç səmavi kitabda bu məsələlər öz əksini tapmışdır. İslamda bu qaydalar Qurani-Kərimdə və sünnədə təsbit edilmişdir.

İnsan yaradılışından başlayaraq imana sığınmaqla, Yaradanı axtarmaqla məşğul olmuş, Onu dərk etməyə çalışmışdır. İslam dininin gəlişindən sonra yer üzündəki cəhalət və savadsızlığa qarşı mücadilə başlamış, oxuma-yazmanın genişlənməsinə zərurət yaranmışdır. İlk İslam təhsil sisteminin “Oxu” əmri ilə başlayan Qurani-Kərimin ayələri və bir müəllim olaraq göndərilən Məhəmməd peyğəmbər (s) tərəfindən qurulduğunu demək olar.

Qurani-Kərim və hədislərdə ideal insan belə vəsf edilmişdir: Allahdan ən çox qorxan, Allahın əzabından heç vaxt əmin olmayan, Allahın razılığını qazanmağa çalışan, səbir edən və səbri tövsiyə edən, əsəblərini cilovlayan, insanların səhvlərini bağışlayan, yer üzündə təkəbbürlə deyil, təvazökarlıqla gəzən, comərd, gözəl əxlaq sahibi, müsbət mənada Allaha itaət göstərən, kasıb olduğu halda bütün gücü ilə çalışan, bütün çətinliklərə baxmayaraq, dində əzm göstərən, insanlara ən çox faydası olan, onların ehtiyaclarını qarşılayan, Allah rizası üçün nəfsi və malı ilə cihad edən, insanlara zərər verməyən, pisliklərdən çəkinən [8, s.8].

İslam dini öyrənməyi və öyrətməyi (təlim-tədrisi) ibadətdən üstün sayarkən ibadətə göstərilən diqqətin təhsilə də yönəldilməsini istəyir, alimin qələmindən axan mürəkkəbin şəhid qanına bərabər tutur, elm, təhsil alarkən ölən bir kimsə ilə peyğəmbərlər arasında Allah qatında sadəcə bir dərəcə fərq olduğunu bildirir. Məhəmməd peyğəmbər (s) alimləri peyğəmbərlərin varisləri adlandırmışdır. İslam dini təhsildə yaş həddi qoymur, bu mənada “beşikdən qəbirədək” kəlamı doqma kimi qəbul edilir. Elm və təhsildə cins, zaman və məkan kimi məfhumlar önəm daşımır. Elmlər arasında fərq

qoyulmur, təkcə dini elmlər deyil, həm də dünyəvi elmlərin öyrənilməsi vurğulanır.

Qurani-Kərim və hədislərdə xeyirli, yaşayışa əlverişli, ağlın qəbul etdiyi bir iş üçün "məruf" (haqq bilinən), pis və yaşayışa əlverişsiz, doğru düşünənlərin yaxşı görmədiyi bir iş üçün isə "münkər" (tövsiyə edilməyən) kəlmələri işlənilir. Başqa sözlə, hər kəs üçün doğru bilinən şey əmr, pis bilinən isə qadağa forması alır. Bu əmr və qadağalar işinin təlim-təhsil fəaliyyəti olduğunu düşünsək, bu iki təməl prinsipin insanın əxlaq tərbiyəsinin əsasını təşkil etdiyini görürük [8, s.11].

Bəzi gənclərin müxtəlif radikal dini hərəkatları psixoloji təsiri altına düşməsi hazırda müasir dünyanın qorxulu tendensiyalarından birinə çevrilmişdir. Destruktiv, radikal dini qurumlar və ya təşkilatlar insanlardan (xüsusən də gənclərdən) ən qiymətli olan zamanlarını, sağlamlıqlarını və enerjilərini alır, inkişaf etmələrinə mane olur, onların ən böyük arzularının həyata keçməsinin qarşısını alır. Bir çox tədqiqatçının da dediyi kimi, bu asılılığın əsas səbəbləri məhz tərbiyə və təhsilin mövcud mədəni ənənələrində dəqiq araşdırılmalıdır. Buna görə də orta məktəb və tələbəlik illərindən başlayaraq gənclərə dinlərin təməl prinsipləri haqqında məlumatların verilməsi həm cəmiyyəti, həm də dövləti gələcək təhlükələrdən qorumaq istiqamətində görüləcək ən optimal işlərdən biridir. Məlumdur ki, müasir dünya keyfiyyət və kəmiyyət baxımından çox dinamik inkişafdan informasiya axını ilə xarakterizə olunur. Əvvəlki nəsillərin mənimsəmək və ondan istifadə etmək üçün bütün həyatını həsr edə biləcəyi bir məlumat günümüzdə, ən geci bir neçə il ərzində köhnəlir. Başqa sözlə desək, informasiya axınında gənclər heç də bütün məlumatları mənimsəmək, onları öz həyatlarında tətbiq etmək, düzgün qərar vermək bacarığına malik deyillər. Bu isə nəticədə destruktiv dini təşkilatlara onların yerinə düşünməyə və gələcək həyatları ilə bağlı qərarlar qəbul etməyə şərait yaradır. Təcrübəli olmayan bir gənc dövlətçiliyə, bəşəriyyətə təhlükəli fikirləri ilə meydan oxuyan bu cür dini qurumların qurbanına çevrildiyinin fərqinə də vara bilmir.

Belə genişmiqyaslı hadisələrin və vəziyyətlərin nəticələrinin qarşısını almaq üçün əsas vəzifələrindən biri insanın sosiallaşma məkanı olan sosial institutlar, məktəb, kollec və ali təhsil müəssisələri yalnız onun bilik, bacarıq və qabiliyyətlərini deyil, şəxsi inkişafında da müstəsna rol oynamalıdır. Bu mənada qarşıya qoyulan məqsədə yalnız yeniyetmələr və gənclər arasında dini, əxlaqi və etik dəyərləri daşıyan, vətənpərvərlik və tolerantlıq hissləri aşılayan dinlərlə tanışlıq vasitəsilə nail olmaq mümkündür.

Ümumiyyətlə, gənclərin milli-mənəvi dünyagörüşünün formalaşmasında, eləcə də onların ailədə və cəmiyyətdə əxlaqlı insan kimi yetişməsində dinin özünəməxsus rolu vardır. Dinin düzgün tədrisi və təbliği, kütləvi dini maarifləndirmə işinin aparılması ilə gənclərimizi müxtəlif zərərli vərdişlərdən qorumaq mümkündür. Dini biliklərin mənimsənilməsi müxtəlif fikirli insanlarla sağlam dialoq qurmağa yardım edir. Nəticədə, bu, vətəndaş həmrəyliyini və fərdlərarası münasibətlərin harmoniyasını təmin edir, müxtəlif konfessional cərəyanlar, eləcə də dini və qeyri-dini dünyabaxışları arasında tolerantlığın yaranmasına şərait yaradır.

Dünya alimlərinin bir sıra elmi və kütləvi nəşrlərdə qaldırdığı "dini", "dini-idraki" və ya "dini-fəlsəfi" təhsil məsələsi ilə bağlı hələ də dəqiq tərif yoxdur. Bu sahədə problemlər təkcə dini təhsilin yeni formalaşma mərhələsini yaşayan Azərbaycanda deyil, həmçinin bir sıra dünya dövlətlərində də mövcuddur. XX əsrdə iki dünya müharibəsi təcrübəsi keçmiş ölkələr artıq bu problemin öhdəsindən nisbətən uğurla gələ bilmişlər. Bu sahədə əsas qanun islahatları 1910-1930 və 1962-ci illərdə

Amerikada, 1968-ci ildə Belçikada, 1949-cu ildə Almaniyada, 1924, 1933 və 1949-1982-ci illərdə Türkiyədə həyata keçirilmişdir.

Din ilə təhsil arasında qarşılıqlı əlaqələrə həsr olunmuş çoxsaylı tədqiqatlar mövcuddur ki, bunları da üç əsas hissəyə bölmək olar. Birinci hissədə dini təhsilin konfessional ənənəyə giriş kimi şərh edən "ilahiyyat" istiqaməti üzrə araşdırma aparan müəlliflərin təqdim etdiyi fikirlərdir; ikinci blokdan olan tədqiqatçılar dini təhsilə müsbət yanaşır və onu məktəblərdə tədris etməyin vacibliyinə diqqət çəkir; üçüncü blok Qərb tədqiqatçıları tərəfindən təqdim olunur ki, onlar üçün dini təhsil "din haqqında elm" mənasını daşıyır.

İngilis tarixçisi, filosof Arnold Cozef Toynbinin sözlərinə görə, ənənəvi din olmadan Qərb insanının evi boş qalacaqdır. Mütəfəkkir hesab edir ki, "rasionallıq həmin evdən hər şeyi, kiçik bir parça belə saxlamadan süpürüb çıxardı. Evi səliqəli və hərtərəfli şəkildə elm təmizlədi, amma elm insanın yaşayışı üçün rahatlıq vermədi, çünki onu dinsiz qoydu. Dini əvəz etmək üçün isə elmin təqdim edilməsi sanki çörək yerinə daş təklif etməkdir" [9, s. 384].

Din mədəniyyətinin öyrənilməsi bəşəriyyət üçün layiqli cəmiyyət və ətraf üçün təhlükəsiz şəxsiyyətin qazanılması deməkdir. Bu işi isə valideynlər, yaxın insanlar, məktəblərdə və universitetlərdə din dərslərini tədris edən müəllimlər, məscidlərdə çalışan ruhanilər yerinə yetirə bilər. Din və təhsil bir-biri ilə yaxın əlaqədə olmaqla insanın dünyagörüşünə, onun elminə müsbət təsir edir.

Dini biliklər, dini maariflənmə gənclərin mənəvi təhlükəsizliyini formalaşdırır və onu gücləndirir, dözümsüzlük, fanatizm, ksenofobiya, millətçilik, ekstremizm kimi məfhumlara qarşı mübarizlik yaradır, məzhəbçiliyi və dini radikallığı aradan qaldırır. Ailədə, məktəbdə aşılanan mənəvi dəyərlər, digər dinlərə qarşı tolerantlıq hissi gənclərin gələcəkdə açıqfikirli, demokratik, müstəqil, vətəndaşlıq və vətənpərvərlik ruhunda yetişməsinə yardım edir. Demokratik cəmiyyətdə dini tolerantlığın mövcudluğu sayəsində dini azadlıq təmin edilir, insan hüquqları qorunur. Dini dözümlülük gənclərdə demokratik, hüquqi və siyasi mədəniyyətin inkişaf etdirilməsinin vacib şərtidir.

Dinin əsas funksiyalarından biri də insanların davranışının tənzimlənməsi, cəmiyyətdə düzgün fəaliyyət göstərmələrini təmin etməkdir. Bu baxımdan din birbaşa, elm isə dolayı yolla dəyərlərlə, əxlaqla bağlıdır.

Dinşünaslığın bir elm sahəsi kimi qarşıya qoyduğu məqsəd təkcə müəyyən dini etiqadların və institutların təriflərinin verilməsindən ibarət deyil, həm də dünyada mövcud olan dinləri tərəfsiz araşdırmaqdır. Bu məqsədə aparan yol, bir qayda olaraq, dinin tarixini, fenomenologiyasını müqayisəli öyrənilməsini, həmçinin bir tərəfdən ilahiyyat və din fəlsəfəsi, digər tərəfdən din haqqında sosial elmlər sırasına daxil olan antropologiya, psixologiya və sosiologiyanı özündə ehtiva edir.

Dini təhsil cəmiyyətdə dünyəvi və konfessional tolerantlıq mühitinin yaradılmasına, vicdan azadlığının (dini etiqad azadlığı) həyata keçirilməsinə zəmin yaradır. Dinin tədrisi ixtisaslaşmış təhsil ocaqlarının vəzifəsi olduğu qədər, ailədə ata-ananın da vəzifəsidir. Başqa sözlə, dini dəyərlərin aşılanması vaxtında və uşağın inkişaf dövründə icra olunacaq planlı fəaliyyət olduğu qədər, doğum öncəsi tədbirlərlə başlayıb ömür boyu həssaslıqla davam etdirilən işdir.

Cəmiyyətin gələcəkdə dini təfəkkürünün necə formalaşması, ictimai şüurda sosial faydalı və mənəvi dəyərlərin inkişafı dini təhsilin ölkədəki vəziyyətindən asılıdır. Sistemli dini təhsilin təşkil olunması birtərəfli yanaşmaya əsaslanan hər hansı dini konfessiyanın radikal antisosial meyillərinin yayılmasının qarşısını alacaqdır.

Son zamanlar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü və təşkilatçılığı ilə milli-mənəvi dəyərlərimizlə bağlı çoxlu sayda seminar, simpozium və konfranslar keçirilir. Uşaqların və gənclərin düzgün dini maariflənməsi, onların dini və əxlaqi dəyərlərimizə yad olan radikal dini təriqətlərin, cərəyanların təsirlərindən qorunması bu tədbirlərdə ən çox müzakirə olunan mövzulardandır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "Təhsil müəssisələrində uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında 2015-ci il üçün Fəaliyyət Planı" təsdiq edilmişdir. Həmin Fəaliyyət Planında respublikanın müxtəlif təhsil müəssisələrində uşaqların və gənclərin dini maariflənməsi üçün elmi-praktik konfransların, müsabiqələrin, "dəyirmi masa"ların, seminar, konfrans və diskussiyaların təşkili də nəzərdə tutulmuşdur. Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış "Təkmilləşmə kursları" vasitəsi ilə din xadimlərinin dini, hüquqi və siyasi biliklərinin artırılması istiqamətində böyük işlər görülür. Lakin kütləvi dini maariflənmə üçün ən münasib yer ixtisaslaşmış təhsil ocaqlarıdır. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsaslanaraq deyə bilərik ki, icbari təhsildə din təhsili yoxdur. Buna baxmayaraq, orta məktəbi bitirən vətəndaşlar dini təhsil müəssisələrində dini təhsil almaq hüququna malikdirlər [10, s. 76].

Bu gün ölkədə Azərbaycan İlahiyyat İnstitutunda (Dinşünaslıq və İslamşünaslıq ixtisasları), Bakı İslam Universitetində (Dinşünaslıq ixtisası) və Naxçıvan Universitetində (Dinşünaslıq ixtisası) yüksək ixtisaslı, ali dini təhsilli kadrlar hazırlanır. Eyni zamanda, 2017-ci ildə Bakı şəhərində və bölgələrdə dini orta ixtisas tədris müəssisələri kimi 10 kollec həmin kolleclər dövlət qeydiyyatına alınmışdır.

Hazırda orta ümumtəhsil məktəblərində din dərsləri ayrıca fənn olaraq tədris olunmur. Ayrı-ayrı dərsliklərdə ("Həyat bilgisi", "Həyati bacarıqlara əsaslanan təhsil") dinlə bağlı tanışlıq məqsədilə verilən bilgilər uşaqların dini maariflənməsi üçün yetərli deyildir. Belə ki, həmin dərsliklərdə din barədə müfəssəl məlumat verilmir. Digər tərəfdən isə bu dərslər dini bilikləri yetərincə olmayan başqa ixtisas müəllimlərinə həvalə edildiyindən orta məktəblərdə dini bilgilər uşaqlara doğru-düzgün aşılana bilməz.

Din dərslərinin dövlətin nəzarətindən kənarda verilməsi dindən siyasi məqsədlər üçün istifadə hallarına da gətirib çıxara bilər. Hazırda uşaqlar və gənclər arasında dinin tədrisi nizamsız, bəzən də gizli şəkildə aparmaq cəhdlərinə rast gəlinir və qarşısı qətiyyətlə alınır.

Dövlətin ciddi nəzarəti və qayğısı altında uşaqların və gənclərin məktəblərdə dini bilgilərin daha çox və daha peşəkar şəkildə verilməsi bu boşluqları aradan qaldıra bilər. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 2-ci bəndində deyilir. Qanuna əsasən: "Dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramlarına daxil edilə bilər" [11, mad. 6]. Bu müddəaya

uyğun olaraq dərsliklərə salınacaq mövzular hər cür məzhəbçi və təriqətçi fikirlərdən uzaq olmalı, bu dərslərin tədrisi dövlət qurumlarının və ictimaiyyətin nəzarətindən kənarda qalmamalıdır. Dərslərin tədrisi müvafiq yoxlama və müsabiqədən keçmiş BİU-nun və BDU-nun İlahiyyat fakültəsinin (indiki Azərbaycan İlahiyyat İnstitutu) məzunlarına həvalə edilə bilər. Bu dərsləri tədris edəcək müəllimlərin şəxsi keyfiyyətləri də çox böyük önəm daşıyır. Çünki dini bilikləri tədris edən müəllim öz tələbəsinə və yaxud şagirdinə həm də əxlaq öyrədir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il.
2. Ümumdünya insan hüquqları bəyannaməsi. BMT Baş Assambleyanın 1948-ci il 10 dekabr tarixli 217-ci A (III) qətnaməsi. Maddə 26.
3. http://www.unesco.org/education/wef/enconf/Jomtien%20Declaration%20eng.shtm (World Declaration on Education for All)
4. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: “Çaşıoğlu”, 2002. – səh. 13-14
5. J.F.Gramer ve G.S.Browne, Çağdaş Egitim, Çeviren: Ferhan Oğuzxan, İstanbul, 1974, s.10
6. Мутаххари М. Образование и воспитание в исламе. – М.: ООО Садра», 2013. С. 113.
7. Зеньковский В.В., прот. Педагогика. Изд-во. Свято- Тихоновского богословского института. М, 1996, 114.
8. Dr. Mehmet TÜTÜNCÜ, Türk-İslam eğitimcisi ZERNUCİ, İzmir İlahiyyat Fakultesi Vakfı, İzmir, 1991, 174s.
9. Тойнби, А.Цивилизация перед судом истории – М. – СПб., 1996, с. 384
10. Elsevər Səmədov. Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı, 2009, s.76
11. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu, 20 avqust 1992-ci il, Bakı şəhəri, №-281

Эльчин Гасанлы

## СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ СУЩНОСТЬ РЕЛИГИОЗНОГО ОБРАЗОВАНИЯ И ЕГО РОЛЬ В РАЗВИТИИ ОБЩЕСТВО

РЕЗЮМЕ

В статье исследуется философская сущность религиозного образования, его место и роль в развитии общества и формировании человека как личности. Проанализирована нынешняя ситуация и проблемы в области религиозного образования в Азербайджане. Также представлены мнения ученых, проводящих исследования в этой области.

Elchin Hasanli

## SOCIO-HILOSOPHICAL ESSENCE OF RELIGIOUS EDUCATION AND ITS ROLE IN THE DEVELOPMENT OF SOCIETY

SUMMARY

The article examines the philosophical essence of religious education, its place and role in the development of society and the formation individuals' dignity as persons. The current situation and problems in the field of religious education in Azerbaijan have been analyzed. The opinions of scientists conducting research in this area are also presented.

# MİLLİ MƏTBUATIMIZDA ZİYALI VƏ RUHANİLƏRİN ROLU

*(XIX əsrin sonu-XX əsrin əvvəlləri)*

***Əhliman RÜSTƏMOV,***
*araşdırmaçı-jurnalist,*
*Qafqaz Müsəlmanları İdarəsinin*
*Fətva və moizə şöbəsinin müdir müavini,*
*ahlimanquest@yahoo.com*

***AÇAR ÇÖZLƏR:*** *çarizm, milli oyanış, məzhəblərin birliyi, ruhanilik, milli mətbuat.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *царизм, национальное пробуждение, единство сект, духовенство, национальная пресса.*
***KEY WORDS:*** *tsarism, national awakening, unity of sects, clergy, national press.*

XIX əsrin sonu – XX əsrin əvvəllərində çar Rusiyasını narahat edən məsələlərdən biri imperiyanın müsəlman əyalətlərinə aid məsələlərin birlikdə həll olunması nəticəsində yaranacaq müsəlman birliyi ideyasının bütün Rusiya ərazisində vətəndaşlıq hüququ qazanması və bununla da İslam dininin milli birliyin nəzəri əsasına çevrilməsi ehtimalı idi. Buna görə də hökumət müsəlmanlara aid məsələləri ümumrusiya miqyasında deyil, ayrı-ayrı vilayətlər, quberniya və qəzalar çərçivəsində "müzakirə"yə çıxarır, alınan qərarları isə gizli şəkildə bütün müsəlman əyalətlərinə şamil edirdi. Belə qərarlardan biri də İslam təbliğatını zəiflətmək idi. Bunun üçün imperiya ərazisindəki müsəlman vilayətlərində mədrəsələrin sayı azaldılır, məscidlərin tikintisində maneə yaradılır, vəqf pulları dövlət büdcəsinə keçirilərək müsəlmanların ruhani işlərinə xərclənməsinə icazə verilmirdi. Bundan əlavə, İslamın bir din kimi ideoloji-siyasi təsir qüvvəsini zəiflətməkdən ötrü çarizm Azərbaycanla müsəlman ölkələrinin, habelə imperiyanın başqa müsəlman vilayətlərinin hər cür dini-mənəvi təmasına mane olur, xaricdə, xüsusilə müsəlman dövlətlərində ruhani təhsil almağı qadağan edirdi. Bütün bunlara baxmayaraq, Rusiyanın müsəlmanlar yaşayan əyalətlərində, o cümlədən Azərbaycanda müsəlmanların birliyi ideyası intişar tapmağa başladı, millətlərin şüurunda oyanış, dirçəliş baş verdi. Bu proseslərdə isə həmin dövrdə yetişən yeni, mütərəqqi fikirli ziyalı təbəqəsi və ruhanilər öz sözlərini deməyə başladılar.

Həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən və xalqın maariflənməsi yolunda çalışan ziyalıların əksəriyyəti çarizmin "məhsulu" olan məzhəb ixtilaflarının ləğv edilməsi uğrunda hərəkata başladı. Mirzə Fətəli Axundov dövrün dini mənzərisini belə təsvir edirdi: "Bizdə birlik yoxdur. Qafqazda məskunlaşan müsəlmanlar iki məzhəbə bölünmüşlər: onların yarısı şiələr, qalanları isə sünnilərdir..." [1, s. 300]. Bunları nəzərə alan azərbaycanlı maarifçilər məzhəblərin birliyi, vəhdəti üçün çıxışlar edirdilər. Sözsüz ki, bu çıxışların müəyyən dərəcədə cəmiyyətə təsiri olurdu. Bu mənada rusiyalı publisist və şərqşünas V.L.Veliçko deyirdi: "Son zamanlar Zaqafqaziyanın müsəlman rayonlarında sünnilər və şiələr arasında çox xarakterik yaxınlaşma müşahidə olunur".

Bu yaxınlaşma “ümumi əlverişsiz həyat şəraiti ilə... diqtə olunurdu ki, bu da müsəlmanları əvvəlki fikir ayrılığını və dartışmaları” yaddan çıxararaq birlik axtarmağa məcbur edirdi [2, s. 179].

Belə bir dövrdə Azərbaycanda milli mətbuat yaranmağa, formalaşmağa başladı. Onlardan biri və ilki Həsən bəy Zərdabinin redaktoru olduğu “Əkinçi” qəzeti (1875-1877) idi. Bu mətbu orqanın meydana çıxması Azərbaycan üçün əlamətdar hadisə oldu. Azərbaycan jurnalistikası tarixində ilk dəfə H.Zərdabinin timsalında mətbuata kütləvi informasiya vasitəsi, maarifçiliyin əsası, ictimai-siyasi şüurun formalaşması faktı kimi yanaşdı. Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrilən “Əkinçi” ilk buraxılışdan oxucularına “hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun”, “yaxşı-yamanlığı aşkar eləsin”, “xalqın hər bir dərdi və xahişi o qəzetdə çap olunsun ki, o qəzetə baxan xalqı aynada görən kimi görsün” kimi dərin mənalı fikirlər təlqin etməyə başladı. “Bizim şəriətimizə görə, qulu azad etmək çox böyük savab olduğunu bilə-bilə özümüz öz xahişimizlə bir-birimizə qul olmuşuq”, - deyən H.Zərdabi İslam dininin bəyan etdiyi mənəvi-əxlaqi dəyərlər və prinsiplər kontekstindən çıxış edərək insan hüquqlarını önə çəkirdi. “Əkinçi”, eyni zamanda İslamda mövhumatı və dini fanatizmi qəbul etmir, dini ayinləri həyata keçirərkən Quranda nəzərdə tutulan qaydalardan kənara çıxmaları zərərli hal hesab edirdi. Aşura günü başyarmanın əleyhinə müzakirə açan qəzet bu halın İslam qayda-qanunları ilə bir araya sığmadığını göstərirdi.

H.Zərdabinin maarifçilik ideyasının daşıyıcısı olan “Əkinçi” qəzeti milli təfəkkürlü ziyalılar nəslinin yetişməsində böyük tarixi xidmətlər göstərdi, özündən sonra bir sıra milli mətbu nümunələrin nəşrinə cığır açdı. Ünsizadə qardaşlarının yaratdıqları “Ziya” (sonradan “Ziyayi-Qafqaziyyə”) və “Kəşkül” (11 nömrədən sonra qəzetə çevrilmişdir) kimi nəşrlər məhz “Əkinçi” ənənələrindən bəhrələnərək milli mətbuatın inkişafına təkan verdi.

XIX əsrin sonlarında müsəlman ruhanilərdən də bir çoxu Azərbaycanda milli özünüdərk və milli oyanış prosesinin önündə gedənlərin sırasında yer almağa başladılar. Qeyd edək ki, İslam dini və şəriətini olduğu kimi öyrənib insanlara çatdırmaq, onun prinsip və ehkamları barədə kamil, doğru-dürüst fikir yürütmək müsəlman ruhaniləri və din xadimlərinin üzərinə düşən vəzifələrdən biri və ən əsasıdır. Müsəlmanlar adıçəkilən məsələlər barəsində onlardan bəhrələnməli, soruşmalıdırlar. Necə ki, Qurani-Kərimdə buyurulur: **“...Əgər (bunu) bilmirsinizsə, zikr (kitab, elm) əhlindən soruşun!...”** [3, Nəhl, 43]. Ayədən məlum olur ki, nəinki dini mövzularda, hətta istənilən bir sahədə nə isə öyrənmək, əxz etmək lazımdırsa, həqiqi elm və ixtisas sahibi olan şəxslərə - “zikr (kitab, elm) əhlin”ə müraciət edilməlidir. Ümumiyyətlə, ruhani dedikdə mənəviyyat, ruhaniyyət aləmi ilə məşğul olan ali şəxs nəzərdə tutulur; onun üçün maddi həyat keçicidir, məşğul olduğu sahə, yəni ruhaniyyət və din aləmi ruhunu, qəlbini qidalandırır. Bu qidadan bəhrələnən ruhani isə insanların dinə, mənəviyyata olan tələbatını ödəyir, bir sözlə, onların ruhi sağlamlığının qayğısına qalır. Odur ki, ruhaniliklə və ya axirət dünyasının bələdçiliyi ilə məşğul olan din xadimlərinin, xüsusilə də müsəlman din xadimlərinin üzərinə daim böyük məsuliyyət düşmüşdür.

Azərbaycanlı ruhanilər də sözügedən dövrdə bu məsuliyyətdən dolayı maarifçiliklə məşğul olur, məscidlərdə milli şüurun inkişafına yönələn moizələr oxuyur, İslam və türk dünyasında baş verən prosesləri diqqətlə izləyir, əhali arasında təbliğat aparırdılar. Bu baxımdan onların milli mətbuatımızın təşəkkül tapması və inkişafı sahəsində oynadıqları rol da danılmazdır. Belə ki, azərbaycanlı ruhanilər milli azadlıq ideyalarının daşıyıcıları olan ziyalılarla yanaşı, milli mətbuatın

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

yaranması və inkişafına xüsusi önəm verir, dini-mənəvi ideyaların geniş kütlələrə mətbuat vasitəsilə çatdırılması perspektivlərini düzgün qiymətləndirir, mətbuatın, jurnal və ədəbi dərgilərin yaranması və inkişafında yaxından iştirak edirdilər. Onların arasında Hacı Səid Əbdürrəhman Ünsizadə xüsusilə seçilirdi. Azərbaycanda "Əkinçi" qəzetindən sonra ilk mətbu orqanı - 1878-ci ildə işıq üzü görən "Ziya" qəzetini məhz o təsis etmişdi [4, f. 291, s. 1, i. 577, v. 48]. Qeyd etmək lazımdır ki, "Ziya" İslam birliyi ideyasının tərəfdarı olmaqla yanaşı, xalqın maariflənməsinə, Avropanın elmi yenilikləri ilə oxucuların tanışlığına, ədəbiyyata yeni baxışın formalaşmasına əsaslar yaratdı və Azərbaycanda mətbəəçilik işi quruldu. İslam mədəniyyətinə dərindən bələd olan və yüksək dini bilik sahibi S.Ünsizadə 1867-ci ildən Şamaxı Şəriət Məclisinin, 1873-cü ildən Bakı Sünni Quberniya Məclisinin üzvü olmuş [4, f. 291, s. 1, i. 577, v. 45], 1877-ci ildə Qafqaz Canişinliyi Baş İdarəsi tərəfindən Zaqafqaziya Sünni Ruhani İdarəsinin üzvü vəzifəsinə seçilmiş, 1879-cu ildə isə həmin vəzifəyə təsdiq olunmuşdur [4, f. 291, s. 1, i. 577, v. 20]. Vəzifəsi ilə əlaqədar Tiflisə köçən S.Ünsizadə ruhani idarənin üzvü kimi məktəb və mədrəsələrə nəzarət etmiş, xalqın maariflənməsi yolunda müxtəlif tədbirlər həyata keçirmişdir. Tiflisdə yaşadığı müddət ərzində şəhərin ədəbi-mədəni mühiti Hacı Səid Ünsizadəyə böyük təsir göstərmiş, qəzet nəşri və mətbəəçilik kimi dövrün mütərəqqi ideyasını həyata keçirməyə imkan yaratmışdır. "Ziya" bu barədə belə yazırdı: "Neçə vaxt idi ki, mətbəə və mətbuat işini əmələ gətirmək arzusunda idik ki, mətbəəmiz Bərgunə şəhərdə olsun ki, orada cümlə əsbab mühəyya olsun. Aşkardır ki, Qafqazda Tiflisdən başqa bu mətalibin pinerəftinə şayistə yer yoxdur" [5, № 16]. S.Ünsizadə müsəlman dövlətlərində çıxan qəzetlərdən ümumislam birliyinə çağırış xarakterli yazıları naşiri olduğu qəzetdə dərc edir, Azərbaycan müsəlmanlarının milli özünüdərk prosesini sürətləndirməyə çalışırdı. Əbəs yerə deyildi ki, "Axtarış" qəzetindən götürülmüş və "Ziya" qəzetində dərc olunmuş məqalədə deyilirdi: "Guya Londondan alınan bir teleqrama görə, Ərəbi Paşa yoldaşlarının maddi təminatı, vəzifə və təltiflərinin saxlanması və ona Şam (Suriya) ətrafında yaşamağa icazə verilməsi şərtləri müqabilində sülhə razılıq vermişdir"[6, № 22]. Bu məlumatın yalan olduğunu sübuta yetirmək üçün onun "Əlfistan" qəzetində dərc olunmuş çıxışının tərcüməsini veririk, bu yazı, ümumiyyətlə, bütün misirlilərin və Ərəbi Paşanın vətənsevərliyini və məramlarını açıqlayır: "Artıq neçə vaxtdır ki, Şərqdə və Qərbdə yaşayan din qardaşlarımız düşmən tapdağı altında inləməkdədirlər... Dağıstan və Çərkəz vilayətlərini bizdən aldılar, Buxara, Xivə, Qaşqar, Səmərqənd, Kokand və İranın bir hissəsi düşmənlər tərəfindən tapdalanaraq yadellilərin hakimiyyəti altına düşdülər, biz isə mağara sakinləri kimi hələ də ayılmırıq. Düşmən zor gücünə bizdən Rumıniyanı, Bolqarıstanı.., Odessanı, Krımı, Batumu, Qarsı...aldı. Ey Müsəlmanlar və Osmanlılar! Laqeydlik yuxusundan qalxın və dünyaya ibrətamiz nəzərlərlə baxın" [4, f. 291, s. 1, i. 577, v. 35-36]. Yəqin ki, Hacı Səid həmin məqaləni təsadüfən seçməmiş, məqsədli şəkildə öz qəzetində dərc etmişdi ki, müsəlmanların diqqətini müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparan Misir xalqının nümunəsində bütün dünya müsəlmanlarının həmrəyliyi məsələsinə və məzhəb ayrılıqlarına son qoyulmasına yönəltsin. Bu isə çar Rusiyası məmurlarını çox narahat edirdi. Onlar yaxşı bilirdilər ki, S.Ünsizadənin mətbu fəaliyyəti imperiyanın müsəlmanlar yaşayan vilayətlərində əhali arasında çarizmə qarşı narazılıqların artmasına, sakitliyin pozulmasına səbəb ola bilərdi, başqa sözlə desək, azərbaycanlı din xadimi artıq imperiya üçün real təhlükə idi. Çar məmurları guya ki, sünni əhalinin belə hərəkətlərə görə din xadiminə nifrət bəslədiklərini iddia

edir, əslində isə imperiya maraqlarını bu yolla pərdələməyə çalışır, Hacı Səidi gözdən salmaqdan ötrü yerli camaatın adından saxta məktublar hazırlatdırırdılar. Məhz bu səbəblərdən idi ki, 1883-cü ildə Bakı Sünni Quberniya Məclisinin sədri təyin edilən S.Ünsizadə 1889-cu ildə həmin vəzifədən azad edildi [4, f. 291, s. 2, i. 874, v.1], o, müfti vəzifəsinə seçilmədi, naşiri olduğu qəzet isə 1884-cü il iyulun 2-də bağlandı [7, s. 618]. Əslində isə yerli əhali mütərəqqi din xadimi olan Hacı Səid Ünsizadəni yüksək qiymətləndirirdi. Qeyd edək ki, 1878-1879-cu illərdə "Ziya" (Tiflis), sonrakı illərdə isə "Ziyayi-Qafqaziyyə" adı ilə (1880-1882-ci illərdə Tiflis, 1883-1884-cü illərdə Şamaxı) cəmi 104 nömrəsi çıxan qəzetdə İsmi Sədrəddinbəyov, Möhsün Qübbən, Qumri Dərbəndi, Məşədi Məhəmməd Şirvani kimi dini motivli yazılar yazan müəlliflər də çalışmış, qəzet XIX əsrin sonunda "Əkinçi"nin bağlanmasından sonra milli mətbuatdakı boşluğu doldurmuş, Azərbaycan mətbuatı tarixinə öz möhürünü vurmuşdur.

XX əsrin başlanğıcında bilavasitə ruhanilərin mətbu orqanının təsis olunması məsələsi qaldırıldı. Lakin çarizm həmin dövrdə müsəlman ruhaniliyinə etibar etmir, milli mətbuatı sıxışdırır, mətbuatda ana dilində dini məsələlərin qaldırılmasından ehtiyatlanır, ana dilində çıxan mətbu orqanları bağladır, rusdilli mətbuatın yayılmasına üstünlük verirdi. Ancaq hökumətin bu cəhdləri səmərəsiz olurdu, çünki əhalinin böyük bir qismi rus dilini bilmirdi və təbii ki, rusdilli mətbuatı oxumaq imkanlarından məhrum idi. Yalnız məcburiyyət qarşısında qalaraq, həm də "imperiyanın mənafeyi naminə fəaliyyət göstərəcəyinə" əmin olduqdan sonra hökumət Məhəmməd ağa Şahtaxtlının redaktorluğu ilə, "türk dilinin Azərbaycan ləhcəsində" "Şərqi-rus" qəzetinin (1903-1905) nəşrinə icazə verdi. Bundan bir müddət sonra özlərinin mətbu orqanını açmaqda çətinlik çəkən həm şiə, həm də sünni ruhani idarələri "Şərqi-rus" qəzetinə ruhani işlərinə xüsusi səhifə ayrılması təklifi ilə müraciət etdilər. M.Şahtaxtlı onların bu təklifini müsbət qarşıladı. O, 27.11.1903-cü il tarixli cavab məktubunda bildirirdi: "…Əlbəttə, bizim ruhaniliyə mətbuat vacibdir. Müsəlman ruhaniliyinə və müsəlman əhaliyə aid olan hökumət qərarları və göstərişləri ruhaniliyin mətbu orqanı olmadığı halda yalnız əhalinin az bir qisminə çatdırıla bilər. Ruhaniliyin içərisində rəsmi sənədlərin Şərq dillərinə yüksək səviyyədə tərcümə edilməsi üçün yaxşı hazırlıqlı tərcüməçilər yoxdur. Ruhani idarəsinə mənim nəşrim tərəfindən göstərilən bu xidmət yalnız o halda həqiqi fayda verə bilər ki, bütün quberniya və qəza qazıları, prixod mollaları üçün "Şərqi-rus"a abunə yazılışı məcburi olsun, necə ki, erməni ruhaniliyi üçün "Ararat" jurnalına abunə yazılışı məcburidir" [4, f. 290, s. 12, i. 7697, v. 1-10].

"Şərqi-rus" Azərbaycanda ictimai fikrin inkişafı tarixində mühüm yerlərdən birini tutdu, qəzetdə mədəniyyət, ədəbiyyat, dil məsələlərinə xüsusi yer verildi, maarifin yayılması, məktəblərdə tədrisin yaxşılaşdırılması kimi məsələlər qaldırıldı. Şübhəsiz ki, M.Şahtaxtlı bütün bunları Zaqafqaziya müsəlmanlarının necə adlandırılmasından başlayırdı və milli düşüncəyə yeni əhval-ruhiyyə gətirirdi. O yazırdı: "Son vaxtlar Zaqafqaziya müsəlmanlarına onların dinlərinə görə yox, xalqlarına görə ad verməyə çalışaraq, Zaqafqaziya İslam əhlini Qafqazda rus dilində tatar adlandırmağa başlamışlar. Amma bu yeniliyi heç cür uğurlu hesab etmək olmaz. Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı" [8, № 93]. Vurğulamaq lazımdır ki, M.Şahtaxtlının "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" məqaləsi o dövr üçün böyük hadisə, cəsarətli

addım idi. Əlbəttə, bu, onun jurnalist qətiyyətindən, İslam tarixi və fəlsəfəsini çox gözəl bilməsindən irəli gəlirdi. Həqiqətən, M.Şahtaxtlı publisistik fəaliyyətində İslamda təriqət və məzhəb ayrılığına qarşı çıxmış, ilkin İslam ideyasının tərəfdarı olmuşdu. O, İslamı təkcə dini inanc kimi deyil, həm də sosial-psixoloji yaşantı və fəlsəfi dünyagörüşü kimi dəyərləndirmişdir.

1905-1907-ci il Birinci Rus inqilabı azərbaycanlı ziyalıların siyasi fəallığının kəskin şəkildə artmasına rəvac verdi. Artıq bu dövrdə "Kaspi" (1881-1919) qəzetinin səhifələrində İslam dini, onun ayin və mərasimləri, İslam tarixi, məzhəb və təriqətləri, eləcə də İslamın elmə, maarif və tərəqqiyə münasibəti, İslam ruhaniliyi və s. kimi məsələlərə dair din xadimləri, mütərəqqi fikirli ziyalılar və publisistlər çıxışlar etməyə başladılar. Onlar "Kaspi"nin səhifələrində çoxlu məqalə dərc etdirirdilər [9]. Həmin məqalələrin bir qismini görkəmli ictimai xadim, jurnalist, pedaqoq və yazıçı Əhməd bəy Ağaoğlu (Əhməd bəy Ağayev) yazırdı. O, daha çox İslam dini ilə bağlı məqalələr yazaraq "Kaspi"də çap etdirirdi. Ə.Ağaoğlu özünün məşhur "Maariflənmə ehtiyacları" məqaləsində İslamın tarixinə, İslamın elmə, maariflənməyə və inkişafa münasibətini açıqlayır, ciddi təhlillər aparırdı [10, № 225]. Ə.Ağaoğluya görə, "din daxili nurlanma və əxlaqi kamilləşmənin mənbəyidir" [11, № 235]. "Bu mahiyyəti sonsuz olaraq inkişaf etdirmək, onu insanların qanına və canına yeridib, müqəddəs hala gətirmək, məhz peyğəmbərlərin vəzifəsidir" [12, № 69].

Bu dövrdə "Həyat" (1905-1906) və "İrşad" (1905-1908) qəzetlərində də çarizm tərəfindən ortaya atılan və məzhəbçiliyə yol açan təfriqələrin, münaqişələrin aradan qaldırılması, Zaqafqaziya müsəlmanlarına xidmət edən ruhani idarələrin çar üsul-idarəsinin təsirindən qurtulması, milli qurtuluşa gedən yolun cəmiyyətin təhsilindən, mədəni inkişafından keçməsi və s. məsələlər ətrafında geniş mübahisələr açılmışdır. Təriqətlərarası savaşın xalqın birliyinə əngəl olduğunu önə çəkən Ə.Ağaoğlu "Həyat" qəzetində bu problemə toxunur, xalqın mənəvi tənəzzülünə səbəb olan bu faktor barəsində yazırdı: "Necə ki, çox adamlara məlumdur, bu axırlarda bəzi fəsad və fitnəçilər çalışırdılar ki, Qafqaz şiə və sünni müsəlmanlarının arasına büğz və ədavət salıb ortalarına cədvəl və cidal salsınlar" [13, s. 74]. "İrşad"da ilkin İslamın təriqətlərə parçalanması pislənilir, dini təfəkkürün vəhdət ideyası gücləndirilir, İslamın təməl faktorlarının bərpasına diqqət yönəldilirdi. Məzhəb ayrı-seçkiliyini ciddi tənqid edən Ə.Ağaoğlu bu ümummilli problemin nəzəri həllinə çalışırdı. O, "Qəzetimizin məsləki" adlı məqaləsində yazırdı: "Başqa xalqlar irəli getdiyi halda, tərəqqi yolunda əlçatmaz dərəcədə bizdən aralandığı bir zamanda, biz müsəlmanlar uzun sürən yuxudan min ildən bəri başımıza, dilimizə, ağzımıza, əqlimizə, qəlbimizə, xəyalımıza və fikrimizə döyülən şillə və yumruqlar sayəsində şimdi baş qalxızıb, yoldaşları getmiş görüb, özümüzü, əshaf kəhf (əslində Əshab-kəhf – Ə.R) əhvalatında deyildiyi kimi, "səhrada tək-tənha görüb mat və məəttəl bir-birimizə deyirik: nə çox yatmışıq. Qəzetimizdə yuxuya qalıb yatmağımızın səbəbini bəyan edəcək, millətimizi qəflət yuxusundan oyanıb karvan dalınca sürətlə getməyə dəvət edəcəyik. Sübh sadiq xoruzu kimi biz daima bu nəğməni virdən edəcəyiz: oyanın, oyanın, ey qəflət yuxusuna uyanlar! ...Özgə tayfalar... qanlarını insaniyyət yolunda qurban verib öz vətənlərini qeyrilərinin təcavüzündən və ya insanların zülm və cövründən azad etmək üçün guşəş edirlər. Biz isə qanımızı, malımızı, öz qardaşlarımızın qanlarını, mallarını hədər etmək yolunda zayə edəriz! Öz-özümüzün vəhşi, heyvan olmağımıza səbəb oluruz!... Bu, hansı din, hansı yolda deyilir?... Bu qəflət və cəhalət sayəsində bir olan ali İslamı min parça etdilər, aramıza ədavət saldılar". Ə.Ağaoğlu məqalənin

sonunda öz fikrinə yekun vuraraq yazırdı: "Budur o xalis və pak niyyətlər ki, qəzetimiz onlara qulluq edəcək, biz müsəlmanları həmvara ittifaq və ittihadə, elm və maarifə, tərəqqi və təaliyə, həqq və həqqaniyyətə dəvət edəcəyiz, bizim qeyri bir qəsdimiz yoxdur. Müvəffəqiyyətlər Allahdandır" [14, № 1].

XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının önündə gedən şəxslərdən biri də Əlimərdan bəy Topçubaşov idi. O, jurnalistliyə başladığı dövrdən etibarən Bakının siyasi və ictimai mübarizə səhnəsinə daxil olmuş, ömrünün sonuna kimi bu mübarizənin ön sıralarında getmişdir. Azərbaycanın milli istiqlal mücadiləsi və dövlətçiliyi tarixində önəmli tarixi yer tutan Ə.Topçubaşov rus və Qafqaz mətbuatında da dərin iz qoymuşdur. Onun "Kaspi" qəzetində nəşr edilən yazıları olduqca aktual və maraqlıdır. Məhz Topçubaşovun redaktorluğu dövründə "Kaspi" qəzeti "ümumrusiya müsəlmanları qəzeti" kimi məşhurlaşmış və oxunaqlı mətbuat orqanına çevrilmişdi.

Topçubaşov özü də "Kaspi"də çox kəskin və problem xarakterli məqalələrlə çıxış edirdi. Məqalələrdən biri "Müsəlmanlar azadlıq hərəkatında" adlanırdı. Həmin məqalədə deyilirdi: "Azadlıq o yerdə yaşayır ki, orda insanlar onun uğrunda ölməyə hazırdır. Kim həqiqəti yaşatmaq istəyirsə, qoy milli-azadlıq hərəkatına qoşulsun və həlak olsun, nəinki, hüquqsuz bir qul kimi yaşasın" [15, № 216]. Bu isə Rusiya müsəlmanları ilə yanaşı, Ə.Topşubaşovun nümunəsində Azərbaycan müsəlmanlarının da milli şüurunun oyanmasından xəbər verirdi. Ə.Topçubaşov Azərbaycanın ictimai-siyasi həyat hadisələrinə toxunan yazılarında maarifçilik çərçivəsindən kənara çıxır, daha çox vicdan, söz, mətbuat azadlığı ilə bağlı publisistik yazılar çap etdirirdi. Elə onun publisistikasını fərqləndirən başlıca cəhət də yüksək ideyalılığı, demokratikliyi və aktuallığı idi. Ə.Topçubaşovun "Kaspi"də çap edilən yazılarında Azərbaycanın dilbər guşəsi olan Qarabağdakı vəziyyətə, ermənilərin azərbaycanlılara qarşı yürütdüyü iyrənc, ekstremist siyasətə və mövcud ziddiyyətlərə xüsusi diqqət yetirilirdi. Onun siyasi və ictimai fəaliyyəti 1917-ci illər Fevral inqilabından və Oktyabr çevrilişindən sonra daha da genişlənmiş, Topçubaşov Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəyə var qüvvəsi ilə qoşulmuşdur.

XX əsrin əvvəllərində Ə.Ağaoğlunun və Ə.Topçubaşovun "Həyat" və "Kaspi" qəzetlərində çap etdirdikləri məqalələrdə sinfi mübarizə pislənir, bütün müsəlmanlar qardaşlığa dəvət edilir, İslam dini və Quran bu qardaşlığın əsası kimi qələmə verilir, müsəlmanların, azərbaycanlıların "öz əməllərində çox ehtiyatla dolanmaları, bəzi rəzail və səfillərə qoşulmamaları", "insana layiq olmayan əməllərdən çəkinmələri" tələb olunur, "...fərmani-hümayündə zikr olunan sərbəsti-ictimai və azadi-sirməzdən bərmurad olub", bütün millət birlikdə "cürbəcür, növbənöv şirkətlər, məclislər, cəmiyyətlər təşkil" etməyə dəvət edilirdi [16, № 95]. Bundan əlavə, ölkədəki müsəlman cəmiyyətinin düşüncəsinə ermənilərlə baş verən etnik münaqişə, bu illər ərzində bütün Cənubi Qafqazda kütləvi toqquşmalar, talanlar daha böyük təsir göstərirdi. Nəticədə, Azərbaycan tarixində ilk dəfə müsəlmanların yerli və təriqət pərakəndəliyindən üstün olan həmrəyliyi yarandı və həmin vaxtdan etibarən əvvəlki dini pərakəndəlik Azərbaycan müsəlmanlarının birgə siyasi fəaliyyəti üçün ciddi maneə olmadı. Məsələn, erməni Daşnaksutyun partiyasının döyüşçü dəstələrinin hərəkətlərinə cavab olaraq 1906-cı ilin yazında Ə.Ağaoğlunun başçılığı altında hərbiləşdirilmiş "Difai" ("Müdafiə") təşkilatı yarandı. Gizli çap edilən bəyənnamələrində təşkilat çox vaxt özünü "Müsəlman milli partiyası" adlandırır və Rusiya hakimiyyət orqanlarını baş verən qanlı hadisələrin

səbəbkarı kimi təqsirləndirirdi. Bununla da "Difai" təşkilatı Azərbaycan müsəlmanlarının çar Rusiyasına çoxillik, həm də məzlumcasına tabeçilik səddini yardı və milli özünüdərk prosesinə təkan verdi [17, s. 57]. Həmin dövrdə bunu Azərbaycan ziyalıları arasında ilk anlayanlardan biri türk-İslam dünyasının yetirdiyi nadir şəxsiyyət, böyük maarifçi və ictimai xadim *Əli* bəy Hüseynzadə oldu. Müasirləri böyük Azərbaycan mütəfəkkiri, milli ideologiyanın ilk carçısı, bayrağımızdakı rənglər simvolikasının müəllifi, milli özünüdərkin və milli istiqlal düşüncəsinin mücahidi, XX əsr Azərbaycan ədəbiyyatında "Füyuzat" (1906-1907) *ədəbi məktə*binin banisi Ə.Hüseynzadənin islamçılıq, millət və vətən qarşısındakı xidmətlərini yüksək qiymətləndirmiş, onu "Qafqaz müsəlmanlarının atası", "K*ülli-müsəlman alə*minin iftixarı", "Q*üzey Günəşi", "Türk dünyasının mücahidi", "M*illiyyətçi və mütəfəkkir", "Yazı ustadı" və s. kimi yüksək epitetlərlə öymüş, təqdir etmişlər. Çünki bu dahi fikir və söz adamı 76 illik şərəfli ömrünün yarım əsrdən çoxunu yorulmadan bütövlükdə müsəlmanlığın inkişafına, Azərbaycan xalqının milli oyanış və özünüdərkinə, maarif və mədəniyyətinin yüksəlişinə, milli dövlətçiliyinin formalaşmasına həsr etmişdi. Əlbəttə, bütün bunlar əbəs yerə deyildi. Çünki Ə.Hüseynzadə ilk təhsilini Azərbaycan dilindən və şəriətdən dərs deyən atası Molla Hüseyn Hüseynzadədən, sonra isə Zaqafqaziya şeyxülislamı olmuş babası Axund Əhməd Hüseynzadədən almış, məhz onların təsiri ilə millət və din sevgisi onda uşaqlıq illərindən formalaşmışdı. *Ə.Hüseynzadənin baş redak*toru olduğu "Füyuzat" jurnalı füyuzat*çılıq jurnalistika məktəbindən əlavə,* Azərbaycanda *müstəqil dövlətçilik ideyasını, konstitusiyalı azad vətəndaş cəmiyyətini yaratmaqda mühüm rol oynadı. Çar Rusiyasının monarxizm və müstəmləkəçilik siyasəti* əleyhinə mübarizə aparan füyuzat*çılar Azərbaycanda demokratizmin qələbəsinə çalışır, ictimai həyatda, milli ədəbiyyat və mədəniyyətdə* islahatların, reformların aparılmasını məqsəd bilirdilər. Ə.Hüseynzadə də dövrünün mütərəqqi ziyalılar*ı* kimi İslamı keçmiş müstəqilliyin rəmzi, müsəlman xalqlarının həyat tərzi və təfəkkür forması hesab edir, ondan məfkurə dayağı kimi istifadə etməyi tövsiyə edirdi.

Beləliklə, məlum olur ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış hərəkatında və milli mətbuatda mütərəqqi fikirli ziyalılarla yanaşı, ruhanilər də böyük rol oynamışlar. Məhz onların sayəsində vətənpərvər, elmli və ziyalı din xadimlərinin yaxından iştirak etdiyi bir sıra mətbu orqanlar meydana çıxmışdır. Belə ki, "Tazə həyat" (1907-1908), "İttifaq" (1908-1090), "Səda" (1909-1911), "Sədayi-vətən" (1911-1912), "Sədayi-həqq" (1912-1913), "Günəş" (1910), "Yeni həqiqət" (1910-1911), "Yeni İrşad" (1912) kimi qəzetlərdə Azərbaycan ruhaniliyinin mövqeyi öz əksini tapırdı. Eyni zamanda, "Hilal" və "Şihabi-sahib" (1910), "Yeni Füyuzat" (1910-1911), "Şəlalə" (1913-1914), "Nicat" (1910-1912), "Haqq yolu" (1911-1912), "Asari-həqiqət" (1912), "Həqiqəti-əfkar" (1912), "Tazə xəbər" və "Son xəbər" (1912-1913), "İqbal" (1912-1914), "İqdam", "Bəsirət" (1914-1920), "Açıq söz" (1915-1918), "Müsavat" (1918), "İstiqlal" (1919-1920), "Müsəlmanlıq" (1917), "İttihad" (1917-1920), "Dirilik" (1914-1917), "Qurtuluş" (1915, 1920), "Qardaş köməyi" (1917) kimi qəzet və jurnallarda, məcmuə və nəşrlərdə dövrün aktual problemləri ilə bərabər, ümumislam məsələlərinə həsr olunan yazılar da dərc olunurdu. Azərbaycan Xalq Cümhuriyyətinin mətbu orqanı olan "Azərbaycan" (1918-1920) isə ilk rəsmi dövlət qəzeti kimi milli mətbuatın tarixində şərəfli yer tutmuş və müstəqillik əldə etmiş bir xalqın, millətin adından danışmaq imkanını reallaşdırmışdır.

## ƏDƏBİYYAT


1. М.Ф.Ахундов. Избранные философские произведения. Bakı: Azərnəşr, 1982.
2. Величко В.Л. Кавказь. Русское дело и междуплеменные вопросы. Bakı: Elm, 1990.
3. Qurani-Kərim (ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev). Bakı: “Azərnəşr”, 1991.
4. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (1805-1920-ci illəri əhatə edən sənədlər).
5. “Ziyayi-Qafqasiyyə” qəzeti/ № 16, Tiflis, 1881-ci il.
6. “Ziya-Qafqasiyyə” qəzeti/ № 22, Tiflis, 11 avqust 1882-ci il.
7. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: 1994.
8. “Kaspiy” qəzeti/ № 93, Bakı, 1891-ci il.
9. Azərbaycan mətbuatı tarixi. Ali məktəb tələbələri üçün dərslik. Tərtibçi və redaktor: A.B.Şahverdiyev. Bakı: Təhsil, 2006.
10. “Kaspiy” qəzeti/ № 225, Bakı, 1893-cü il.
11. “Kaspiy” qəzeti/ № 235, Bakı, 1 noyabr 1903-cü il.
12. “Kaspiy” qəzeti/ № 69, Bakı, 27 mart 1902-ci il.
13. A.Aşırlı. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı: Elm və Təhsil, 2009.
14. “İrşad” qəzeti/ № 1, 17 dekabr 1905-ci il.
15. “Kaspiy” qəzeti/ № 216, 9 noyabr 1905-ci il.
16. “Həyat” qəzeti/ № 95, səh. 62, 14 noyabr 1905-ci il.
17. Tadeuş Svyatoçovski. Rusiya və Azərbaycan: Sərhədyanı bölgə keçid dövründə. İngilis dilindən tərcümə edənlər: Lalə Mircəfərova, Bəylər Hacıyev; Redaktor: Hamlet İsaxanlı. Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2000.

Ахлиман Рустамов

## РОЛЬ ИНТЕЛЛИГЕНЦИИ И ДУХОВЕНСТВА В НАЦИОНАЛЬНОЙ ПРЕССЕ
*(конец XIX - начало XX веков)*

### РЕЗЮМЕ

В конце XIX – начале XX веков одной из проблем, волнующих Российское царство, была идея мусульманского единства. Среди решений, принятых правительством, особое место занимало ослабление исламской пропаганды с целью подавить эту идею. Но, несмотря на усилия царизма, в российских провинциях, где проживали мусульмане и Азербайджане, появилась идея мусульманского единства, в сознании народов произошло пробуждение. В это время в Азербайджане создалась национальная пресса, где наряду с прогрессивно мыслящей интеллигенцией стали работать и духовные лица-патриоты, обладающие глубокими религиозными знаниями. Они выступили против царской политики дискриминации сект; выступая за исламские ценности, восстановление мусульманской солидарности и прав человека, трудились за создание основ азербайджанской идеологии; заложили основу школы национальной журналистики; послужили поводом для возникновения других печатных органов, где принимали близкое участие патриоты, образованные и просвещенные религиозные деятели.

Akhliman Rustamov

## THE ROLE OF INTELLIGENTSIA AND CLERGY IN THE NATIONAL PRESS
*(late XIX – early XX centuries)*

### SUMMARY

In the late XIX – early XX centuries one of the problems disturbing Russian tsarism was the idea of Muslim unity. Among the decisions made by the government, a special place had weakening of Islamic propaganda in order to suppress that idea. Despite the efforts of tsarism, the idea of Muslim unity came out in the Russian provinces, where Muslims and Azerbaijan lived, there was awakening in people’s mind. At this time, the national press was established where together with forward-thinking intelligentsia, patriotic priests with deep religious knowledge started to work. They opposed the reign politics of sect discrimination; by advocating the Islamic values, recovery of Muslim solidarity and human rights, they were trying to establish the bases of Azerbaijani ideology; formed the bases of national journalism school; gave rise to the emergence of other print media where patriots, educated and enlightened religious figures took close part.

# TİBB VƏ İSLAM

***(Azərbaycanda tibb maarifçiliyi tarixindən: Nəriman Nərimanov)***

***Arzu HACIYEVA,***
*AMEA-nın Fəlsəfə İnstitutunun "Azərbaycan fəlsəfə tarixi"*
*şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru,*
*arzuhacıyeva@mail.ru*

***AÇAR SÖZLƏR:*** *N.Nərimanov, tibb, İslam, maarifçilik, fəlsəfə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Н.Нариманов, медицина, ислам, просвещение, философия.*
***KEY WORDS:*** *N.Narimanov, medicine, Islam, enlightenment, philosophy.*

*"...bizim təsəvvürümüzcə təbiətə müvafiq din ancaq İslam hesab olunur. Peyğəmbərimiz insanın bədəninə dürüst diqqət edibdir. Və insanın əxlaq-ətvarını düzəldərkən, ruhunu təmizləyərkən yəqin edibdir ki, ancaq səhhət və afiyətdə olan bir bədəndə ruh səhhət üzrə ola bilər".*

Nəriman Nərimanov görkəmli ictimai və dövlət xadimi olmaqla yanaşı, həm də böyük maarifçi, publisist, yazıçı, dramaturq, pedaqoq, həkim olmuşdur. Mütəfəkkirin fəaliyyətinə və yaradıcılığına nəzər saldıqda onun şərq ruhu ilə aşılandığının, millətinə mənsubluğunu bir an belə unutmadığının şahidi oluruq. Onun nəzəri-fəlsəfi düşüncələrinə xas olan dövrün mühüm ictimai-siyasi, iqtisadi, mədəni məsələlərini daima İslam aləminin, müsəlmanların problemləri ilə əlaqələndirmə meyli bu mənada səciyyəvidir. Maraqlıdır ki, həmin məqam N.Nərimanovun ilk baxışda dindən, məzhəbdən uzaq görünən tibb elminə münasibətində də hiss olunur. Odessada Novorossiysk İmperator Universitetinin tələbəsi olan Nəriman Nərimanov tibbi bilikləri mənimsədikcə tibbin qanunları ilə İslam qanunları arasında uyğunluq olduğunu kəşf edir. Bu yaxınlıq onun üçün müxtəlif xəstəliklərdən əziyyət çəkən, lakin peşəkar həkim müalicəsinə biganə yanaşan müsəlman əhali arasında tibbin əhəmiyyətini anlatmağın tutarlı arqumentinə, ən yeni nailiyyətlərini təblig edib yaymağın təsirli vasitəsinə çevrilir. Təsadüfi deyil ki, Universitetin dördüncü kursunda qələmə aldığı və 1906-cı ildə «Həyat» qəzetinin bir neçə sayında (15, 17, 19 fevral) dərc edilən tibbə dair ilk əsəri «Tibb və İslam» adlanırdı. Həmin məqalənin yenidən işlənib təkmilləşdirilmiş variantı 1910-cu ildə Həştərxanda əvvəlcə hissə-hissə «Bürhani-tərəqqi» qəzetində, bir müddət sonra «ərbabi-maarifin ricası» ilə kitabça [1] şəklində nəşr edilmiş və müəllifə böyük şöhrət qazandırmışdır. N.Nərimanov bu əsəri həyatda «şəfqət fənni»ndən dərs aldığı ilk müəllimi – çox sevdiyi mərhum anası Həlimə xanımın xatirəsinə ithaf etmişdi.

Məzmununa görə əsəri şərti olaraq üç hissəyə bölmək olar. Birinci hissədə tibbin elm kimi yaranması səbəblərindən danışılır, ikinci hissə tibb sahələrindən biri kimi səhiyyəyə – «elmi-səhhət»ə, hifzi-bədən məsələlərinə həsr edilir, üçüncüdə isə bilavasitə gigiyena məsələlərinə

İslamın münasibəti və onun qanunları ilə tibb arasında uyğunluqlar xüsusi olaraq diqqətə çatdırılır.

N.Nərimanov təfəkkürünün fəlsəfi intensiyası onun tibblə bağlı əsərinə də, istər problemin qoyuluşu tərzində, istərsə də şərhetmə və fikir yürütmə özəlliklərində aydın sezilən izlərini salmışdır. Müəllif "Tibb və İslam"ı varlıq haqqında mühakimələri ilə ontoloji məcrada başlayır. Təbiətdə, canlılar arasında gedən həyat uğrunda mübarizənin təsviri əsnasında bütün canlıların özünəməxsus xüsusiyyətləri ilə bir-birindən fərqləndiklərini, onların hərəkət və davranışlarının zərurətdən doğduğunu nəzərə çatdırır. Varlığın ilk baxışda ziddiyyətli görünən cəhətləri, eyni zamanda qanunauyğundur. O, siçan və pişik, milçək və hörümçək timsalında təbiətdə mövcud olan qanunauyğunluqlar haqqında oxucuda təsəvvür yaratmağa çalışır. Məlum olduğu kimi, hər bir canlı özünümüdafiə instinktinə malikdir. Bununla belə, onlar təbiətlərinə xas olan xüsusiyyətlərin qurbanlarına çevrilirlər. Ac siçan çörəyi görüb tələyə düşür, evin yiyəsi tərəfindən öldürülür. Başqa cür də ola bilir: həmin otaqda azuqə axtaran pişik siçanı görüb tutur və tələf edir. Və yaxud milçək də, hörümçək də həşəratdır. Hətta milçək uçmağı bacardığından hörümçəkdən daha xoşbəxtdir. Buna baxmayaraq, çox vaxt biz milçəyin ayaqlarından qıldan nazik sapdan asılıb çabaladığının, xilas olmağa çalışdığının, hörümçəyin öz torunda oturub milçəyi yavaş-yavaş yuxarı çəkdiyinin şahidi oluruq. Halbuki «nə siçan pişikdən ötrü, nə milçək hörümçəkdən ötrü yaranıbdır. Pişik özgə şeylə də həyatını saxlaya bilər; hörümçək birə ilə də dolana bilər. Ancaq birə hörümçək toruna düşməyirsə, səbəb balacalığı və cəldliyidir» [1, s. 4-5]. Allah bu canlıları ona görə yaratmamışdır ki, onlar bir-birini tələf etsinlər. Əksinə yaranmış vücud həyatını qoruduğu zaman ya özünü, ya da başqasını məhv edir. Bütün bu qeyd etdikləri əsasında N.Nərimanov belə bir nəticəyə gəlir: «Ümumi həyata dürüst diqqət etsəniz, yəqin edərsiniz ki, bu böyük müdam müharibədir (mübarizədir – A.H.) ki, cəmi canlı mövcudatın arasında olur. Qüvvətli qüvvətsizə qalib gəlib öz mənfəəti üçün onu puç edir» [1, s. 6]. Onun sadə, zəhmətkeş insanları öz hüquqlarını anlamağa, istismarçılara, zülmkarlara, xalqın qanını soran «hörümçəklər»ə qarşı mübarizəyə səsləyən publisistikası ilə müqayisə etdikdə əsərin bu hissəsində cəmiyyət həyatının alleqorik təsvirini sezməyə, inqilabi, sosial motivi duymaya bilmirsən.

Məsələn, «İki sinfin balaca tarixçəsi. Bu günkü həyəcanlıq» məqaləsində zalımlar və məzlumlar, istismarçılar və zəhmətkeşlər – fəhlələr, kəndlilər arasında münasibət mövzusunu işıqlandırarkən N.Nərimanov yenə milçək, hörümçək misalına müraciət edərək yazır: «Heç kim anadan olanda padşah və ya kəndçi yaranmır. Fəqət burada bir gizlin təbii bir şey varsa, o da hifz-bədən məsələsidir. Hər canlı şey öz vücudunu, diriliyini uzatmaq üçün asan yol aramaqdadır. Milçək diriliyini uzaşdırmaq üçün, yəni bir günlük azuqəsini tapmaq üçün səhərdən axşamadək gərəkdir uça. Bu uçmaq onun zəhmətidir, bu zəhmət onun diriliyini, yaşayışını uzaşdırır. Bununla belə, hörümçəyin zəhmətinə diqqət edərsiniz isə, qeyri bir yaşayış görərsiniz. Hörümçək bir dəfəlik zəhmət çəkib torunu qurar. Qurub da səhərdən axşamadək yuvasında oturar, heç bir iş də görməz… Fəqət axşamlar toruna düşmüş milçəklərin və qeyri cücülərin qanlarını sorub özünə yem edər. Bunun zəhməti demək bu olur: toru bir dəfəlik qurmaq və sonra səhərdən axşamadək yuvasında oturub, axşamlar tora düşmüş milçəklərin

qanını sormaq… Bunun zəhməti ilə milçəyin zəhmətində böyük-böyük təfavüt var… Həmin bu sayaq da qeyri canlı şeylər və insanlar! Hərə bir yol ilə azuqə tapıb yaşayış etməkdədir. Hünəri, qüvvəti, ağlı olan bu azuqəni tapmaq yolunu özü üçün asan edir. Oğurluq etmək asandırsa, oğurluq edir, quldurluq edir, yalan danışır, yetimlərin malını, pulunu yeyir, qeyrisini aldadır, öz yerinə işlədir, zor ilə bir yeri alıb haman yeri öz sahibinə satır, dinini, məzhəbini, vicdanını pula satır. Bunların hamısını edir ki, asanlıqla özünə yem tapsın və diriliyini sürsün…» [2].

N.Nərimanov canlılarda «hifzi-bədən»in, yəni öz bədənini qoruma adlandırdığı təbii özünümüdafiə hissinin həyat uğrunda mübarizəni gücləndirdiyini, insanlarda isə ağlın gücünə, müşahidə və təcrübənin ümumiləşdirilməsi sayəsində elm dərəcəsinə çatdığını bildirir. Tibb elmi insanın təbiətlə təmasından meydana çıxmışdır, yəni insan dünyaya gəldiyi vaxtdan xəstələnərkən öz ətrafında olan bitki və otlardan özü üçün dərman axtarıb. Bu mənada tibb insanın yaranışından mövcuddur. Lakin onun məhz elm mərtəbəsində qərarlaşmasına gəlincə, mütəfəkkir bunu iki amillə: kimyanı bilmək, dərmanların kimyəvi təsirini müəyyənləşdirmək bacarığı və xəstəliklərin əlamətlərini bir-birindən ayırmaq səriştəsinin meydana gəlməsi ilə əlaqələndirir.

O, insanın bəzən təkcə xəstəlik zamanı deyil, hətta bədəni sağlam olanda da, özgə vaxt yeməyə adət etmədiyi bəzi şeyləri, məsələn, uşağın və hamilə qadının kömür, təbaşir yeməsinin qəribəliyinə, yaxud birinin xörəyi hədsiz duzlu, digərinin isə tamamilə şit xoşladığına diqqəti yönəldərək, bu yolla bədənin özünün onda çatışmayan müəyyən maddələrə ehtiyacını təmin etdiyini, maddələr mübadiləsini tənzimlədiyini göstərir. Beləliklə, mətləbi tədricən «Xəstəliyin müalicəsində daha vacib olan dərmandır, yoxsa bədənin özü?» sualının üzərinə gətirib çıxarır və ikincini təsdiq edir. Çünki dərmanlar bədənə kimyəvi təsir göstərir, yəni xəstəliklərin fəaliyyətini məhdudlaşdırıb, artıb şiddətlənməyə qoymasa da, bədənin daxilində yara və çat əmələ gəlibsə, onu sağaltmır, bitişdirmir. Odur ki, «Əvvəlinci dərman şübhəsiz bədənin özüdür. İlk təbib bədəndir» deyə N.Nərimanov insan bədənini özünü nizamlayan, müdafiə və mühafizə edən bir sistem kimi nəzərdən keçirir və təsvir edir, elə bir sistem ki, burada hər bir üzv həm özünü, həm də bütün bədəni təhlükədən, bəladan qorumaq iqtidarındadır. Ürək, ağ ciyər, qara ciyər, böyrək, damarlar, ağ və qırmızı qan kürəcikləri özlərinə məxsus funksiyaları icra edərkən hər an bədəni cürbəcür bəlalardan qoruyur. Xüsusilə bədənə daxil olan zərərli mikrobları məhv etdiyinə görə ağ qan kürəciklərini «bədənin hamisi» adlandırır. Lakin «hami» zəifləyəndə zərərli şeylər bədəni üstələyərək onu məhv edə bilir. Deməli, bədəni xaricdə və daxildə olan «zərərli şeylər»dən uzaqlaşdırmaq olsa, o zaman onun çox yaşamaq şansı artar. Yeri gəlmişkən, bu fikri Kafiəddin Ömər Osman oğlu hələ XI əsrdə çox gözəl formulə etmişdi. Həkimin müalicə prosesinə fəal müdaxiləsini tələb edən alim, eyni zamanda hər kəsin öz sağlamlığını qorumaq üçün müstəqil səy göstərməsinin vacib olduğu barədə yazırdı: «İnsan özü özünün həkimidir, o, öz orqanizmini öyrənməlidir, — halının nədən pisləşdiyini, nəyin ona rahatlıq gətirdiyini bilməlidir. Dünyada bütün bəlaların (xəstəliklərin) çarəsi vardır, lakin həkim onların heç də hamısından xəbərdar deyil. Həkimə ümid etmə, özünə diqqət et» [3, s. 91].

N.Nərimanova görə, tibbin əsl həqiqi məqsədi məhz bədəni qorumaqdır, onu xəstəlik

tapandan sonra müalicə etməkdənsə, baş verməsinin qarşısını vaxtında almaqdır. Tibb elmində «elmi hifzi-səhhətin», yəni *hiciyyə* – gigiyena adlanan ayrıca şöbənin yaranmasının səbəbi də budur.

O, Məhəmməd peyğəmbərin də tibb elminə, sağlamlığa xüsusi diqqət verməsini yüksək qiymətləndirərək yazır: «…bizim təsəvvürümüzcə, təbiətə müvafiq gələn din ancaq İslam hesab olunur. Peyğəmbərimiz insanın bədəninə dürüst diqqət edibdir. Və insanın əxlaq-ətvarını düzəldərkən, ruhunu təmizləyərkən yəqin edibdir ki, yalnız səhhət və afiyət olan bir bədəndə ruh səhhət üzrə ola bilər» [1, s.18-19]. Beləliklə, məşhur «*Mens sana in corpore sano*», yəni «Sağlam bədəndə sağlam ruh olar» latın aforizmi İslam dini daxilində öz təsdiqini tapır, yeni məzmunla zənginləşir.

N.Nərimanov orta əsrlərdə Ərəbistanda kimya və tibbin böyük tərəqqisini əsaslandırmaq üçün fransız alimi Qustav Lebona (1841-1931) müraciət edir və onun «Ərəb sivilizasiyasının tarixi» əsərinə (1884) (burada «ərəb sivilizasiyası» ifadəsi altında Afrikadan Hindistana qədər İslamın yayıldığı bütün ərazi nəzərdə tutulurdu – A.H.) istinad edərək bu ərazilərdə fiziologiya, ümumi patologiya, gigiyena kimi tibb elmlərinin öyrənildiyini, yeni müalicə üsullarının kəşf edildiyini, Razi Bağdadi və Əbu Əli ibn Sina kimi müsəlman həkimlərinin Avropada məşhur olmalarını, İbn Sinanın əsərlərinin altı yüz ildən artıq bir müddətdə Avropa universitetlərində tədris edildiyini iftixarla oxuculara çatdırır. Bu zaman tibb sahəsində bütün uğurların məhz peyğəmbərdən sonra əldə edildiyini xüsusi olaraq nəzərə çatdırır. Göstərir ki, İslam şəriətində hifzi-bədən o dərəcədə böyük əhəmiyyət kəsb edir ki, hətta bədəni qorumaq lüzumu ortaya çıxanda, bir sıra vacib dini qadağalar, əməllər belə «legitimliyini» itirir. Məsələn, şəriət adamın xəstə halda, qocalığında, bədəni zəif olanda, həmçinin hamilə qadına və uşaq əmizdirən anaya oruc tutmağı vacib saymır. İslam yolda, səfərdə olan şəxsə belə, oruc məsələsində güzəştə gedir. Həddi-büluğa çatmamışlar üçün də oruc vacib deyildir. Uşaqlar çox hərəkətdə olur, enerji itirirlər, digər tərəfdən, boy atırlar və sümüklərində bərkimə prosesi gedir. «… Əzaların və bədənin bu artmasına səbəb olan əczalar uşağın gündəlik təamlarındandır» [1, s. 26] deyə N.Nərimanov hər saatda böyüyən və hərəkətdə olduğuna görə enerji itirən uşağın oruc tutub ac qalmasına qarşı çıxır. Belə nəticəyə gəlir ki, xəstəni, qocanı və uşağı ac qoymaq olmaz və «İslamın bu barədə qanunları tibbin qanunları ilə müttəfiqdir».

Bu «müttəfiqlik», uyğunluq hifzi-bədənlə yanaşı, bilavasitə elmi-səhhətə, yəni gigiyenaya da aid edilir, axı həm İslamın, həm də elmi-səhhətin məqsədi bədəni xəstəliklərdən qorumaqdır. N.Nərimanov 1916-cı ildə yazdığı bir məqaləsində elmi-səhhəti «tibbin idealı», «müqəddəs, ali məqsədi» adlandırmış və onun predmetinə obrazlı sadə, dürüst bir tərif vermişdir: «Yəni, hal-hazırda insanın əqli bir nöqtəni özü üçün müqəddəs bir məslək hesab edib ciddi surətdə haman nöqtəyə yeriş edir. Nədir o nöqtə? Yəni, bir dərəcəyə çatmaq ki, insanın bədənini cürbəcür mərəzlərdən nəinki dərman vasitəsilə sağaltmaq və hətta mərəzin qabağını almaq, ya mərəzi bilmərrə puç etmək, ya onu zəifləşdirmək və yainki insanın bədənini bir növ bələmək ki, mərəz ona daxil olsa da, haman bədən mərəzdən zərər görməsin» [4, s. 372].

O, öz sözləri ilə desək, tibbin «böylə bir ağır şöbəsi» [4, s. 375] olan elmi-səhhətin İslamda necə təzahür etdiyini oxucunun daha rahat qavraması üçün gigiyena məsələlərini paklıq, vacib

göstərişlər, yemək-içmək və murdar heyvanlar mövzuları üzrə qruplaşdıraraq dörd ardıcıl bölmədə izah edir. Birinci bölmədə elmi-səhhətin ən əsas şərti olan paklıq, təmizlik ümumi bir məsələ kimi qoyulur: sağlamlığa mühitin təsiri, insanın yaşadığı yerin, geydiyi paltarın, yediyi qida məhsullarının, suyun, göl və quyu suyunun və onlarının təmizliyinin əhəmiyyəti qeyd edilir, həmçinin ətrafımızda cürbəcür xəstəliklərin törədiciləri olub nəmişlikdə sürətlə artıb çoxalan «gözə görünməyən qurdlar»dan – mikroblardan, çirkli əşyaların dezinfeksiyasının vacibliyindən, mikrobları məhv etməkdə suyun, odun, Günəşin hərarətinin və ya qaynatmanın əhəmiyyətindən danışılır.

«Vacib göstərişlər» təmizlik işində suyun xidmətinin xüsusi qeyd olunması ilə başlanır. İslam dininin şərtlərinə əməl edərək, gündə beş dəfə namaz qılan şəxsin hər dəfə ondan əvvəl əllərini, ayaqlarını, üzünü yumasının, ağzını yaxalamasının faydalı olduğunu və «şəksiz bədənə zərər olan şeyləri … özündən» kənarlaşdırdığını bildirən N.Nərimanov namaz zamanı edilən hərəkətlərin bədənə mənfəətini və tibbi müalicənin bir növü olduğunu vurğulamağı unutmur. Digər tərəfdən, İslamda qüslün olması gigeyina üçün də əhəmiyyətlidir. Bədənin yalnız açıqda qalan və yuxarıda sadalanan hissələrini deyil, istisnasız bütün üzvlərinin daim təmiz saxlanılması sağlamlığın mühüm şərtidir; hətta yuyunmaqla yumşaq şankr (yara) və sifilis kimi dəhşətli xəstəliyə aparan bərk şankr kimi zöhrəvi xəstəliklərin qarşısını almaqla qurtulmaq mümkündür. Fikrini əsaslandırmaq üçün N.Nərimanov mikrobların dəriyə düşərək müxtəlif xəstəliklər törətməsi prosesini əyani və sadə şəkildə təsvir edir; eyni zamanda bu baxımdan sünnətin lazımlığını sübut edir, xətnə (yəni sünnət) olunmamışların zöhrəvi xəstəliklərə daha çox tutulduğuna görə Avropada da bu tip cərrahi əməliyyatların yayıldığını xəbər verir…

«Xülasə hansı qanuna baxırsan İslam həmişə insanın ruhunu təmizləyərkən hifz-bədəni unutmur», - deyə müəllif İslamın suya verdiyi diqqət kontekstində tibb tarixinə müraciət edir: qədimlərdən insanlar suyun xeyrini başa düşsələr də, artıq Hippokrat suyun müalicəvi əhəmiyyətinə istinad etmişdi, lakin sonradan bu müalicə üsulu xeyli müddət unudulmuş və həkimlər ona bir də XVIII əsrdə qayıtmışdılar, hətta XX əsrin əvvələrində o, hidropatiya adı altında tibbin xüsusi bir sahəsinə çevrilmişdir. Bu baxımdan N.Nərimanov öz müasiri olan məşhur professor Yanovskinin hamamın sağlamlığa müsbət təsiri barədə fikirləri ilə oxucusunu tanış edərək, müsəlmanların hamamı sevmələrini və müsəlman şəhərlərində hamamların sayının çox olmasını təqdirəlayiq cəhət kimi səciyyələndirir. Lakin elə buradaca onlardan çoxunda antisanitariya şəraitinin hökm sürdüyünə görə insanlara xeyirdən çox, zərər vura biləcəyi faktına da diqqəti yönəldir.

Sonra N.Nərimanov yemək-içmək məsələsinə keçib, İslam tərəfindən donuz ətinin haram edilməsinin səbəblərini aydınlaşdırır. Donuz ətində olan teniya, xüsusən də çox təhlükəli trixin adlı qurdun insan bədəninə daxil olmasından törənən və hətta ölümlə nəticələnə bilən xəstəliyin get-gedə şiddətlənməsini təsvir edir. Göstərir ki, bu qurdun olması bəzilərinin mülahizə etdikləri kimi heç də Ərəbistanın isti iqlimi ilə əlaqədar deyildir. Çünki aparılan müxtəlif elmi araşdırmalar, faktlar, təcrübələr donuz ətinin duzlandığı, 25 dərəcə şaxtada saxlanıldığı halda belə bu qurdların ölmədiyini sübut edir. «İslam isə ləhmi-xinziri (donuz ətini) 1328 il bundan müqəddəm müsəlmanlara haram edibdir. Dürüst diqqət ediniz, bu uzun müddətdə neçə yüz

minlər, bəlkə milyonlarca müsəlmanları bu bəladan xilas edibdir, edir və edəcəkdir!» deyə bu barədə fikirlərini tamamlayır.

Bütün bunlardan əlavə, o, İslam dininin haram saymaqla spirtli içkilərin «fəsad və zərərindən» minlərlə insanı qoruduğunu söyləyib, bunu İslamın «insaniyyətə böyük xidmət»i kimi dəyərləndirir. Belə ki, ümumilikdə orqanizmə mənfi təsir edən spirtli içkilər bir sıra üzvlərdə xəstəliklər törədir, sifilis və süzənək kimi xəstəliklərin şiddətlənməsinə gətirib çıxarır, eyni zamanda alkoqolizm adlanan ayrıca bir xəstəliyin yaranmasına bais olur. Xristian dövlətlərində, xüsusilə çar Rusiyasında «Obşestvo trezvosti», yəni ayıqlıq cəmiyyətləri təsis edilməsinə və bu işə milyonlarla pul xərclənməsinə baxmayaraq, yenə araq, şərab öz təsirini göstərir, milyonlarla həyat puç olur, ailələr dağılır, uşaqlar yetim qalırdı. N.Nərimanovu narahat edən bu «yaman bəla»nın müsəlmanlar arasında da intişar tapması, içkiyə qurşananların sayının getdikcə artması idi. O, tibblə bağlı məqalələri və kütləvi mühazirələri ilə bunun qarşısını almağa çalışırdı. «Prikaspiyskiy kray» qəzeti 4 fevral 1911-ci il tarixli sayında doktor Nərimanovun «Şurayi-İslam» binasında alkoqolizm barədə oxuduğu leksiyanı dinləyicilərin (onların arasında molla, axundlar da vardı) "Allah neməti kimi qəbul" etdiklərini xəbər verirdi [5, s. 136].

«Tibb və İslam» kitabının xülasəsindən də göründüyü kimi, N.Nərimanov təbiətdə mövcud olan qanunauyğunluqlar və ziddiyyətlər fonunda həyat uğrunda mübarizənin inkişafın mühüm amili olduğunu qəbul etmiş, həmin mübarizə zəminində yaranan tibb elminin bir sıra göstərişlərinin şəriətə müvafiq gəldiyini inandırıcı dəlillərlə sübuta yetirmiş, bu normalara riayət olunmasını zəruri və vacib saymışdır. Bu fikirləri o, həmişə, o cümlədən mühüm tədbirlərdə dönə-dönə təkrar etmişdir. 1911-ci ilin aprelində Həştərxanda həkimlərin ikinci quberniya qurultayı keçirilirdi. Korjenyans adlı bir həkim "Həştərxan quberniyasında traxomanın yayılması" haqqında məruzəsində müsəlmanlar arasında traxomanın yayılmasının səbəbini onların guya pinti, natəmiz olmaları ilə izah edir. Düzü, Korjenyans soyadı daşıyıcısından bu cür millətçi mühakimə əslində təəccüblü görünmür. N.Nərimanov onun sözlərini qulaq ardına vurmur, çıxış edib kökündən səhv olduğunu qurultay iştirakçılarının nəzərinə çatdırır. «Müsəlmanlar namaz qılmaq üçün şəriətə görə gündə beş dəfə əl-üzlərini və dirsəyə qədər qollarını yumalıdırlar. Şərqə bələd olan şəxs, yəqin ki, bilər, müsəlmanlar yaşadığı yerlərdə həmişə hamam çox olur. Bundan da görünür ki, müsəlmanlar yuyunmağı nəinki sevirlər, həm də şəriətə görə, tez-tez dəst-namaz almağa məcburdurlar. Deməli, tatarlar arasında natəmizlikdən əsla söhbət gedə bilməz" deyə millətçi, naşı rəyə etirazını bildirir [6, s. 261]. Bu fikir bir qədər başqa şəkildə N.Nərimanovun böyük alim, fiziologiya və tibb sahəsində Nobel mükafatı laureatı İ,İ.Meçnikovun şərəfinə Həştərxanda (alim buraya vəba epidemiyası ilə mübarizə məqsədilə gəlmişdi) keçirilən yığıncaqda (1911-ci ilin mayı) «Şurayi-İslam» cəmiyyəti adından etdiyi məruzəsində də səslənir. Məruzədə o, Meçnikovun təbii tibbi elmlərin köməyi ilə özünümühafizə məsələləri haqqındakı dəyərli fikirlərinin müsəlman üçün özünümühafizə məsələlərinə dair şəriət qanunları ilə üst-üstə düşdüyünü qeyd etmişdi.

Ümumiyyətlə, cansağlığının qorunmasında İslamın sağlamlığa dair qanunlarının əhəmiyyətini təsdiqləmək üçün onları tibb sahəsində böyük kəşflər etmiş avtoritetlərin fikirləri ilə müqayisə etmək N.Nərimanova xasdır. Məsələn, o bu məqsədlə «Tibb və İslam»da öz

müasirləri – fransız Qustav Lebon, alman Osvald Şmideberq, ukraynalı Feofil Yanovski kimi məşhur alimlərin, təbiblərin əsərlərinə müraciət etmişdir.

N.Nərimanov məsələlərə yanaşmada özünəməxsus metodoloji konsepsiyaya arxalanırdı. Bu konsepsiya iki əsas prinsip üzərində qurulmuşdu: cəmiyyət qarşısında müzakirəyə çıxarılan məsələyə qərəzsiz yanaşılmalı və bu barədə irəli sürülən fikirlər cəmiyyətin əsas kütləsi üçün aydın, anlaşıqlı olmalıdır. Yəni hər hansı bir mövzuda kitab və ya məqalə yazmağa girişən şəxs, onun fikrincə, bunu, «kimin üçün və nə məqsədlə» etdiyini bilməlidir, başqa sözlə, məqsəd və məramı özünə aydın olmalıdır. Mütəfəkkir «Tibb və İslam» da daxil olmaqla tibbə dair yazdığı əsərlərində bu prinsipdən çıxış edir, müraciət etdiyi və bələd olduğu müsəlman auditoriyasının psixologiyasını, mental xüsusiyyətlərini, dini baxışlarını, sosial-mədəni və məişət səviyyəsini həmişə nəzərə alırdı. Məqsədi isə epidemiyaların baş verdiyi, müxtəlif ağır yoluxucu xəstəliklərin yayıldığı bir zamanda bunların qarşısını almaq üçün xalqı tibbi cəhətdən savadlandırmaq idi.

Çağdaş tibbin həm nəzəri, həm praktiki, həm də texniki sahədə qazandığı nailiyyətlər möhtəşəmdir: insan bədənində gedən prosesləri izləməyə, xəstəliyin tez və dəqiq diaqnozunu qoymağa, əvvəllər görünməmiş, orqanların transplantasiyası kimi mürəkkəb cərrahi əməliyyatları həyata keçirməyə imkan verən avadanlıqla təchiz edən yeni texnologiyalar icad olunmuş, gigiyena sənayesi yaranmış və inkişaf etmişdir. Həkimlər dövrümüzün bəlası olan narkomaniya, xərçəng, spid kimi dəhşətli xəstəliklərlə müvəffəqiyyətlə mübarizə aparırlar. Bununla belə, N.Nərimanovun tibbə dair əsərlərində bəhs etdiyi xəstəliklər kütləviliyini itirməsinə, daha effektiv müalicə yolları tapılmasına baxmayaraq, bu gün də var. Onun gigiyenanın əhəmiyyəti, donuz ətinin, spirtli içkilərin ziyanı, sünnətin vacibliyi və s. haqqında mülahizələrinin doğruluğunu müasir tibb, bir çox Avropa alimləri yeni dəlillərlə təsdiq edir.

Tibb sahəsində maarifçiliyinə gəlincə isə o da hazırda yeni, daha yüksək səviyyəyə çatıb. Hər hansı bir xəstəlik haqqında – yaranma səbəblərindən tutmuş müalicəsinə qədər – məlumat almaq istəyən, nəinki kitab bazarında çoxlu kitab tapar, hətta istənilən zaman internetdə yetərincə zəngin ədəbiyyatla tanış ola bilər. Eləcə də İslamın və elmi tibbin əsas məqsədinin ümumiliyini cəmiyyətdə insanların mənəvi və fiziki cəhətdən sağlam olmasında görüb, onların prinsiplərinin bir-birinə uyğun gəlməsi, bənzərliyi haqqında kitablar, mətbuatda dərc edilən məqalələr, internet materialları az deyil. Hətta internetdə 2008-ci ilin aprelində Tatarıstanın Kazan şəhərində «İslam və tibb» mövzusunda müsəlman təbiblərin elmi-praktik konfransı haqqında bir məlumat da vardır [7]. Bu gün son dərəcə aktuallaşan tibb və İslam arasında əlaqə-münasibətlər məsələsini ilk dəfə ötən əsrin əvvəllərində bir həkim və mütəfəkkir olaraq elmə gətirən, kütlənin diqqətini onun üzərinə yönəldərək müzakirələr mövzüsuna çevirən N.Nərimanov olmuşdur. Ondan əvvəl belə təcrübə yox idi (hər halda ciddi araşdırmalarım bu barədə heç bir yeni məlumat üzə çıxarmadı). Əfsuslar olsun ki, bunu çox vaxt unudurlar. Vaxtında böyük uğur qazanmış, məşhur “Tibb və islam” əsərinin yazılmasından bir əsrdən də çox keçməsinə baxmayaraq, o, mədəni-tarixi dəyərini bu gün də saxlamaqdadır.

## ƏDƏBİYYAT


1. Nərimanov N. Tibb və islam. Hacıtərxan (Həştərxan), Hicri: 1328-ci il, Miladi: 1910-cu il. (ərəb əlifbası ilə).
2. «Hümmət» qəzeti/ № 26, 10 yanvar 1918-ci il.
3. Эфендиев И.К. История медицины в Азербайджане с древнейших времен до XIX века. Баку, Изд.-во АН Азерб. ССР, 1964.
4. Nəriman Nərimanov. Seçilmiş əsərləri. Bakı, Elm, 1973.
5. Qulam Məmmədli. Nəriman Nərimanov. 1870—1925. Həyat və yaradıcılığının salnaməsi. Bakı: Yazıçı, 1987.
6. Известия общества астраханских врачей. 1913, №4 (октябрь-декабрь).
7. Научно-практическая конференция “Ислам и медицина” : Портал ...www.bogoslov.ru/text/295286/index.html

Арзу Гаджиева

## МЕДИЦИНА И ИСЛАМ

*(из истории медицинского просвещения в азербайджане: Нариман Нариманов)*

### РЕЗЮМЕ

Мышление Н.Нариманова отличалось философской интенцией, обладало герменевтическим чутьем. Это помогло ему еще будучи студентом медицинского факультета прийти к пониманию того, что между медицинскими и исламскими законами есть некая близость, сообразность, и узреть в ней веский аргумент и действенный способ пропагандирования и распространения медицинских знаний в мусульманской среде. Эта тема раскрывается в настоящей статье через анализ книги «Медицина и ислам», первой и самой знаменитой из его произведений по медицине, которая, по мнению автора, до сих пор актуальна, сохраняет свое культурно-историческое и философское значение.

Arzu Hajiyeva

## MEDICINE AND ISLAM

*(From the history of medical enlightenment in azerbaijan: Nariman Narimanov)*

### SUMMARY

N.Narimanov's thinking was distinguished by his philosophical intention, possessed a hermeneutic flair. This helped him, while still a student in the medical faculty, to come to understand that there is a certain closeness, conformity between the medical and Islamic laws. And he was seeing in it a strong argument and an effective way of propagating and disseminating medical knowledge among Muslims. This topic is revealed in this article by analyzing the book "Medicine and Islam," the first and most famous of his medical works, which, in the author's opinion, is still relevant, retains its cultural, historical and philosophical significance.

# "SÖNDÜRMƏDİM ÜRƏYİMDƏ VƏTƏNİMİN ÇIRAĞIN"

## *(Muradəli Qureyşi Qaflantının həyat və yaradıcılığına qısa baxış)*

***Dilbər RZAYEVA,***
*AMEA-nın Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun elmi işçisi*

***AÇAR SÖZLƏR:*** *Ədəbiyyat, poeziya, aşıq şeiri, şair.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Литература, поэзия, ашугская поэзия, поэт.*
***KEY WORDS:*** *Literature, poetry, ashig poetry, poet.*

Müasir Güney Azərbaycan şairi Muradəli Qureyşi Qaflantı 1933-cü ildə Çaroymaq mahalının Heydərabad kəndində anadan olmuşdur. Onun uşaqlıq çağları Rza şahın Azərbaycanda yeritdiyi şovinist siyasət illərinə, xalqın ən çətin günlərinə təsadüf etmişdir.

Qaflantı yeddi yaşında kəndlərindəki Mirzə Məmmədin məktəbinə göndərilir. 1942-ci ildə təhsilini yarıda qoyub, ailəsinə kömək etmək üçün atası ilə birlikdə işləmək məcburiyyətində qalır. Həmin vaxt 13-14 yaşlı Qaflantının ailəsi doğma yerləri tərk edib, İranın başqa yerlərinə köçməli olur. 1950-ci ildə Tehran şəhərinə köçən Qaflantı 1952-ci ildə rezin fabrikində işə başlayır, həmçinin gecələr dərs oxumaqla təhsilini davam etdirir.

Hələ 1940-cı illərdə Qaflantı ədəbiyyata, xüsusilə aşıq şeirinə və sənətinə böyük maraq göstərməyə başlayır. O, boş vaxtlarını aşıq ocaqlarında keçirmiş və folklorumuzun bir qolu olan aşıq sənətini dərindən mənimsəyərək, şeirlər yazmışdır. Qaflantı 70- illərdə Tehranda yaşayan bir neçə Azərbaycan şairi ilə də tanış olmuşdur.

Qaflantı 1976-cı ildə Nüsrətullah Fəthi Atəşbəylinin vasitəsilə Tehranda fəaliyyət göstərən "Dostlar görüşü" adlı ədəbi dərnəyə üzv olmuşdur. Doktor Salamullah Cavidin təşəbbüsü ilə qurulan bu dərnək həmin illərdə bir çox Azərbaycan şairinin ədəbi inkişafında önəmli rol oynamışdır.

Həmin dövrdə şair Bulud Qaraçorlu Səhənd Qaflantının istedadlı el şairi olduğunu duyur. Səhənd Qaflantının şəxsiyyətində və şeirində bariz şəkildə gözə çarpan cəsurluq, mübarizlik, dönməzlik hisslərinin qaynağını onun zəhmətlə yoğurulan şərəfli yaşamında görür və bir ustad kimi Qaflantı poeziyasının inkişafına öz müsbət təsirini göstərir.

1978-ci ildə Təbriz şəhərindəki "Eldar" nəşriyyatında Qaflantının şeirlərindən ibarət "Seçilmiş əsərlər"i çap olunur. Həmin illərdə o, Tehranda yayımlanan "Yoldaş", "İnqilab yolunda", "Azadlıq", "Yeni yol", Körpü", "Dədə Qorqud", "Bəhari-Zəncan", "Günəş" və s. kimi jurnallarla da ciddi və sıx əməkdaşlıq edir.

Bakıda çap olunan "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" və Türkiyədə yayımlanan "İran türklərinin ədəbiyyat antolojisi" kimi toplularda Qaflantının şeirləri yer alır.

Qaflantı 1987-ci ildə Tehranda təşkil olunan, sonralar "Sahir ədəbi-mədəni dərnəyı" adı ilə fəaliyyət göstərən "Cənubi Azərbaycan şairlərinin bir qrupu" adlı ədəbi dərnəyin qurucularından və fəal iştirakçılarındandır.

1990-cı ildə Tehranda "Nəşr mina" çap evi tərəfindən Qaflantının "Ömür aynası" adlı yeni şeirlər kitabı işıq üzü görür. Bu kitab şairin ömrünün aynasıdır və biz bu aynaya baxarkən, onun keçirdiyi iztirabları, həyəcanları duyuruq, sevinclərini, kədərini hiss edirik, arzu və ümidlərini, məhəbbət və nifrətini başa düşürük. Şairin müxtəlif mövzularda qələmə aldığı şeirlərin toplandığı bu kitab onun yaradıcılığının səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirə bilib.

Professor Vüqar Əhməd "Muradəli Qureyşinin yaradıcılığı" adlı məqaləsində yazır: "Muradəli Qureyşi istər İran şahına, istər fars şovinistlərinə, istərsə də onlara güvənən riyakar ermənilərə qarşı öz yaradıcılığında sərt nidalarla, kəskin təşbehlərlə, eyni zamanda rəziledici həcvlərlə mübarizə aparıb. Belə ki, onun bütün bədii irsini gözdən keçirərkən bunun şahidi oluruq. "Çəkil qara duman" şeirində qürurla "Azər eli", "Azər ölkəsi" ifadələrini vurğulayan Muradəli Qureyşi "Utan xalqımızdan dedim düşmənə" şeirində İran şahının bütün günahlarını, cinayətlərini mirvari tək düzdüyü misralarda bəyan edir" [1, s. 3].

***Utan xalqımızdan dedim düşmənə,***
***Artırma zülmü haqq söz deyənə.***
***Bir gün də qalib gələrik sənə,***
***Boynunu burmağa macalın olmaz,***
***Bir su ki töküldü, yerinə dolmaz.***
***Neçə il millətin qanın sorubsan,***
***Neçə qəhrəmanın boynun vurubsan,***
***Hər zaman xəlq üçün tələ qurubsan,***
***Ayılıb bu millət yuxudan durar,***
***Bütün qan içənin boynunu vurar.*** [2, s. 29]

Qaflantının "Bizim kəndin bir illik tarixi" adlı əsəri Azərbaycanın milli demokratik hökuməti dövrünə - 1945-46-cı (1324-25) illərə təsadüf edir. Şair həmin illər ərzində xalqımızın başına gələn qanlı-qadalı hadisələrin, didərgin həmvətənlərimizin ağrılı-acılı taleyinin və yoxsul insanların ədalət uğrunda apardığı mübarizənin şahidi olmuşdur. Sonralar o, bütün bu gördüklərini çox sədaqətlə bir mənzumə şəklində dilə gətirmişdir.

Humanizm, insani münasibətlərin Muradəli Qureyşi Qaflantının şeirlərinin, eləcə də "Bizim kəndin bir illik tarixi" poemasının əsas ideyasını təşkil etdiyini vurğulayan ədəbiyyatşünas alim, tənqidçi, filologiya üzrə elmlər doktoru Esmira Fuad (Şükürova) şairin sənətkarlığını, poetikasını yüksək qiymətləndirir və poemadan örnəklər gətirərək yazır: "Bədii təsvir və ifadə vasitələrindən geniş surətdə istifadə edən Muradəli Qureyşi Qaflantının "Bizim kəndin bir illik tarixi" poemasındakı "Azər ellərinin yaslı günüydü, Qanlı ürəyinin paslı günüydü" misralarında "yaslı gün", "paslı gün" və "qanlı ürək" ifadələri ilə ardıcıl olaraq üç epitet yaradılıb. Qaflantı bu epitetlərlə 21 Azər hərəkatının qələbə çalmasından sonra Güney Azərbaycanda qurulmuş Milli Hökumətin Rza şah Pəhləvi qoşunlarının xarici havadarlarının köməyilə xüsusi qəddarlıq və görünməmiş amansızlıqla məğlub etdiyi qanlı olayı xarakterizə etmişdir" [3, s. 14].

Qürbət ab-havası, uzun illər doğma vətənindən ayrılıq, həzinlik, kədər və həsrət hissləri onun

alovlu misralarındakı coşğunluqla yanaşı duyulmaqdadır.

İnsanlıq eşqilə çarpan sənətkar ürəyi şairi klassik şeirimizin müasir səslənən ənənələrinə bağlayır və ulu Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir irsində qabarıqlaşan insanlıq ləyaqətinə köklənmiş sənət yolunu yiyələnməyə doğru yönəldir:

***Şairə sədaqət, şərəf, şan verən,***  
***Şeir damarına isti qan verən.***  
***Şairlik yolunu düz nişan verən,***  
***İnsanlıq eşqilə çarpan ürəkdir [***2, s. 26]

Qaflantının ictimai lirikasının əsas mövzusunu gündəlik həyatda baş verən hadisələr, insani xüsusiyyətlərin tərənnümü, xalqımızın mənəviyyatına yad olan eybəcərliklərə qarşı etiraz, bir sözlə, insan səadəti, vətənin abadlığı, dostluq, əmin-amanlıq kimi məsələlər təşkil edir.

Şahlıq üsuli-idarəsinin İranda əlli ildən artıq hökm sürən mənfur siyasətinin, qanlı-qadalı illərin cəmiyyətdə yaratdığı neqativ hallar zindanları abad, ölkəni viran qoymuşdu. İstibdad və diktatorluq istər-istəməz şeiri, poeziyanı üsyan bayrağına çevirmişdi. O zaman Qaflantının da şeirlərində bu üsyankarlıq, fəryad motivləri güclü idi:

***Görürəm çoxdandır batıblar yasa,***  
***Şahların zülmündən dolubdur kasa.***  
***Ürəklərdə ülfət əkən də yoxdur***  
***Dillər qadaxlanıb, qollar bağlanıb,***  
***Heç bir cınqırtı çəkən də yoxdur [***2, s. 37]

"Onun hər misrasında, hər beytində Azərbaycan xalqının nisgilli taleyi aydın təsvir olunub. Qaflantı şəxsi həyatında çox əzab və əziyyətlər çəkib, şahlıq rejiminin dözülməz və ağır şəraitində yaşayıb; ədalətsizlikləri qanıyla, canıyla hiss edib, məcburən doğma yurd-yuvasını buraxıb, təhsil əvəzinə çörək dalınca qaçıb. Bunların hamısı istər-istəməz gənc Qaflantını zülmə, ədalətsizliyə qarşı yönlədib. O, şah rejiminə dərin nifrət bəsləyib və onun yıxılmasını ürəkdən alqışlayıb. Bu dövr şaririn əsərlərində dərin iz buraxıb" [4, s. 43].

Bu faciəli, dözülməz şərait şairi ürəkdən sarsıtsa da, digər tərəfdən onun el ilə birlikdə mübarizə əzmini gücləndirir, səsini ellərin səsinə qataraq sanki şanlı inqilabın nəhayət qələbə çalacağına inamını əks etdirirdi:

***Sən ey qan gölündə üzən tacidar,***  
***Bil, gecə dalında aydın səhər var.***  
***Gələcək o gün ki sənin sarayın-***  
***Ellərin əlilə viran olacaq***  
***Qışa çeviriləcək baharın, yayın*** [2, s. 28]

M.Qaflantının şeirlərinin ilham mənbəyi, onların özəyi, mayası Vətən torpağıdır. Bu torpağın barı, bərəkəti, sədaqətli insanları, el-obaları, vüqarlı dağları, çaylarının nəğməsi, bulaqlarının duruluğu, meşələrinin sıxlığı, ilahi gözəlliyi, xalq qəhrəmanları, musiqisi, dünəni, sabahı və bu günü şairin ürəyində nəğmələrə, misralara çevrilir, onlara qol-qanad verir; şairdə nəcib hisslər, nikbin əhval-ruhiyyə, cəsurluq, dönməzlik, mətanət, vüqar kimi duyğular oyadır. Onu şair edən odu-közü, işığı sönməyən Vətən torpağıdır. Şair "Söndürmədim ürəyimdə vətənimin çırağın" qənaətində haqlıdır. Çünki onun düşüncəsinə görə, əgər bu çıraq sönərsə, o, şairliyini, insanlığını, hər şeyini itirər:

***Vətənim şəmdir, mən də pərvana,***
***Dolannam başına mən yana-yana***
***Ürəyim bağlıdır Azərbaycana***
***Hər zaman qeydinə qalmışam-qallam*** [2, s. 33]

Şair vətənin bu günü ilə bərabər, dünənini də düşünür. Vətən qəhrəmanlarının simasını, onların həyatını, mübarizəsini gözləri önündə canlandırır. Romantik xəyallar, röyalar aləmində, uşaqlıq çağları, ana laylasıyla qoşa nəğmələnən saz və bülbül cəh-cəhləri qoynunda bir daha yenidən (röyada) doğulur:

***Qaflantı yam andım o günləri mən***
***Canlandı gözümdə çiçəkli vətən.***
***Keçdi ürəyimdən o gül, o çəmən,***
***Bülbüllü bağları yadıma düşdü*** [2, s. 31]

Vətənin abadlığı, ellərin şad və xoşbəxt yaşayışı əlvan boyalarla, səmimi ahənglə gözlərimiz önündə canlanır:

***Çağlasın şəlalələr,***
***Çətir açsın lalələr,***
***Qurtarsın qəm, nalələr,***
***Sevinsin el, sevinsin*** [2, s. 12]

Bu arzu və istəklər təkcə Vətənlə məhdudlaşmır. O, Yer üzündə sülh və əmin-amanlıq arzulayır, insanların milliyyətindən asılı olmayaraq qardaşcasına yaşamasını tövsiyə edir və insan əli, insan zəkası ilə bəzənmiş dünyanı belə görür:

***Dünya gözəlləşsin insan əlilə***
***Bütün gözəllikdən kam alsın insan***
***Yaşasın, yaşasın öz əməlilə***
***Azadlıq qoynunda qocalsın insan*** [2, s. 23]

M.Qaflantının əsərləri məzmun, forma etibarilə tükənməz söz sərvətimizdən qidalanır. Cəsarətlə deyə bilərik ki, inqilabdan sonra inkişaf etməkdə olan ədəbiyyatımız, xüsusilə şeirimizin axını şairin yaradıcılığından yan ötməyib. Bu ədəbi mühit şairin şeirlərinə üslub cəhətdən də güclü təsir göstərmişdir.

Tənqidçi və şair Həsən İldırım "Ömür aynası" kitabına yazdığı müqəddimədə qələm dostunun şeirlərində təsvir olunan obrazların xarakterik xüsusiyyətlərini belə dəyənləndirir: "M.Qaflantının şeirlərində Azərbaycan şeirinə xas olan, doğmalaşan bir sıra obrazlarla rastlaşırıq. Bu obrazların bir çoxu şifahi ədəbiyyatımız vasitəsilə yazılı ədəbiyyatımıza köçüb və orada başqa obrazlarla bərabərhüquqlu yaşamaqdadır. Ancaq Qaflantı bu obrazların xarakterik xüsusiyyətlərini saxlayaraq onları müasirləşdirir, öz mənəvi dünyası və dövrü ilə uyğunlaşdırır və onları yeni ampulada təqdim edir:

***Maral bir an mənə baxdı.***
***Qəlbimi yandırıb, yaxdı,***
***Bəxt ulduzu göydən axdı.***
***Bir axşamın son çağında,***
***Qaflantının qucağında.*** [2, s. 16]

Bu "maral" mahnılarda dinlədiyimiz, çöllərdə gördüyümüz maraldan bir az fərqlənir. Bu maral insanilәşmiş maraldır. Qaflantının bu qəbildən olan obrazlarının hamısı belə bir xarakter daşıyır. Onlar şairin dövrü, mühiti ilə uyğun olan gözəlliklərin, təmizliklərin faciəli və tragik surətləridirlər" [2, s. 6].

Azərbaycan xalqının şair oğlu Muradəli Qureyşi Qaflantı 2005-ci il (1384) fevralın 15-də əbədiyyətə qovuşmuşdur. Cənazəsi dostları, ailəsi və Azərbaycan mədəniyyətsevərlərinin müşayiəti ilə Tehranın cənub hissəsində yerləşən "Yaftaabad" məzarlığında dəfn olunmuşdur.

## ƏDƏBİYYAT


1. Vüqar Əhməd. Muradəli Qureyşinin yaradıcılığı. "Xalq cəbhəsi", 2015, 6 fevral, s. 3.
2. Esmira Fuad. Güney Azərbaycan şairlərinin yaradıcılığı ilə bağlı düşüncələr. "Xalq cəbhəsi", 2016, 16 may, s. 14.
3. Xeyrulla X. (Saplaq) "Qocaman el şairi". "Xudafərin" dərgisi, 2005-1384, say 4, s. 43.
4. Muradəli Qureyşi Qaflantı. Ömür aynası. Tehran: "Nəşr Mina", 1369-1990.

Дильбар Рзаева

## КРАТКИЙ ОБЗОР ЖИЗНИ И ТВОРЧЕСТВА МУРАДАЛИ ГУРЕЙШИ ГАФЛАНТЫ

### РЕЗЮМЕ

Книга «Зеркало жизни» М. Гафланты - это зеркало жизни человека-поэта. Взглянув на это зеркало, мы чувствуем волнения, страдания, радость и печаль поэта, понимаем его желания и надежды, любовь и ненависть. В этой книге собраны написанные в разные периоды его произведения на различные темы, а также характерные особенности творчества.

Эта коллекция стихов является зеркалом поэтического мира общественных событий, отраженных в его личной жизни и нравственности. Гафланты пытается отразить в своих стихах испытанные им страдания, волнение, радость, горе, социальные события, оставившие след в его нравственности.

Dilbar Rzayeva

## BRIEF REVIEW OF MURADALI GUREYSHI GAFLANTI'S LIFE AND CREATIVITY SUMMARY

### SUMMARY

The book "The Mirror of Life" by M. Gaflanti is a mirror of f poet's life. Looking at this mirror, we feel the poet's excitement, suffering, joy and sorrow, understand his desires and hopes, love and hate. This book contains his works written in different periods on various topics, as well as the characteristic features of his creativity.

The collection of poems is a mirror of the poetic world of social events, reflected in his personal life and morality. In his poems Gaflanti is trying to reflect sufferings he experienced, excitement, joy, grief, social events that left a mark on his morality.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ALİ TƏHSİL SİYASƏTİ

***Tünzalə MUSAYEVA,***
*AMEA-nın Fəlsəfə İnstitutunun*
*Sosial psixologiya şöbəsinin*
*kiçik elmi işçisi və dissertantı*

***AÇAR SÖZLƏR:*** *müstəqillik, təhsil, milli dövlətçilik, universitet, cümhuriyyət.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *независимость, образование, национальная государственность, университет, республика.*
***KEY WORDS:*** *independence, education, national statehood, university, republic.*

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin may ayının 28-də öz suverenliyini elan etməklə müstəqillik tariximizdə yeni bir mərhələ yaratmışdır. Cümhuriyyətin siyasi, iqtisadi və hərbi baxımdan möhkəmlənməsi üçün həm dünya, həm də region dövlətləri ilə münasibətlərinin qurulması və müxtəlif sferalarda əməkdaşlığın genişləndirilməsi vacib məsələlərdən idi. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti ölkənin müstəqilliyinin tanınması və bu zəmində başqa dövlətlərlə münasibətlərin qurulması istiqamətində səylərini artırmışdır. Cümhuriyyət liderlərinin 23 ay ərzində apardığı xarici siyasət dünyada Azərbaycanın sivil, demokratik respublika kimi tanınmasında böyük rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətində əvvəlcədən təcəssüm edilmiş azərbaycançılıq ideyasının qələbəsi sayəsində ötən yüzilliyin sonunda Azərbaycanın müstəqil dövlət quruluşunun dirçəlişi mümkün olmuşdur. Eyni zamanda, vaxtilə Cümhuriyyətin və müasir dövrdə Azərbaycanın qarşılaşdığı bir çox xarici siyasət problemlərinin oxşarlığı da diqqət cəlb edir. Lakin hazırda yaranan vəziyyət qlobal və regional siyasət kontekstində Cümhuriyyət dövründən əhəmiyyətli dərəcədə fərqlənir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqımızın istiqlal mübarizəsi tarixində çox mühüm hadisə hesab edən Prezident İlham Əliyev demişdir: **“Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır”** [1].

Cümhuriyyətin yaranması Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında nə qədər böyük, mütərəqqi hadisə idisə, 71 sonra itirilmiş dövlət müstəqilliyinin bərpası da xalqımızın tarixində bir o qədər mühüm hadisə, tarixi inkişaf prosesinin qanunauyğun nəticəsi idi. Milli qurtuluş uğrunda uzun və ağır mübarizənin çox mühüm mərhələlərindən biri başa çatmışdır. XX əsrin əvvəllərində xalqımızın, onun aparıcı hissəsi olan milli-demokratik ziyalıların azadlıq

uğrunda apardığı mübarizənin qanunauyğun nəticəsi kimi ərsəyə gələn bu dövlət mövcud olduğu qısa zaman ərzində cəmiyyət həyatının müxtəlif sahələrində bir sıra islahatlar keçirmiş, milli dövlət quruculuğu istiqamətində uğurlu addımlar atmağa müvəffəq olmuşdur. Xalq maarifi, elm və təhsil kimi həyati əhəmiyyət kəsb edən sahələr də yeni qurulmaqda olan dövlətin diqqətindən, qayğısından kənarda qalmırdı. Bir sıra çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq maarifinin müstəmləkəçilikdən azad olması, yeni təhsil ocaqlarının açılması istiqamətində xeyli işlər görülmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalqın maarifləndirilməsinə böyük əhəmiyyət verirdi. Xalqın milli özünüdərkində, milli şüurunun oyanmasında mühüm rolu olan milli mədəniyyətin, təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə xüsusi diqqət ayrılmışdır. Ümumiyyətlə, həmin dövrdə AXC hökuməti elm və təhsil sahəsində böyük nailiyyətlər əldə etmişdir. Belə ki, qısa müddətdə Xalq Maarifi Nazirliyi yaradılmış, hökumətin başçısı olan Nəsib bəy Yusifbəyli qurumun rəhbəri seçilmişdir. Cümhuriyyətin təşkil etdiyi ilk hökumətin tərkibində Xalq Maarif Nazirliyi öncül yerlərdən birini tutmuşdur. Maarif və mədəniyyət işləri haqqında danışarkən hökumətin başçısı Fətəli Xan Xoyski demişdir: “Bu, cəmiyyətin elə bir hissəsidir ki, dövlətin bazisi, ictimai həyatı bunsuz qurula bilməz” [2, s. 53]. AXC-nin daxili siyasətində Azərbaycan xalqının formalaşması layihəsinin həyata keçirilməsində əsas vasitə kimi təhsilin milliləşdirilməsi məsələsinə xüsusi yer ayrılmışdır. Cümhuriyyətin təhsil sahəsində həyata keçirdiyi ilk tədbirlərdən biri də hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi idi. Azərbaycan hökuməti ilk günlərdən başlayaraq, milli kadrların hazırlanması, bu sahədə təhsilin tamamilə yenidən qurulmasına xüsusi əhəmiyyət verirdi. Nazirliyin təhsil sahəsində həyata keçirdiyi ilk və ən mühüm tədbirlərdən digəri isə məktəblərin milliləşdirilməsi olmuşdur. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbaycan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər [3, s. 95].

AXC-nin Parlamenti 7 müəllim seminariyasının, 1 qadın seminariyasının, qəza mərkəzlərində orta məktəblərin açılması, uşaq bağçaları sisteminin yaradılması, yüz nəfər azərbaycanlı gəncin təhsil almaq üçün dövlət hesabına xaricə göndərilməsi barədə və s. qanunlar və qərarlar qəbul etmişdir. Məktəblər milliləşdirilməklə ilk dəfə olaraq azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilmişdir. Azərbaycan hökumətinin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi ki, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılmalı və dövlət dili olan Ana dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Müəllimlərə yaranan ehtiyacı ödəmək üçün 1918-ci ildə Gəncə, Şəki və Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil olunmuşdur. Eyni zamanda, Maarif Nazirliyi Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müstəqil seminariya kimi Qazaxa köçürülməsi haqqında qərar qəbul etmişdir [4, s. 72].

Azərbaycan Xalq Cümhuriyyətinin siyasətində ibtidai, orta, orta ixtisas məktəblərinin təşkili ilə yanaşı, ali məktəblərin açılmasına da xüsusi diqqət yetirilirdi. Ali məktəblərin təşkili dəfələrlə parlamentin və hökumətin müzakirə obyekti olmuşdu. Bakıda Pedaqoji İnstitutun açılması haqqında Maarif Nazirliyi tərəfindən qanun layihəsi işlənib hazırlanmışdı. Həmçinin Bakı Musiqi Məktəbinin bazasında Konservatoriyanın yaradılması barədə hökumətin fikirləri gündəliyə gəlmişdi. Lakin

iqtisadi və maliyyə çətinlikləri ancaq Bakı Dövlət Universitetinin açılmasına imkan vermişdir. Bakı şəhərində Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universitetinin yaranması haqqında fikrin parlament müzakirələrində birmənalı qarşılanmamasına, ali təhsil müəssisəsinin təşkili əleyhinə mühafizəkar səslər ucalmasına baxmayaraq, hökumət öz qərarında israrlı idi. Uzun müzakirələrdən sonra parlament 1919-cu il sentyabrın 1-də Bakı şəhərində Dövlət Universitetinin təsis olunması haqqında qanun qəbul etmişdir. Universitetin ilk rektoru V.İ.Razumovski yazırdı: "Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hiss edirik" [5, s. 86]. Onun dediklərində böyük həqiqət və uzaqgörənlik var idi. Universitetin yaranması bütün Şərqdə mühüm hadisə olmaqla Azərbaycan xalqının mədəni həyatında parlaq səhifənin başlanğıcı, onun gələcək inkişafının əsas amili idi. Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza böyük yadigarıdır.

Bakı Dövlət Universitetinin ilk rektoru professor V.İ.Razumovski, tibb fakültəsinin dekanı professor Levin, tarix-filologiya fakültəsinin dekanı isə N.A.Dubrovski təyin olunmuşdur. Universitetdə dərs demək üçün yüksək ixtisaslı kadrlar çatışmadığından Moskvadan və Rusiyanın müxtəlif böyük şəhərlərindən görkəmli alim və professorlar dəvət edilmişdir. İlk tədris ilində universitetdə təhsil alan 877 tələbə arasında azərbaycanlıların sayı olduqca az idi. Tarix-filologiya fakültəsinin 509 nəfər tələbəsindən yalnız 12-si azərbaycanlı idi. Tibb fakültəsinə 10 nəfər azərbaycanlı qızın qəbul edilməsi böyük hadisə idi. 1919-cu il noyabrın 15-də universitetin auditoriyalarında ilk mühazirələr başlanmışdır. Tarix-filologiya fakültəsində Məhəmməd Əmin Rəsulzadə və maarif naziri Rəşid Qaplanov Osmanlı ədəbiyyatından, Məhəmməd ağa Şahtaxtlı isə Azərbaycan dilinin qrammatikasından mühazirələr oxumuşdular. 1919-20-ci tədris ilində universitetdə 1094 tələbə təhsil alırdı ki, onların da 217 nəfəri azad dinləyici idi. Azərbaycan Xalq Cümhuriyyəti özünün yaratmış olduğu elm və təhsil məbədgahının bəhrəsini görməsə də, bu möhtəşəm elm ocağı Azərbaycan xalqının taleyində çox mühüm hadisə oldu. Xalqımızın gələcək inkişafında, gələcək nəsillərin yetişməsində sönməz mayak rolunu oynadı [2].

Azərbaycanın ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin üzərinə respublikanın ilk ali təhsil müəssisəsi kimi təhsil, elm, mədəniyyət və iqtisadiyyatın bütün sahələri üçün yüksək ixtisaslı kadr hazırlamaq vəzifəsi qoyulmuşdu. Universitet respublikada sürətlə inkişaf edən təhsil, iqtisadiyyat, elm və təhsil müəssisələrini ixtisaslı kadrlarla təmin etməli idi. Bu mühüm dövlət vəzifəsini həyata keçirmək üçün universitet hər il yeni-yeni ixtisaslar açır, tələbə qəbulunu artırırdı.

Arxiv sənədlərindən görünür ki, universitet tələbələri kimi hər iki cinsdən olan şəxslər qəbul edilirdilər. Universitetə qəbul olunmaqdan ötrü vacib şərt orta təhsilə malik olmaq idi. Universitetə gimnaziyanın 7 və realnı məktəblərin 6 sinfini bitirmiş Azərbaycan vətəndaşları qəbul edilirdilər. Onlar diplom almaqdan ötrü əlavə imtahan verməli idilər. Eyni zamanda, müəllimlik seminariyalarını bitirmiş Azərbaycan vətəndaşları da universitetə qəbul olunmaq hüququna malik idilər. Universitetə mühazirələri dinləmək və praktiki məşğələlərdə iştirak hüququ ilə azad dinləyicilər də qəbul edilirdi. Tələbələrin və azad dinləyicilərin ödəniş haqqı 500 manata çatırdı. Eyni zamanda, universitet rəhbərliyinin təhsil alan tələbələrin 10%-ə qədərini ödənişdən azad etmək hüququ var idi. 1 sentyabr 1919-cu il tarixində parlament 100 abituriyent və tələbənin xarici ali təhsil müəssisələrinə

göndərilməsi barədə qərar qəbul etmişdi. Qərarda göstərilirdi ki, bu məqsədlə 1919-1920-ci tədris ilində dövlət büdcəsindən Maliyyə Nazirliyinin sərəncamına 7 milyon rubl vəsait ayrılır. Bu şərtlə ki, Avropaya göndərilən hər bir tələbəyə 400 frank aylıq təqaüd, 1000 frank yol xərci, eyni zamanda Rusiyaya göndərilən tələbələrə isə 3 min rubl aylıq təqaüd və 3 min rubl yol xərci ayrılacaq.

Göründüyü kimi, Xalq Cümhuriyyətinin liderləri müxtəlif xarici dilləri bilən ali təhsilli milli kadrların hazırlanmasına, ölkədə qabaqcıl dünyəvi təhsilin bərqərar olmasına xüsusi diqqət yetirmişlər [3, s. 99].

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti olduqca düşünülmüş, xalqın milli mənafeyinə, azərbaycançılığa xidmət göstərən, ölkəmizin təhsil və elmi potensialını daim inkişaf etdirməyə yönələn kompleks bir siyasət idi. Bu siyasətin əsasında Azərbaycan dilinin hərtərəfli öyrənilməsi, bütün dövlət idarələrində ana dilinin tətbiq edilməsi, diplomatik yazışmalarda ana dilindən istifadə edilməsi dayanırdı. Cümhuriyyətin qarşısında dayanan ən ümdə vəzifələrdən biri də Azərbaycanda ali təhsilli milli kadrların hazırlanması idi. Hökumət bu məsələni, bir tərəfdən ölkədə ali təhsil müəssisələri yaratmaqla, digər tərəfdən azərbaycanlı gəncləri xarici ölkələrin müxtəlif ali təhsil müəssisələrinə göndərməklə həll etməyə çalışırdı [6, s. 82]. Ölkənin idarə olunmasını təmin edəcək ali təhsilli mütəxəssislərin hazırlanması Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ən çox əhəmiyyət verdiyi sahələrdən biri idi. Bu vəzifənin icra edilməsi istiqamətlərindən biri azərbaycanlı gənclərin dövlət hesabına xarici ölkələrin tanınmış ali məktəblərinə təhsil almağa göndərilməsi idi [2]. Elə o vaxtdan təhsil tariximizdə azərbaycanlıların xaricdə dövlət səviyyəsində təhsil almasının təməli qoyulmuşdur.

Bu məqsədlə Azərbaycan Parlamenti xüsusi komissiya təşkil etmişdi. Komissiyanın gərgin əməyi və ciddi axtarışları ilə xaricə ali təhsil almağa göndəriləcək 100 tələbə seçilmiş, 10 nəfərin İngiltərəyə, 23 nəfərin İtaliyaya, 45 nəfərin Fransaya, 9 nəfərin Türkiyəyə, 13 nəfərin Rusiyaya göndərilməsi qərara alınmışdı. Seçilən tələbələr 1920-ci ilin yanvarında Parlament və hökumət üzvlərinin, tanınmış iş adamlarının, din xadimlərinin və ictimaiyyətin iştirakı ilə təntənəli şəkildə yola salınmışdır. Lakin qürbət ellərə yola düşən gənclərin heç də hamısı nəzərdə tutulduğu kimi təhsil ala bilməmişdir. Çünki İngiltərə azərbaycanlı tələbələri qəbul etməmişdir. İtaliyada təhsil alması nəzərdə tutulan 23 nəfərdən yalnız 6 nəfəri həmin ölkədə qalmışdır. Fransada təhsil almalı olan 45 nəfərin hamısı orada yerləşə bilməmişdir. Parlament komissiyası ölkələrin siyahısını tərtib edərkən Almaniyanı bu siyahıya salmasa da, yuxarıda adları çəkilən ölkələrdən fərqli olaraq məhz Almaniya tələbələrimizin yaşaması və təhsil alması üçün ən münasib ölkə olmuşdur. Azərbaycanlı tələbələrin çoxu Almaniyanın ali təhsil müəssisələrinə qəbul edilmişlər [6].

Azərbaycan Xalq Cümhuriyyəti mədəni-maarif sahəsindəki siyasətində milli mənafelərə hörmət prinsipi çox yüksək tutulmuş və demokratik xarakter daşımışdır. Bu siyasət Azərbaycanda yaşayan bütün millətlərin mənafeyinə uyğun idi, onların mədəni inkişafı üçün geniş və real imkanlar açırdı. Milli dövlətçiliyimizin tarixi nailiyyəti olan Azərbaycan Xalq Cümhuriyyəti qısa ömür yaşasa da, xalqımızın əzəli arzusu olan müstəqillik ideyalarının gələcəkdə gerçəkləşməsi üçün zəngin ənənələr formalaşdırmış, milli ideologiyanın, azərbaycançılıq ideyasının inkişafının elmi əsaslarını yaradıb yadigar qoymuşdur.

## ƏDƏBİYYAT


1. İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunan rəsmi qəbulda iştirak edib / https://president.az/articles/28794
2. Azərbaycan Cümhuriyyəti (1918-1920). Məs. redaktor: N. Ağamalıyeva. Bata, 1998
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild Lider nəşriyyat Bakı 2004
4. Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu.,B., 2001
5. Məhərrəmov A.M. Bakı Dövlət Universiteti.- B., 2000.
6. Bakı Dövlət Darülfünunun Təsisi. Sənədlər toplusu. Bakı, ADU, 1989

Тунзаля Мусаева

## ПОЛИТИКА ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

### АННОТАЦИЯ

Особое место во внутренней политике Азербайджана отводилось вопросу национализации образования, основному инструменту для реализации проекта формирования азербайджанской нации. Особое внимание было уделено открытию университетов в политике Азербайджанской Демократической Республики. Важным событием в области национально-культурного строительства стало открытие первого в Баку университета. Организация высших учебных заведений часто обсуждалась между парламентом и правительством.

Tunzala Musayeva

## POLITICS OF HIGHER EDUCATION OF AZERBAIJANI DEMOCRATIC REPUBLIC

### ANNOTATION

The special place in domestic policy of Azerbaijan was allocated to a question of nationalization of education, the main tool for implementation of the project of formation of the Azerbaijani nation. Special attention has been paid to opening of the universities in policy of Azerbaijan Democratic Republic. Opening of the Baku's first university became an important event in the field of national and cultural construction. The organization of higher educational institutions was often discussed between parliament and government.

# İCTİMAİ-SİYASİ ARENADA SƏFƏVİYYƏ TƏRİQƏTİ

**Rəhim HƏSƏNOV,**
*AMEA-nın Fəlsəfə İnstitutunun doktorantı*
*hesenli.82@inbox.ru*

**AÇAR SÖZLƏR:** *Səfəviyyə təriqəti, Səfəvi şeyxləri, ictimai-siyasi tarix, Səfəvilər imperiyası.*
**КЛЮЧЕВЫЕ СЛОВА:** *орден Сефевидов, сефевидские шейхи, общественно-политическая история, империя Сефевидов.*
**KEYWORDS:** *Safaviya sect, Safavid sheikhs, social and political history, Safavid Empire.*

Şanlı tariximizdə Səfəvi şahlarının ictimai-siyasi fəaliyyəti ilə yanaşı, eyni zamanda Səfəviyyə təriqəti şeyxlərinin də bu səpkidə fəaliyyəti silinməz iz buraxmışdır. Səfəviyyə təriqətinin yaradıcısı olan Şeyx Səfiəddinin dövründən başlayan bu hərəkatın Şeyx Sədrəddin Ərdəbili, Xoca Əlaəddin Əli, Şeyx İbrahim, Şeyx Cüneyd, Şeyx Heydər, Sultan Əli Mirzə Səfəvi və Şah İsmayıl Səfəvi kimi parlaq simaları olmuşdur. Məhz Səfəviyyə təriqəti şeyxlərinin ictimai-siyasi fəaliyyəti nəticəsində də Səfəvi imperiyası meydana gəlmişdir.

Səfəviyyə təriqətinin yaradılmasında mühüm rol oynayan məşhur sufi Şeyx Səfiəddin əl-İshaq əl-Musəvi əl-Ərdəbili (1252-1334), eyni zamanda Səfəvilər sülaləsinin də banisi idi. Tədqiqatçılar Şeyx Səfiyəddinin soy-kökünün yeddinci imam Musa əl-Kazıma (745-799) gedib çıxdığını irəli sürürlər. Araşdırmaçıların bəziləri isə bu şəcərənin uydurma olduğunu və yalnız XVI əsrdə ortaya çıxdığını iddia edirlər. Lakin bu şəcərənin uydurma olması iddiası, ehtimal ki, XVI əsrdə Osmanlılar zamanında ortaya atılmışdır. Çünki Ərdəbildə məskunlaşan Şeyx Səfiəddinin İsna əşəriyyə əqidəsinə malik olması və onun nəslinin yeddinci imam Musa əl-Kazımdan gəlməsi haqqında tutarlı dəlillər mövcuddur.

Səfiəddin Ərdəbili 1252-ci ildə Ərdəbildə anadan olmuşdur. Firuz şahın nəvəsi olan Səfiəddin Zahidiyyə təriqətinin mürşidi Şeyx Zahidi Gilanidən (1216 – 1301) dərs almış və Şeyxin qızı Bibi Fatma ilə evlənmişdir. Qısa müddət ərzində təsəvvüf sahəsində dərin biliyə malik olması ona böyük şöhrət qazandırmış və Şeyx Zahidi Gilaninin ölümündən sonra şiəlik məzhəbi əsasında öz ideologiyasını yaymağa başlamışdır. Şeyx Səfiəddin Elxanilər dövlətinin vəziri Fəzlullah Rəşidəddin (1247-1317) ilə yaxın əlaqələr qurmuş və onun hörmətini qazanmışdır.

Zaman keçdikcə Şeyx Səfiəddinin ətrafına toplananların və ona bağlananların sayı artmağa başlamışdır. Şeyxin xalq arasında nüfuz qazanması monqol hökmdarı Əmir Çobanın (1262-1328) da diqqətini çəkmiş və Səfiəddini ziyarət etmişdir. Bu ziyarət əsnasında Səfiəddin Əmir Çobandan monqolların xalqa göstərdikləri təzyiqin ortadan qaldırılmasına nail olmuşdur. İslam dünyasının hər tərəfindən insanlar şeyxi görməyə gəlirmiş və onların önəmli bir hissəsi də Anadoludan gələn şiələr idi. 1334-cü ildə Şeyx Səfiəddin vəfat etdikdən sonra oğlu Sədrəddin Musa onun yerinə keçmiş və 1334-1392-ci illər arasında Səfəviyyə təriqətinin şeyxi olmuşdur. Artıq Səfəviyyə təriqətin

tərəfdarlarının sayı minlərlə idi.

Sədrəddin Musadan sonra təriqətin şeyxi oğlu Xacə Əlaəddin Əli (şeyxliyi 1392-1428) olmuşdur. İlk Osmanlı hökmdarları bu təriqətin şeyxlərinə hər il "Çıraq axçası" adıyla hədiyyə verirdilər. Xacə Əlinin Əmir Teymurun yanında böyük nüfuzu vardı. Əmir Teymur Ərdəbili Xacə Əliyə hədiyyə etmişdir. Həmin hadisədən sonra Anadoludakı şiə zümrələri də bu təriqətin tərəfdarı olmaq üçün can atmışlar. Əmir Teymurun Anadoludan İrana apardığı türkmənlər Xacə Əlinin xahişi ilə Ərdəbilə yerləşmiş və onun müridləri olmuşlar. Onlardan bir qismi Anadoluya qayıdaraq pirlərinin təbliğatını aparmağa başlamışlar.

Xacə Əlidən sonra təriqətin şeyxi 1428-1447-ci illərdə onun oğlu İbrahim olmuşdur. O, atasının dövründə Anadolu şiələri arasında başlayan təbliğat işlərini daha da gücləndirmişdir. Anadoluda Hacı Vəli Bektaşın yaratdığı Bektaşilik təriqətinin mənsubları arasında Səvəfiyyə təriqətinə inananların sayı daha da çoxalmışdır.

Anadolu şiələri üçün iki vəli vardı, bunlardan biri, Hacı Bektaş, digəri isə Şah İbrahim idi. Şah İbrahim Anadolu şiələrinin böyük hissəsi tərəfindən vəli kimi qəbul edilirdi. Müridləri Şeyx İbrahimdən "Şeyxlərin şahı" deyə bəhs edirdilər. Həyatı haqqında çox az məlumat olan Şeyx İbrahim 1447-ci ildə vəfat etdikdən sonra oğlu Cüneyd Ərdəbil təkkəsinin şeyxi olmuşdur. Səfəvilər Cüneyddən etibarən siyasi işlərə qarışmağa başlamışlar.

Cüneyd 1447-ci ildə təkkə və təriqətin rəhbəri olduqda əmisi Şeyx Cəfər böyük narahatlıq keçirmişdir. Çünki Cüneyd təriqət daxilində Xacə Əli zamanından etibarən böyüyərək inkişaf edən şiəliyin təsiri altında idi. Bu vəziyyət isə əmisinin təmsilçisi olduğu təriqətin və təkkənin ənənəvi sünni düşüncəsi ilə ziddiyyət təşkil edirdi. Şeyx Cəfərin fikrincə, qardaşı oğlu Cüneyd qatı rafizi idi və bu inanc ilə təkkənin başında dayana bilməzdi.

Şeyx Cüneydin məqsədi təriqəti yalnız dini cəhətdən deyil, eyni zamanda hərbi və siyasi cəhətdən də gücləndirərək şiə dövləti qurmaq idi. Bu baxımdan təriqət ənənəvi sünni inancına və ənənəsinə qarşı çıxırdı. Cüneydin hədəfi yalnız şeyx kimi xatırlanmaq deyil, həm də sultan olmaq idi.

Şeyx Cüneydin aktiv şiə təbliğatına başlaması sayəsində ətrafına minlərlə tərəfdar toplaması şiə dövləti olan Qaraqoyunlu hökmdarı Cahan şahı da narahat edirdi. Bundan istifadə edən Şeyx Cəfər oğlu Seyid Qasımı Cahan şahın qızlarından biri ilə evləndirmişdir. Bu evlilik yolu ilə ortaq düşmənləri Cüneyd olan Şeyx Cəfər və şah Cahanın ittifaqı qurulmuşdu. Bu ittifaq nəticəsində Cahan şah Ərdəbilə məktublar yazaraq Cüneydin şəhəri tərk etməsini tələb etmiş və əks halda onun qətlə yetiriləcəyini bildirmişdir. Cüneyd də əmisi Cəfər və Qaraqoyunlu şahı Cahanın təzyiqlərinə dözə bilməyərək sonralar nəvəsi İsmayılın quracağı Qızılbaş dövlətinin təməlini atan 11 illik sürgün səfərinə çıxmışdır.

Cüneyd Ərdəbili tərk etdikdən sonra Osmanlı torpaqlarına getməyə qərar vermişdir. Cüneyd Osmanlı torpaqlarında təriqətin yeni inancını yayacağını və orada məskən sala biləcəyini düşünürdü. Çünki babası Xacə Əlinin Əmir Teymur ilə görüşərək 1402-ci ildə Ankara döyüşündə əsir düşmüş Osmanlı əsgərlərini sərbəst buraxdırması Osmanlı imperiyasında Səfəvi şeyxlərinin məşhurluğunu artırmışdır. Hətta Osmanlı sultanları Ərdəbil təkkəsinə hörmət göstərməyə başlamışdılar.

Şeyx Cüneyd Osmanlı torpaqlarına çatdıqda burada məskunlaşmaq icazəsini almaq üçün

müridini müxtəlif hədiyyələrlə sultan II Muradın hüzuruna göndərmişdi. Lakin II Murad Cüneydin siyasi fəaliyyətindən xəbəri olduğu üçün ona müsbət cavab verməmişdir. Sultan yeddi dərvişin bir xanədə otura bildiklərinə baxmayaraq, bir taxta iki padşahın sığmayacağını və qarşısında onu rəqib kimi görmək istəmədiyini bildirmişdir.

Şeyx Cüneyd Osmanlı torpaqlarında qaldığı qısa müddət ərzində Səfəvilərin yeni məqsədini geniş kütləyə çatdıra bilmişdir. Osmanlı dövlətinin türkmənlərə qarşı apardığı siyasətdən narahat olan Anadoludakı türkmən tayfaları, eyni zamanda bektaşilər özünü Əhli-beyt soyundan gəldiyini və apardığı mübarizədə haqlı olduğunu söyləyən Cüneydin ətrafında toplaşmışlar.

Sultanın torpaqlarında yaşamaq izni vermədiyini görən Cüneyd təsəvvüf şəhəri kimi məşhur olan Qaraman bəyliyinin Konya şəhərinə getmişdir. Orada olduğu zaman Şeyx Sədrəddin Konəvi adı ilə xatırlanan təkkəni ziyarət etmiş və On iki imam şiəliyinə əsaslanan Səfəvi təriqətinin təbliğatına başlamışdır. Lakin onun bu fəaliyyəti sünni üləması Şeyx Əbdüllətif əl-Qüdsi ilə olan müzakirəsindən sonra başa çatmışdır. Bu müzakirə zamanı Şeyx Əbdüllətif əl-Qüdsi Cüneydin kafir olduğunu, onun yolunda gedənlərin də kafir olacağını bildirmişdir. Bu hadisədən sonra Konyada uzun müddət qala bilməmiş və Tavr (Toros) dağlarındakı Varsaq türkmənlərinin yanına getmişdir.

Şeyx Cüneyd burada özünə tərəfdar tapmaqda çətinlik çəkməmişdir. Tavr dağlarında yaşayan əhali arasında yayılan əsas inanc Bektaşilik idi. Cüneydin ayaq basdığı Aralıq dağlarının sakinləri Abdal Musa davamçısı idilər. Cüneyd burada da Anadoluda olduğu kimi, Bektaşilərlə qarşılaşmışdı. O, Əhli-beytə əsaslanan Səfəvi inancını yaymağa çalışmış və qısa müddət ərzində Abdal Musa diyarında öz ətrafına on minlərlə mürid toplamışdır.

Cüneyd burada təriqətini yayarkən onu kafirliklə ittiham edən Şeyx Əbdüllətif Qaraman bəyi İbrahim bəyə Cüneydin məqsədinin hakimiyyəti əldə etməyə çalışdığını bildirmişdir. Bir tərəfdən kafirlikdə günahlandırılan, digər tərəfdən də İbrahim bəyin siyasi və hərbi təzyiqi ilə üzləşən Cüneyd Şimali Suriyaya ərazisinə getmişdir. Lakin Cüneyd bölgəni tərk etsə də, artıq bu ərazidə onun minlərlə tərəfdarı var idi. Ona bağlı olan birliklər içində mühüm yer tutan Varsaqlar sonralar qurulan Qızılbaş dövlətinin əsas dayaqlarından birinə çevriləcəkdilər.

Qaraman bəyinin təzyiqləri nəticəsində Şeyx Cüneyd ona bağlı bir qisim müridi ilə birlikdə Məmlük sultanlığının tərkibində olan Hələb yaxınlığındakı Ərsuz dağında xristianlardan qalma bir qalanı əmirdən satın alaraq orada məskunlaşmışdır. Yeni torpaqlar onun İmadəddin Nəsiminin düşüncələri ilə yaxından tanış olmasına bir vəsilə olmuşdu. Cüneyd Suriya torpaqlarına ayaq basmasından bir neçə il əvvəl, 1417-ci ildə Seyid İmadəddin Nəsimi Hələbdə edam olunmuş və bu torpaqlar həmin hadisəyə şahidlik etmişdi. İndi də Cüneydin dini və siyasi fəaliyyətlərinə şahidlik edirdi. Şeyx Cüneyd Anadoludakı heteredoks inanclardan sonra Hələbdə hürufilik inancı ilə də tanış olmuşdu. Təbliğatını bütün inancları özündə ehtiva edəcək şəkildə genişlədirmişdi. Bunun nəticəsində Suriyadakı hürufilər də Cüneydin tərəfdarlarına qoşulmuşlar. Ən əhəmiyyətlisi isə gələcəyin Qızılbaş ordusunu meydana gətirən türkmən tayfaları da ona bağlılıqlarını bildirmişlər. Osmanlı torpaqlarından gələn Şeyx Bədrəddin Simavinin oğlu və tərəfdarları da ona qoşulmuşlar. Şeyx Cüneyd tərəfdar sayının artdığını görərək yaşadığı qalanın ətrafında bir əmirlik qurmağa cəhd etmişdi. Cüneydin bu fəaliyyəti həm Suriyadakı sünni üləmanı, həm də Məmlük əmirlərini narahat etmişdir. Bölgədə yaranmış bu vəziyyətdən xəbərdar olan Misirdəki Məmlük sultanı Cüneydin

üzərinə hücuma keçmişdir. Şimali Suriya torpaqlarında böyük bir tərəfdar toplayan Cüneyd müridlərindən ibarət orduyla Məmlüklərə qarşı çıxmağa qərar vermiş, Hələb yaxınlarında baş tutan döyüşdə Cüneydin ordusu məğlubiyyətə uğramış və çoxlu itki vermişdir. Bu məğlubiyyətdən sonra Şeyx Cüneyd öz şansını başqa torpaqlarda sınamaq qərarına gəlmişdir. Məmlüklərin əlinə keçməmək üçün Şeyx Qara dənizin sahillərində yerləşən Canik dağlarına getmək qərarını verərək Şimali Suriyadan Qara dənizə doğru səfərə çıxmışdır. Şeyx Cüneyd bu səfəri əsnasında türk və kürd tayfaların hücumuna məruz qalaraq canını çətinliklə qurtarmış və Qaradəniz sahillərindəki Osmanlıların nəzarət etdiyi Canik bölgəsinə çatmağa müvəffəq olmuşdur.

Döyüşkən Çəpni tayfalarının Şeyx Cüneydə dəstək olması ona Hələbdə uğradığı məğlubiyyətin acı təsirini unutdura bilmişdir. Şeyx Cüneyd Osmanlılar ilə yaxşı münasibətdə olmayan Çəpni tayfaları arasında Səfəvi ocağının Bektaşilikdən və Hürufilikdən təsirlənmiş 12 imam şiə inancını yaymağı bacarmışdır. Bir müddət sonra ikinci ordusunu Çəpni tayfalarından meydana gətirərək Trabzon Rum dövlətinə qarşı döyüşə başlamışdır. Şeyx Cüneydin bu qərarı müridləri arasında cihad hesab edildiyi üçün böyük coşğu yaratmışdır.

Cüneydin ordusu Rumların üzərinə hücuma keçərək, Trabzon Rum kralının qatıldığı Ağcaqala döyüşündə qələbə qazanmış, kral isə döyüş meydanından qaçaraq Trabzona çəkilmişdir. Həmin ərəfədə Fateh Sultan Mehmet ordusu və donanması ilə Trabzon üzərinə səfərə çıxdığından Cüneydin bu şəhəri ələ keçirmək istəyi baş tutmamışdır.

Çoxsaylı Osmanlı ordusu ilə qarşı-qarşıya gəlməkdən çəkinən Şeyx Cüneyd çarəni Ağqoyunlu dövlətinə sığınmaqda tapmış və Uzun Həsənin dəvəti ilə Amid şəhərində məskunlaşmışdır. Uzun Həsənin məqsədi Səfəvi şeyxinin də dəstəyini alaraq ondan Qaraqoyunlu hökmdarı Cahan şaha qarşı istifadə etmək idi. Bu isə Cüneydin siyasi mənafeyinə uyğun gəlirdi. Çünki onun sayəsində həm öz təriqətini daha rahat təbliğ edə biləcək, həm də Osmanlı, Məmlük, Qaraman bəyliyi və Qaraqoyunlu kimi dövlətlərin təzyiqindən qorunmuş olacaqdı.

Uzun Həsən bacısı Xədicə Bəyimi Şeyx Cüneydə ərə verməklə aralarındakı ittifaqı daha da möhkəmləndirmişdir. Şeyx Cüneyd üç il Ağqoyunlu dövlətinin paytaxtı Amiddə qalmış və bu müddət ərzində müridləri vasitəsilə bütün bölgədə Səfəviyyə təriqətini təbliğ edə bilmişdir. Bu dövrdə Şeyx Cüneyd Dərsim başda olmaqla bölgədəki Əhli-beyt soyundan gələn Qureyşan, Baba Mənsur və s. təriqətlərlə də əlaqə yaratmışdır. Artıq Səfəviyyə təriqəti Dərsim torpaqları başda olmaqla bir çox Dımili və Kurmanc tayfaları arasında yayıla bilmişdir. Beləliklə, Şeyx Cüneyd Ərdəbildən çox uzaqda, həm özünə bağlı Türkmən birliklərindən, həm də Dımili və Kurmanclardan ibarət çoxsaylı müridlər ordusu yaratmağı bacarmışdır.

Şeyx Cüneyd 1448-ci ildə tərk etmək məcburiyyətində qaldığı Ərdəbilə - əmisi Cəfərin şeyxlik etdiyi təkkəyə 11 illik sürgün həyatından sonra 1459-cu ildə qayıtmışdır. Bu hadisədən əmisi Şeyx Cəfər və Qaraqoyunlu hökmdarı narahat olmağa başlamış və Cahan şah Cüneydə təhdid dolu məktub yazaraq onun Ərdəbili tərk etməsini istəmişdir.

Bir tərəfdən əmisi Cəfərin təzyiqi, digər tərəfdən Cahan şahın təhdidləri səbəbindən Cüneyd yenidən səfərə çıxmağa məcbur olmuşdur. Cüneydin hədəfi müridlərindən ibarət qurduğu 10 min nəfərlik ordu ilə çərkəzlərə hücum edərək qələbə qazanmaq və yenidən Ərdəbilə qayıtmaq idi. Bu səbəbdən də öz ordusunu hazırlayaraq Şimali Qafqaza doğru irəliləmişdir. Lakin çox keçmədən

əmisi Şeyx Cəfər ilə Qaraqoyunlu Cahan şahın ittifaq bağladığı Şirvanşah I Xəlilullah qarşısını kəsmişdir.

Azərbaycanda Samur çayının sol sahilindəki Qıpçaq kəndi yaxınlığında baş vermiş döyüşdə Şeyx Cüneyd öldürülmüş və ordu geri çəkilərək şeyxlərini Samurun sağ sahilindəki Gülxan kəndi (indiki Qusar rayonunun Həzrə kəndi) deyilən yerdə dəfn etmişlər. Beləliklə, Cüneydin mübarizə dolu həyatı öz əmisinin də içində olduğu bir ittifaq tərəfindən döyüş meydanında sona yetmişdir.

Şeyx Cüneydlə həyat yoldaşı Xədicə Bəyimin 9 yaşlı oğlu Heydər atasından sonra təriqətə rəhbərlik etmək üçün Ərdəbilə getmişdir. Sonralar Şeyx Heydər Uzun Həsənin həyat yoldaşı Despina Xatunun qızı Marta ilə ailə qurmuşdur. Bu nikahdan dünyaya gələn üç uşaqdan kiçiyi Səfəvi dövlətinin qurucusu olan Şah İsmayıl idi.

Şeyx Heydər dərviş xirqəsi geyinər, başına sufi təkkəsi taxardı. Müridləri də onun kimi geyinər, başlarına Heydəri ("tərəke-Heydəri") deyilən papaq qoyardılar. Qırmızı rəngli papaq 12 dilimli idi. Təriqət ardıcıllarına görə, 12 dilim 12 İmamı, qırmızı rəng isə Əhli-beyt ilə qan qohumluğu mənasını verirdi, bu rəng həm də Həzrət Əliyə bağlılığın simvolu idi. Qırmızı papaqlı Heydəri dərvişlərini qızılbaş adlandıran sünnilər bu təbiri daha sonra bütün şiələr üçün istifadə etmişlər.

Şeyx Heydər 1488-ci ildə Şirvana üçüncü yürüşündə (birinci yürüş - 1483-cü il, ikinci yürüş -1487-ci il) Şirvanşah Fərrux Yasar Heydər ilə mübarizə apara bilməyəcəyini anlamış və qalaya çəkilmişdir. Şirvanşah Fərrux Yasar bir tərəfdən Heydərin başını qatmış, digər tərəfdən qohumu Ağqoyunlu hökmdarı Yaqub bəydən kömək istəmişdir. Şeyx Heydər var gücü ilə döyüşməsinə baxmayaraq, 1488-ci ilin avqustunda aldığı ox yarasından həlak olmuş və ordusu geri çəkilmişdir.

Şeyx Heydərdən sonra müridlər onun böyük oğlu Əlinin ətrafında birləşmişlər. Atalarını da öldürən Yaqub bəy üç bacısı oğlunu (Əli, İbrahim, İsmayıl) anaları ilə birlikdə həbs etmişdir. Onlar dörd il yarım qalada qalmışlar.

Şeyx Heydərin böyük oğlu Əli düşmənləri ilə döyüşərkən öldürülmşüdür. Aləmşah bəyimin (Marta xatun) oğlu İsmayılı Ərdəbil təkkəsində gizlətdiyi deyilir. Əba, ya da Mama adlı bir qadının İsmayılı Ərdəbildə Anadolulular (Rum) məhəlləsindəki evində saxladığı rəvayət edilir. İsmayıl bir müddət sonra Rəştə, oradan da Lahistana getmiş və on üç yaşında ikən yenidən Ərdəbilə qayıtmışdır. Qısa müddət ərzində Şirvanşah Fərux Yasarı və Ağqoyunlu hökmdarı Əlvənd Mirzəni məğlub edən İsmayıl Səfəvi 1501-ci ilin payızında Təbrizdə taxta çıxmışdır. Beləliklə, tarixdə yeni bir dövlət – Səfəvi, yaxud Qızılbaş dövlətinin əsası qoyulmuşdur.

## ƏDƏBİYYAT

1. Abbasov N., Həsənov R. Təsəvvüf fəlsəfəsi, Bakı, 2012.
2. Bünyadov Z. Azərbaycan tarixi. Bakı, 1994.
3. Məhəmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994.
4. Məhəmmədov Z. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, 1978.
5. Məhəmmədov Z. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, 1986.
6. Adıvar A.A. Tarih boyunca ilim ve din. İstanbul, Yükselen matbaa, 1969.
7. Eraydın S. Tasavvüf ve tarikatlar. İstanbul, 1994.
8. Yılmaz H. K. Anahtarları ile tasavvüf ve tarikatlar. İstanbul, 2002.

Рагим Гасанов

## ОРДЕН СЕФЕВИДОВНА В ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ АРЕНЕ

РЕЗЮМЕ

В героический истории нашего народа неизгладимый след оставила не только общественно-политическая деятельность сефевидских шахов, но и в тоже время деятельность шейхов ордена Сефевидов. Начиная со времен основателя ордена шейха Сефиаддина, представителями этого движения были такие яркие личности как Шейх Седреддин Ардебили, Ходжа Аладдин Али, Шейх Ибрагим, Шейх Джунейд, Шейх Гейдар, Султан Али Мирза Сефеви и Шах Исмаил Сефеви. Общественно-политическая деятельность шейхов ордена способствовала созданию империи Сефевидов.

В статье освещаются основные аспекты общественно-политической деятельности ордена сефевидских шейхов, а также образование Сефевидской империи.

Rahim Hasanov

## THE SAFAVIYA SECT IN SOCIAL-POLITICAL ARENA

SUMMARY

The social and political activities of the Safavid rulers as well as activities of Safaviya sect's sheikhs has left an indelible mark in the heroic history of our people. Sheikh Safieddin who was the founder of the sect, Sheikh Sadreddin Ardebili, Hodja Aladdin Ali, Sheikh Ibrahim, Sheikh Junayd, Sheikh Heydar, Sultan Ali Mirza Safavi and Shah Ismail Safavi have been amongst the illuminating figures of the sect. The socio-political activities of the Safaviya sect's sheikhs contributed to the creation of the Safavid Empire.

The article outlines the main aspects of the socio-political activity of the Safavid Sacred Sheikhs, and the formation of the Safavid Empire.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, "14" ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.

# К СВЕДЕНИЮ АВТОРОВ

1. В журнале издаются безукоризненно отредактированные, краткие научные статьи, которые являются результатом новейших исследований, не предоставленных другим изданиям.

2. Текст статьи предоставляется ответственному секретарю журнала в электронном варианте, напечатанном в 1 экземпляре, шрифтом Times New Roman на азербайджанском и русском языках, в формате А4, с “14” размером букв, в интервале 1,5, на расстоянии от полей страницы сверху и снизу 2 см, слева 3 см, справа 1 см.

3. В статье должно быть указано учреждение, где работает автор, адрес данного учреждения и электронная почта автора.

4. В заключение статьи в ясной форме необходимо показать соответствующий характеру статьи научный результат, к которому пришёл автор, научное новаторство работы, практическую значимость и прочее.

5. Научная ссылка в связи с темой обязательна. Список литературы, данный в конце статьи должен быть пронумерован по порядку встречаемых в статье ссылаемых литератур и обозначен как {1} или {1, стр.119}. Если в статье будет ссылка на одинаковую литературу, тогда данная литература должна быть помечена прежним номером.

6. Информация о каждой ссылке в списке литератур должна быть полной и точной. Библиографическое описание ссылаемого источника зависит от её типа (монография, учебник, научная статья и т.д.). При ссылке на одинаковые статьи, симпозиумы, конференции и тезисы прочих влиятельных научных мероприятий должно быть указано название доклада или же тезиса. При библиографическом описании ссылаемого источника необходимо основываться на требования имеющей силу инструкции о “Порядке оформления диссертаций” Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики пункта 10.2-10.4.6 части “Использованная литература”.

7. В списке литературы, данной в конце статьи нужно отдать предпочтение научным статьям, монографиям и прочим надёжным источникам последних 5-10 лет.

8. Должно быть дано резюме на языке статьи и ещё 2 языках дополнительно. Рекомендуется, чтобы объём статьи был в пределах 8-10 страниц, а резюме 5-8 строк.

9. Резюме статьи на разных языках должно быть идентичным и соответствовать содержанию статьи. Научный результат, к которому пришёл автор или авторы, новаторство научной работы, практическая значимость и прочее должны быть в краткой форме отображены в резюме. Резюме должно быть серьёзно отредактировано с научной и грамматической точки зрения. В каждом резюме нужно в полном виде указать название статьи, имя автора или же авторов.

10. В каждой статье следует указать индексы UOT или коды типа PACS и ключевые слова. Ключевые слова должны быть даны на трёх языках (на языках статьи и резюме).

11. Автор несёт ответственность за качество статьи, достоверность указанных фактов и прочих сведений.

12. При упоминании имён святых и видных религиозных деятелей считается целесообразным использовать особую форму обращения, основываясь на международную практику относительно подготовки к печати научно-популярных статей, написанных на религиозную тему.